## İxtisas: Məktəbəqədər təhsil

## Kafedra: Pedaqogika, Psixologiya və sosial fənnlər

## Fənn: Ailə pedaqogikası

## Müəllim: Nəsibova Ülviyyə

**Mühazirə 1: Ailə pedaqogikasının predmeti və vəzifələri**

**PLAN:**

**1. Ailə pedaqogikası pedaqoji elmlər istemində**

**2. Ailə pedaqogikasının digər elmlərlə əlaqəsi**

**3. Ailə pedaqogikasının qaynaqları**

Ailə pedaqogikası nəyi öyrənir?

Ailə pedaqogikası pedaqogikanın mühüm sahələrindən biridir. Pedaqogikaya bir çox təriflər verilir: "Pedaqogika dedikdə, uşaqların təhsilinin, təliminin və tərbiyəsinin mahiyyəti, qanun və qanunauyğunluqları, məqsəd və vəzifələri, məzmunu, prinsip və metodları, pedaqoji prosesin təşkilinin səmərəli forma və yolları, bu və ya digər məktəb tipinin idarə olunması və s. bu kimi məsələlərdən bəhs edən elm nəzərdə tutulur"; "Pedaqogika təlim və tərbiyəsinin qanunauyğunluqları haqqında elmdir", "Pedaqogika tərbiyə haqqında elmdir" və s.

Pedaqogika müxtəlif yaş mərhələlərində təhsilin, təlimin və tərbiyənin problemlərini - erkən uşaqlıq pedaqogikasını; məktəbəqədər pedaqogikanı; ibtidai və orta məktəb pedaqogikasını; ali və orta ixtisas təhsil müəssisələrinin pedaqogikasını; yaşlıların pedaqogikasını; korreksiya pedaqogikasının problemlərini öyrənir.

Haqqında danışılan sahələr vahid məqsədi, vəzifələri, metodoloji əsasları özündə birləşdirir.

Pedaqogika elmi təhsil, tərbiyə və təlimin bir çox məsələlərini işləyib hazırlamaq, çətinlikləri aşkara çıxarmaq, onların aradan qaldırılmasına və düzgün qərarın qəbul olunmasına kömək göstərmək iqtidarına malikdir.

Pedaqoji elmlər sistemində ailə pedaqogikası özünəməxsus yer tutur.

Çox qədim tarixə malik olan ailə qəbilə formasından başlayaraq mürəkkəb inkişaf yolu keçmiş və nəhayət, hazırkı ailə münasibətləri şəklinə gəlib çıxmışdır.

J.J. Russonun qənaətincə, ailə bütün cəmiyyətlərin ən qədimi və yeganə təbii olanıdır.

Sosioloqlara görə, ailə - nikah ittifaqına, qan qohumluğuna əsaslanan, üzvləri məişət birliyi, qarşılıqlı yardım, mənəvi-ruhi məsuliyyət baxımından əlaqədə olan kiçik sosial qrupu əhatə edir.

Ailə ailə münasibətləri üç əsas formasına görə səciyyələndi yi təqdirdə sosial təsisat kimi qəbul edilə bilər. Bu formalara daxil dir: 1) ər-arvadlıq; 2) valideynlik və 3) qohumluq. Həmin göstəricilərdən biri olmadıqda "ailə qrupu" anlayışından istifadə edirlər .

Ölkəmizdə ailədə uzun illər ata-babalarımızın tərbiyə ənənələ rindən kərbiyə üsullarından bəhrələnmişlər. Cavan ailələr onlan tindiyəsi zamanı öz valideynlərinin faydalandıqları tərbiyə metodin tamı tərbiyə prinsiplərini, tərbiyənin təşkili formalarını və yollarını yada salaraq övladlarını tərbiyə etmişlər. Bu vaxt xalq pedaqogika sı, etnopedaqogika da onların köməyinə yetmişdir.

Tərbiyə təcrübəsinin tarixi qədimdir. O, ilk insanlarla bir zamanda meydana gəlib. Həmin zamanlar uşaqları pedaqogika elmi olmadan tərbiyə edir və təlimi ilə məşğul olurdular. Tərbiyə və təh sil haqqında elm çox-çox sonralar - fəlsəfə, riyaziyyat, nücum (astronomiya) və s. elmlər artıq var ikən formalaşdı. Fəqət xalq peda qogikası həmişə mövcud idi, tərbiyə və təlim üsulları nəsillərdən nəsillərə yazılmamış qanunlarla, şifahi şəkildə ötürülürdü. Sadə insanlar, əməkçi xalq tərbiyə etməyi, əmək, məişət, zehni və s. bu kimi müxtəlif bacarıq və vərdişləri aşılamağı, biliklər verməyi bir- birindən öyrənərək tətbiq edirdilər. Qız – anadan, oğul - atadan görüb-götürür, "xanım qız xalasına, xan oğlan - dayısına oxşamağa" çalışırdı. Ata-babalarımızın sözləridir: "Ana qızına taxt verər, ata oğluna baxt", "Qız anadan görməyincə öyüd almaz, Oğul atadan görməyincə süfrə çəkməz” və s.

Etnopedaqogika insanların mənəvi, ruhi və fiziki inkişafında xüsusi əhəmiyyət daşıyırdı. Xalq hikmətini və müdrikliyini, tərbiyə sahəsində əsrlər boyu qazanılan təcrübəni, fikir və ideyaları özündə birləşdirən xalq pedaqogikasında əqli, mənəvi, əmək, estetik və fiziki tərbiyənin canlı sistemi formalaşmışdı.

Azərbaycanda ailə tərbiyəsinin inkişafı tarixi ölkəmizin mədəniyyəti və tarixi ilə sıx surətdə bağlı olmuşdur.

Uşaq şəxsiyyətinin formalaşdırılmasında ailənin mənəvi və psixoloji iqliminin, həyat tərzinin rolu böyükdür. Bu zaman sosial yönəlmələr, ailənin dəyərlər sistemi, ailə üzvlərinin bir-biri ilə və ətrafdakılarla qarşılıqlı münasibətlərinin xarakteri, mənəvi ideallar, ailə ənənələri, ailənin tələbatları, valideyn nümunəsi diqqət mərkəzinə gəlir.

Uşağa özünəməxsus fərdi irsi xüsusiyyətlər xas olsa da, o nə təkcə sırf pis, nə də yalnız sırf yaxşı keyfiyyətlərlə doğulmur, istedad və qabiliyyətini də hazır şəkildə özü ilə gətirmir. Uşağın şəxsi keyfiyyətləri və qabiliyyətləri ilk növbədə valideynləri ilə ünsiyyət və fəaliyyətin müxtəlif növlərində iştirak zamanı təşəkkül tapır. Uşaq valideyndən heç də yalnız xarici əlamətləri (gözlərin, saçların rəngi, bədən quruluşu və s.) deyil, həm də sinir sisteminin tipoloji xüsusiyyətlərini, beynin eşitmə və görmə mərkəzlərinin quruluşunun özünəməxsusluğunu və s. əxz edir.

Ailə pedaqogikası pedaqoji elmin böyüməkdə olan nəslin təhsilləndirilməsini, inkişaf etdirilməsini və tərbiyəsini özünəməxsus şəkildə həyata keçirən ailənin potensial imkanlarını

öyrənən, uşaq şəxsiyyətinin formalaşdırılması istiqamətində valideynlərə elmi cəhətdən əsaslandırılmış tövsiyələr işləyib hazırlayan mühüm bir sahəsidir.

Uşaq üçün ailədaxili münasibətlər ictimai münasibətlərin ilkin səciyyəvi nümunədir. Uşaq da bu münasibətlərə qoşulur. Ailədə böyüklər və uşaq arasındakı möhkəm əlaqələr, uşağa hörmətli münasibət nəticəsində uşaqlarda kollektivizm, xeyirxahlıq, müstəqillik kimi mühüm keyfiyyətlər inkişaf edir.

Ailədə uşaq ailə rolları, ər-arvad, valideyn vəzifələri haqqında təsəvvürlərə yiyələnir, ata-analarını yamsılayaraq, onlardan öyrənərək sosial davranış vərdişləri qazanır.

Uşaq evindəki uşaq özünün gələcək ailə vəzifələri və funksiyaları, ailədə davranış təcrübəsinə dair ilkin təsəvvürləri mənimsəmək imkanlarından məhrum olur.

Ata-ana tərbiyəsi görməyən uşaqlarda pedaqoji baxımdan kənaraçıxmalar müşahidə olunur. Belə uşaqların arasında emosional sahədə qüsurlar xüsusi yer tutur ki, bu da hisslər, davranış və şəx sahələrarası ünsiyyət mədəniyyətində mənfi çalar alır.

Uşaq şəxsiyyət kimi doğulmur, sosiallaşma prosesində və ictimai təcrübənin yiyələnməsi prosesində şəxsiyyətə çevrilir. Insan dünyaya gələndə qayğı ilə əhatə olunur. Sonradan öz "Məninin təkrarolunmazlığını dərk etməsi onu tənhalığını aradan qaldırmağa təhrik edir. O, sevmək və sevilmək, kimə isə lazım olmaq həvəsi ilə alışıb yanır. Ehtiyacını o, nikahda, ailədə tapır. Ailənin uşağa təsiri zaman baxımından uzunsürəkliyi ilə fərqlənir.

Uşaq evdə öz vaxtının təxminən üçdə iki hissəsini keçirir. Burada o, oynayır, mütaliə edir, dərslərini hazırlayır, ailə əməyinə qoşulur, istirahət edir, radioya qulaq asır, televiziya verilişlərinə baxır, yaxın adamları ilə öz təəssüratlarını, sevincini və kədərini bölüşür. Ailə nin adət və ənənələri, qayda və qanunları ömrü boyu onunla qalır.

Ailə pedaqogikası bir elm kimi formalaşmağa başlananda ilk növbədə onun obyektinin və predmetinin müəyyənləşdirilməsi diqqət mərkəzində dayanıb.

Ailə pedaqogikasının obyektini tərbiyəvi və təhsilləndirici təsisat kimi ailənin inkişafı vəziyyəti və ənənələri təşkil edir.

Ailə pedaqogikasının predmetinin əsasında isə, ailə tərbiyəsi və ailədə aparılan təhsilləndirici və inkişafetdirici işlərin mahiyyəti, məzmunu, mexanizmi, həmin proseslərin uşaq şəxsiyyətinin təşək külünə göstərdiyi təsir dayanır.

Ailədə tərbiyə və təhsilləndirici işlərin qarşısında dayanan məqsəd uşaq şəxsiyyətinin hərtərəfli inkişaf etdirilməsinə nail olmaqdan ibarətdir.

Ailədə tərbiyənin məqsədi özünün subyektivizmi ilə fərqlənir. Bu, ona görədir ki, hər bir ailə övladlarını özünəməxsus şəkildə tərbiyə edir. Bu zaman uşağın real və minimum qabiliyyətləri, digər fərdi xüsusiyyətləri diqqət mərkəzində dayanır.

Ailə pedaqogikasının vəzifələrinə daxildir:

-ailə tərbiyəsinin nəzəri problemlərinin işlənib hazırlanması;

-ailə tərbiyəsi, uşağın ailədə təhsilləndirici və inkişafetdirici təcrübəsinin öyrənilməsi;

-elmi nailiyyətlərin ailə tərbiyəsinin təcrübəsinə daxil edilməsi:

-valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsi yollarının tədqiqi;

-ailə və ictimai tərbiyənin;

valideynlərinin və müəllimlərin qarşılıqlı fəaliyyətinin texnologiyasının məqsədyönlü şəkildə nisbətinin əsaslandırılması və s.

Ailə sosial və mədəni dəyərlərin qorunub saxlanması və uşağa ötürülməsi üçün həyati zərurətdir və həyati zərurət olaraq qalır.

Ailədə tərbiyə və uşaqların zəruri biliklərə yiyələnmələri mütəmadi şəkildə ata-anaların hərtərəfli köməyi, onların şəxsi nümunəsi, ailə ənənələri, böyüklərin nüfuzu vasitəsilə həyata keçirilir. Lakin bütün bunlar məktəbdəki məşğələ, yaxud dərs kimi dəqiq təşkilati formalar şəklində deyil. Ailə şəraitində tərbiyə uşağa fərdi təsir yolu və ailə üzvlərinin həyat fəaliyyəti vasitəsilə reallaşır. Biliklərə yiyələnmə müəllimlərin verdikləri tapşırıqların evdə yerinə yetirilməsi ilə bağlı ata-anaların, yaxud ailənin digər yaşlı üzvlərinin uşaqlara bu və ya digər dərəcədə kömək göstərməsində öz ifadəsini tapır.

Valideynlər qarşılarına konkret məqsəd və real pedaqoji vəzifələr qoyduqda, onlar nəyə nail olacaqlarını (son nəticə) qabaqcadan aydın təsəvvür etdikdə və zəruri səriştəyə malik olduqda uğur qazana bilirlər.

Nəsirəddin Tusi yazırdı: "Hər işi görən insandır, onun üçün də insan tərbiyəsi hər şeydən vacibdir, bununla məşğul olan elm də ən şərəfli sayılmalıdır, yalnız "əxlaqı saflaşdırma sənəti" alçağı yüksəyə qaldırmağa bacaranları istedadları daxilində “səadətə çatdırmağa qadirdir".

Ailə yekcins yox, diferensial sosial qrupdur. Ona müxtəlif yaşlara, müxtəlif cinsə, təhsillilik dərəcəsinə, müxtəlif peşəyə yiyələnmiş "altsistemlər" daxildir. Burada 2-4 nəsil birlikdə yaşayır. Onların fərqli həyat mövqeyi, idealları, inam və əqidələri olur. Ailə üzvləri bir-birinə qarşılıqlı təsir göstərir. Bu, uşağa imkan verir ki, özünün emosional və intellektual imkanlarını geniş şəkildə təzahür etdirsin, tez bir zamanda onları həyata keçirsin.

Ailə uşaqları ictimai həyata hazırlamaq üçün onlara bir sıra tələblər verir və çalışır ki, övladlarının dünyagörüşü və təcrübəsi ge nişlənsin. Uşaq öz sevincini və kədərini ata-anaları ilə bölüşə bilir sə, onda özünəinam, psixoloji sabitlik, daxili rahatlıq yaranır. Onlar valideynlərini özlərinə arxa, dayaq, dəstək bilirlər.

Uşağın tərbiyəsi və inkişafı hələ xeyli əvvəl, o, anadan olmamışdan başlanır. Alimlərin fikrincə, doğuşdan sonrakı ilk 36 saat ana üçün sensitiv dövr sayılır. Əgər bu dövrdə ana çağa ilə ünsiyyə tə girmək imkanı qazanarsa, başqa sözlə, “dəri-dəri” əlaqəsi baş tutursa, anada uşaqla intim ruhi əlaqə yaranır.

Ailələrdə tərbiyənin bir-birinin əksi olan iki qütbü müşahidə olunur: **avtoritar tərbiyə və azad tərbiyə.**

**Avtoritar tərbiyə** məsləhət bilinməyən taktikadır. Uşaqların bu və ya digər tələbinin, tələbatının, maraq və mənafeyinin nəzərə alınmaması, onların müstəqillik hüququnun buxovlanmasıdır. Bu ailələrdə oğlanın, qızın hüquqları məhdudlaşdırılır, valideynlər uşağın qeydsiz- şərtsiz onlara tabe olmalarını istəyirlər. Uşaq şəxsiyyətinin formalaşdırılması zamanı qadağalara və məcburetmələrə uymadan onda şüurluluğu  inkişaf etdirmək lazımdır. Zorla tərbiyə etmək olmaz.

Belə şəraitlərdə, xüsusən oğlanlar ya aqressiv, bir sıra hallarda isə, iradəsiz böyüyürlər. Bitib-tükənməyən qadağalar onların psixikasına mənfi təsir edir.

**Azad tərbiyəni** münasib bilən valideynlərə görə, uşaq məhdudiyyət və qadağalarsız böyüməlidirlər. Onlar vəzifələrsiz inkişaf etməlidirlər. Fəqət belə mövqe tutmaq da arzuolunmazdır. Hər şeyə icazənin verilməsi öz arzu və istəklərini, maraq və meyillərini cilovlaya bilməyən, başqa insanların hüquqlarını və mənafeyini nəzərə almayan şəxsiyyətlərin meydana çıxmasına gətirib çıxara bilər.

Həzrəti Əlinin belə bir kəlamı var: “Hər kəsin tərbiyə üsulu yumşaq olsa, onun övlad və törəmələri tərbiyəsiz olar"

Tərbiyə ailə tərbiyəsi və ictimai tərbiyə olmaqla iki yerə bölünür.

Ailə tərbiyəsi uşaqların cəmiyyətdə tərbiyəsinin formalarından biri olub, ailənin rifahı, həyat fəaliyyətinin (yəni kortəbii – şüursuz, nəzarət olunmayan təsiri (davranış tərzi, adətləri, həyat qaydaları obyektiv təsiri ilə valideynlərin məqsədyönlü fəaliyyətin nəzərdə tutur.

İctimai tərbiyə dedikdə, "insan-insan" sistemində, yəni bilavsitə insan münasibətləri ilə, həmçinin bu məqsədlə xüsusi müəssisələrlə, ictimai təsisatlarla – xeyriyyə fondları, təşkilatları, cəmiyyətləri, assosiasiyalar və s. vasitəsilə həyata keçirilən tərbiyə anlaşılır.

Ailə və ictimai tərbiyə uyğun gəlməyə və hətta bəzən bir-birinə zidd ola bilər.

Uşaq bağçasında və ailədə tətbiq olunan metodlar seçiminə və məzmununa, psixoloji mahiyyətinə, uşağa təsirin səmərəliliyinə görə fərqlənir.

Tərbiyənin növündən asılı olaraq, bu və ya digər sosial təsisatda (ailə və ya ictimai) tərbiyə prosesinin məqsədləri, məzmunu və quruluşu fərqləndirilir.

Onlar nə ilə fərqlənir? 1. Tərbiyənin məqsədi ilə. 2. Vəzifələri ilə. 3. Tərbiyənin metodları ilə.

**Ailə pedaqogikasının digər elmlərlə əlaqəsi**

İnsanların bir-biri ilə münasibətlərin çox qədim və unikal formalarından biri ailədir. Onun özünəməxsusluğunu və unikallığını bunda görmək olur ki, bir qrup şəxs illərlə öz həyatlarının xeyli hissəsini, haradasa 30, 40-70 ilini bir-birləri ilə qarşılıqlı münasibətlər şəraitində keçirirlər.

Ölkəmizdə hətta elə ailələr vardır ki, ər-arvad 90-100 il birgə yaşamış (Kəlbəcərli İlyas baba və Xatın nənə), oğul, uşaq, nəvə, nəticə, kötücə görmüş, onları qayğı ilə əhatə etmişlər.

Hindistanda Aqra şəhərində möhtəşəm və təkrarolunmaz bir memarlıq abidəsi -Tac Mahal. Aqra XVII əsrdə Böyük Moğol var imperatorluğunun paytaxtı idi. Təbrizli türk memarlarının yüksək sənətkarlıqla inşa etdikləri bu türbə dünyanın yeni yeddi möcüzəsin- dən biri hesab olunur.

Tac Mahalın divarları bahalı daş-qaşlarla bəzədilib, yüz minlərlə firuzə, əqiq və sədəfdən, o cümlədən 42 zümrüd, 142 yaqut, 625 brilyant, 50 çox böyük incidən istifadə olunub. Abidənin inşasına 47 milyon qızıl lirə xərclənib. Buraya divarlardakı cavahiratlar daxil deyil. Türbənin hündürlüyü 75 metrdir. 4 minarəsi vardır ki, onlar ağ və çəhrayı mərmərlərdən tikilib.

Öz gözəlliyi ilə dünyaya səs salmış, hamının diqqətini cəlb etmiş və hər kəsi heyrətdə qoyan bu türbəni Cahan şah arvadı Ərcümənd banunun şərəfinə ucaltdırmışdır.

Ərcümənd banu özünün gözəlliyi, ağlı və zəkası, xeyirxahlığı və yaxşı əməlləri ilə imperatorluqda ad çıxarmış sultan olmuş, hamı tərəfindən sevilmiş, böyük hörmət və nüfuz qazanmış, fəqət həyatdan vaxtsız köçmüşdür. O, uşağını dünyaya gətirərkən dünyasını dəyişmişdi. Ərcümənd banu həm də Mümtaz Mahal kimi tanınırdı. Ona görə də türbə Tac Mahal adlanır.

Babür İmparatorluğu hükümdarı Şah Cihan (Şah-ı Cihan: Dünyanın Şahı) (1593-1666) Ərcümənd banuya o, hələ 16 yaşında ikən vurulmuş, onunla ailə qurmaq üçün 5 il gözləmişdi.

Cahan şah həyat yoldaşını hədsiz məhəbbətlə sevirdi. Şah onunla məsləhətləşir, rəyinə, istəklərinə hörmətlə yanaşırdı. Cahan şah arvadının ölümünə səkkiz gün yas saxlamış, bu müddətdə yeməkdən, içməkdən qalmış, sarayı tərk etməmişdir. Doqquzuncu gün bayıra çıxarkən onun xeyli qocaldığının, saçlarının isə ağappaq olduğunu görmüşlər. Ümumiyyətlə, Cahan şah arvadının yasını düz iki il saxlamış, ölənə qədər bir an onu unutmamışdı.

Tac Mahal saf eşqi təntənəsini göstərən bir abidədir. Cahan şah öləndən sonra vəsiyyətinə görə o da Tac Mahalda - həyat yoldaşının yanında dəfn olunmuşdur.

Belə məhəbbət möcüzələr yaradır, xoşbəxt ailə formalaşdırır, uğurlu nikaha səbəb olur.

Babil hökmdarı II Navuxodonosor (m.ə.605-562-ci illər) da həyat yoldaşı Semiramida ilə dərin məhəbbət və xoşbəxt şəraitində yaşamışdır. O da xanımının şərəfinə "Asma Bağlar" saldırmışdır. "Semiramidanın asma bağları" da dünyanın Yeddi Möcüzəsindən biri sayılır.

Bütün yuxarıda deyilənlər insanın həyatında ailənin, ailə üzvləri, ər-arvad arasında qarşılıqlı anlamanın, qarşılıqlı hörmətin, ailə qarşısında borc və məsuliyyətin necə önəmli olduğunu göstərir.

Ailə cəmiyyətin bel sütunu olub müxtəlif sosial funksiyaları yerinə yetirir. Ər-arvada həyat yoldaşları deyirlər. Həyat yoldaşı, yəni həyatın yoldaşı. Ər-arvadın ən böyük, ən qiymətli əsərləri

uşaqlardır, onlara sevgiləridir, övladlarını həyatın fərəhli yollarına çıxarmaları, cəmiyyətə, Vətənə layiqli övladlar verməkdir!

Odur ki, ailənin problemləri ayrı-ayrı elmlərdə maraq oyadır. Başqa sözlə, ailə və onun inkişafı əksər elmlərin obyektini təşkil edir.

Sosiologiya, fəlsəfə, tibb, etnoqrafiya, etika, psixologiya, hüquq, demoqrafiya, pedaqogika, iqtisadiyyat və b. müasir ailəni öyrənməyi, tədqiq etməyi özünün başlıca vəzifəsi hesab edir. Bu elmlər bu və ya digər dərəcədə şəxsiyyət, şəxsiyyətin təşəkkülü, formalaşması və inkişafı, uşaqların tərbiyəsi və təhsillənməsi məsələlərinə münasibət bildirir, ailə həyatının bütün cəhətlərini diqqət mərkəzində saxlayır. Ona görə də haqqında danışılan elmlər ailə pedaqogikası ilə bilavasitə və sıx surətdə bağlıdır.

Ailə pedaqogikası insan, şəxsiyyət haqqında elmlərdən təcrid olunmuş şəkildə uğurla inkişaf edə bilməz. Ailə pedaqogikası bir çox elmlərlə bağlıdır. Onlardan qidalanır, həmin elmlər də pedaqogika elmindən, o cümlədən ailə pedaqogikasından zəruri material götürürlər.

Məlum olduğu kimi, fəlsəfə idrakın ümumi prinsiplərini və üsullarını işləyib hazırlayır. Fəlsəfə ümumi prinsiplər və elmi idra kın üsullarının sistemini işləyib hazırlayır. O, pedaqoji təcrübənin təsəvvürə gətirilməsinin (təşkilinin) və pedaqoji konsepsiyaların ya radılmasının nəzəri əsasıdır.

Ailə pedaqogikası fəlsəfədəki mühakimənin quruluşu və ağlın nəticəsinin formalaşdırılması məntiqinə əsaslanan fəlsəfi konsepsi yalardan və ümumelmi yanaşmalardan istifadə edir. Fəlsəfə ilə əla qə ailə pedaqogikasında metodoloji funksiyanı yerinə yetirir.

Ailə pedaqogikasının fəlsəfə ilə əlaqəsi təhsilin fəlsəfəsini meydana gətirmişdir. Bu mənada demək olar ki, ailə tərbiyəsinin özünün də fəlsəfəsi vardır.

Pedaqoji fakt və hadisələr fəlsəfi baxımdan əsaslandırılmadan elmi status qazana bilməz. Digər tərəfdən, pedaqogika fəlsəfi ideyaların irəli sürülməsi və tətbiqi üçün "poliqon" rolunu oynayır. Pedaqogika şəxsiyyətin dünyagörüşünün formalaşdırılmasının yollarını və vasitələrini işləyib hazırlayır.

Ailə pedaqogikası psixologiya elmi ilə sıx surətdə əlaqədardır. Psixologiya uşaqların yaş, fərdi və cinsi xüsusiyyətlərini öyrənərək, onlarla aparılan işlərdə tətbiq olunmasına imkan verir.

Psixologiya şəxsiyyətin formalaşması üçün uşaq-valideyn münasibətlərinin xarakterini, ailədə ünsiyyətin xüsusiyyətlərini tədqiq edir. Uşaq haqqında psixoloji biliklər ailədə pedaqoji prosesi səmərəli qurmaqda yardımçı olur. Şəxsiyyətin psixi xassələri, maraqları, tələbatları, temperament tipləri, imkanları və qabiliyyətləri barədə psixologiyadan ətraflı məlumat almaq olur. Psixodiaqnostikanın nəticələri əsasında uşağın tərbiyəlilik səviyyəsinə dair səhih məlumat əldə etmək mümkündür.

Psixologiyanın vəzifələrindən biri ailəni sosial qrup kimi öyrənməkdən, ailəni psixoloji iqlimini nəzərdən keçirməkdən ibarətdir.

Valideynlər pedaqoji fəaliyyətləri zamanı uşağın psixi xassələrini, maraqlarını, tələbatlarını, temperament tiplərini, imkanlarını və qabiliyyətlərini nəzərə almalıdırlar.

Antropologiya insan haqqında kompleks elm sayılır. Bu elm şəxsiyyətin çoxölçülüyü və çoxşaxəliliyi haqqında təsəvvür yaradır. Ailə pedaqogikası ev şəraitində uşaqların tərbiyəsi və təhsilinə kompleks yanaşma üsullarını işləyib hazırlayır və bu sahədə ata- analara öz köməyini göstərir.

Sosiologiya ailəyə sosial təsisat, uşağın sosiallaşması amili kimi yanaşır. Sosiologiyanı ailənin tipləri, formaları və funksiyaları, ailə həyatının təşkili və mərhələləri maraqlandırır.

Demoqrafiya və sosiologiya ailənin inkişafı vəziyyətini və ənənələrini nəzərdən keçirir. Dövlət bu elmlərin təqdim etdiyi materiallardan ailə siyasətinin müəyyənləşdirilməsi məqsədilə faydalanır.

Bildiyimiz kimi, demoqrafiya (yun. demos - xalq, grapho- yazıram) əhali artımının qanunauyğunluqlarını; bunun sosial-iqtisadi şəraitdən və təbii amillərdən asılılığını; miqrasiyanı, əhali sıxlığını və onun paylanmasını öyrənən bir elmdir. Ona görə də ailə pedaqogikası ilə demoqrafiya elmləri arasında sız bağlılıq vardır.

Demoqrafiyanın vəzifələrinə daxildir: ailənin tərkibi (yaş, milli və digər əlamətlər), onun əmək fəaliyyəti ilə məşğulluğu, nəsillərin nisbəti, uşaq doğumu və s.

Biologiya şəxsiyyətin təbiət tərəfindən ona verilmiş xüsusiyyətlərini öyrənir ki, bu təhsil və tərbiyə işində önəmli rola malikdir (təhsil və tərbiyədə təbiətəmüvüfiqlik prinsipi). İnsanın inkişafının təbii və sosial amillərinin nisbəti problemi, təhsil prosesinin, ailədə tərbiyə işinin diferensiasiyası və fərdiləşdirilməsi - pedaqogika, o cümlədən ailə pedaqogikasının başlıca məsələlərindəndir.

İqtisadiyyat ailə iqtisadiyyatını, ailə büdcəsini, ailənin təsərrüfat və məişət tərəflərini, ailə üzlərinin yaşayış sahəsi və işlə təminatı, uşaq yeməyinin, geyiminin, oyuncağının istehsalı və s. bu kimi önəmli məsələlərini öyrənir.

Ailə pedaqogikası hüquq elmi, xüsusən onun mühüm sahəsi olan ailə hüququ ilə bilavasitə və sıx surətdə əlaqədardır.

Ailə hüququnu hüququn digər sahələrindən fərqləndirən bir sıra cəhətlər vardır. Həmin fərqli cəhətlər ailə hüququnun prinsiplərində əksini olunmuşdur. Bu prinsiplərə aiddir: 1) qadınla kişinin şəxsi və əmlak hüquq bərabərliyi; 2) təknikahlıq; 3) boşanma azadlığı; 4) nikahın bağlanmasında azadlıq və könüllülük; 5) ana və uşaq haqqında dövlət qayğısı, onların mənafeyinin mühafizəsi; 6) ailə münasibətlərinin tənzim olunmasında dinin iştirakına yol verilmə məsi; 7) uşaqların ailə tərbiyəsinin təmin edilməsi; 8) milliyyətindən, irqindən, sosial vəziyyətindən, dini və dil mənsubiyyətindən asılı olmayaraq ailə münasibətlərində vətəndaşların hüquq bərabəliyi; 9) valideynlik hüquqlarının müdafiəsi.

**Ailə hüququ -** ailənin, nikahın, ailə tərbiyəsinin hüquqi əsaslarını müəyyən edir. Hüquq normaları valideynlərin, həmçinin ailə həyatı sahəsində və ev tərbiyəsində uşağın statusunu, hüquq və və zifələrini tənzimləyir.

Azərbaycan Respublikası Ailə Məcəlləsində ailə münasibətləri şərti olaraq dörd əsas qrupa bölünür: 1. Nikahın bağlanması və nikaha xitam verilməsi, nikahın etibarsız sayılması. Bu qrup münasibətlər nikah münasibətləri adlanır. 2. Ər-arvadın əmlakının hüquqi rejimi, onların mülkiyyətinin müqavilə rejimi, öhdəlikləri üzrə məsuliyyəti; 3. Valideynlərini və uşaqların hüquq və vəzifələri və ailə üzvlərinin öhdəlikləri; 4. Valideyn himayəsindən məhrum olan uşaqları övladlığa götürmə, qəyyumluq və himayə, onların digər tərbiyə formaları.

Ailə-hüquq münasibətlərinin subyektləri bunlardır: ailə üzvlri: ər-arvad (nikahda olan kişi və qadın); qohumlar (bir-birlərindən törəyən şəxslər, məsələn, ata və oğul, əmi və qardaşoğlu (qızı) və b.), övladlığa götürülən və övladlığa götürənlər, faktiki tərbiyəçilər və tərbiyə edilənlər, ögey atalar, analar, oğullar, qızlar.

Ailə-hüquq münasibətlərinin obyektləri kimi isə ailə üzvlərinin hərəkətləri (məsələn, atanın alimenti verməsi, uşaqların tərbiyəsi üzrə ata-anaların fəaliyyəti və s.), həmçinin əşyalar (məsələn, ər-arvadın birgə mülkiyyətin olan əşyası və s.) nəzərdə tutulur.

**Etika** (qədim yunan dilində əxlaq, ənənə mənalarında) fəlsəfənin ən mühüm hissələrindən olub insan mənəviyyatını özündə birləşdirir. Etika bir elm kimi ailənin mənəvi və əxlaqi məsələlərini araşdırır. Buraya daxildir: ailənin mənəvi mühiti hansı səviyyədədir, ailənin mənəvi yönəlmələri və ənənələri necədir və s.

Tarix ailənin, ailə tərbiyəsinin təşəkkülünü; tarixi inkişafın müxtəlif mərhələlərində onun təkamülünü; valideyn hisslərinin xarakterini, rollarını və münasibətlərini öyrənir. Tarixçilər ailə tərbiyəsinin təkamülündə bir sıra qlobal ənənələri öyrənir, lakin bu sahədə bu və ya digər xalqın mentalitetinin, kökləri uzaq keçmişə gedən ən- ənələrinin özünəməxsusluğu xüsusən böyükdür.

İrsiyyətlə bağlı bir çox problemləri genetika nəzərdən keçirir.

Ailə pedaqogikası etnoqrafiya elmi ilə də möhkəm tellərlə bağlıdır.

Etnoqrafların milli mədəniyyəti saxlamaq, ailə tərbiyəsinin milli-etnik dəyərli ideyaları, adət və ənənələrinin saxlanmasına kömək göstərən tədqiqatları mühüm əhəmiyyət kəsb edir.

Etnoqrafiya yunan sözü olub, "etnos" - xalq, "qrafis" isə təsvir etmək mənasını verir. Etnoqrafiya xalqı öyrənən və ona daha yaxın olan, onu təsvir edən, xalqa, onun adət-ənənələrinə, arzu və istəklərinə daha çox bələd olan bir elmdir. Bu elmin əsas vəzifələri bunlardır: xalqı öyrənmək, xalqın tarixini araşdırmaq və zənginləşdirmək.

Ailə və ailə münasibətlərini tibb və fiziologiya elmlərindən kənarda qala bilməz. Bu elmlər ailə üzvlərinin sağlam həyat tərzi, xəstəliklərin profilaktikası problemlərinin tədqiqi ilə məşğul olur.

Ailədə müxtəlif yaşlı uşaqların fizioloji xüsusiyyətlərinin nəzərə ala bilmək imkanları valideyndən insanın fiziologiya və gigiyenasına bələd olmağı (əlverişli gigiyenik şərtlərini və tədris yükünün müəyyənləşdirilməsi və s.) tələb edir. Sağlamlığında və fiziki inkişafında problemlər olan uşaqlar üçün xüsusi şəraitin yaradılması pedaqogikanın tibb ilə əlaqəsi şəraitində mümkündür.

Uşaq ölümünün, anadangəlmə qüsurların səbəbləri, cinslərin qarşılıqlı münasibətlərinin problemlərinin və s. öyrənilməsi bilavasitə müasir ailə ilə, və xeyli dərəcədə onun rifahının səviyyəsi ilə bağlıdır. Bu mənada irsiyyət, onun mühitlə əlaqəsi, uşağın tərbiyəsi və inkişafı haqqında məlumatların əldə olunması vacibdir.

Valideynlərin əxlaqa zidd həyat tərzi keçirilməsi, spirtli içkiyə və narkotikə bağlılıq kimi irsi mexanizmlərin pozulması ilə şərtlə nən uşaqların inkişafında fiziki və psixi kənaraçıxmalar artıq beynəlxalq problemə çevrilmişdir.

Biologiya insanın təbii xüsusiyyətlərini öyrənir ki, bu, təhsildə mühüm əhəmiyyətə malikdir (təlimdə və tərbiyədə təbiətəmüvafiq lik). İnsanın inkişafında təbii və sosial amillərin nisbəti problemi təhsil prosesinin diferensiasiyası və fərdiləşdirilməsi pedaqogika üçün başlıca məsələdir.

Pedaqogika ailəni uşağın ilk və əsaslı tərbiyə aldığı təsisa kimi öyrənir. Valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsi yollarını; ailənin digər sosial təsisatlarla qarşılıqlı əlaqələrinin for malarını nəzərdən keçirir.

Beləliklə, bir çox elmlər öz hüdudları çərçivəsində ailənin ailə pedaqogikası üçün son dərəcə mühüm olan bu və ya digər xarakte ristikalarını öyrənir.

**Ailə pedaqogikasının qaynaqları**

Ailə pedaqogikası pedaqoji elmlər sistemində özünəməxsus yer tutur. Pedaqogikanın bu sahəsi öz-özlüyündə inkişaf edib təkmilləşmir, bir elm olmaq etibarilə qarşısında duran məqsədi, məq səddən irəli gələn vəzifələri konkretləşdirmək, özünün fəaliyyət istiqamətlərini müəyyənləşdirmək üçün bir çox mənbələrdən qidalanır, onların materiallarından bəhrələnir.

Ailə pedaqogikası keçmiş və indiki zamanların pedaqoji ideyalarının köməyilə diqqət mərkəzinə gətirilən önəmli məsələləri təhlil edərək, ümumiləşdirərək və əhəmiyyətlilərini seçərək inkişaf edir.

Ailə tərbiyəsinin ilk ideyaları, məhəbbət, ata-ana, baba, nənə, uşaqlar, yaxın qohumlar barədə təsəvvürlər çoxəsrlik yaşayış təcrübəsi əsasında, başqa sözlə, empirik yolla xalq pedaqogikasında öz əksini tapmışdır.

Həmin fikirlər əsrlərdən əsrlərə, ailələrdən ailələrə xalq ənənələri, milli-etnik adətləri, şifahi xalq yaradıcılığı nümunələri, dekorativ-tətbiqi vasitəsilə ötürülüb ki, bütün bunlar da insanlara imkan verib özünün təhsili və tərbiyəsi ilə məşğul olsun, özünü biliklər və məlumatlarla əhatə etsin, dünyagörüşünü genişləndirsin, özünün mənəvi mədəniyyəti qayğısına qalsın, milli xarakterə və

milli psixologiyaya yiyələnsin, başqalarını, xüsusən övladlarını da tərbiyələndirsin, Vətən üçün ləyaqətli nəsil yetişdirsin.

Ona görə də Azərbaycan şifahi xalq yaradıcılıq nümunələri (xalq pedaqogikası materialları) ailə pedaqogikasının mühüm qaynaqlarından hesab olunur.

Bu, bir həqiqətdir ki, xalq pedaqogikasında tərbiyənin özünəməxsus obrazı, biliklərə, dünya, yaşayış tərzi, insanlar, şəxsiyyətlərarası münasibətlər, ünsiyyət haqqında təsəvvürlərə yiyələnmənin, davranışın qayda və normalarının səciyyəvi sistemi təşəkkül tapıb. Bütün bunlar milli əxlaq kodeksində, milli adət və ənənələrdə, mərasimlərdə əks olunub.

Xalq pedaqogikasında ailə problemləri, ər-arvad, ata-ana, valideyin-övlad münasibətləri, tərbiyə məsələləri xüsusi yer tutur. Ailə pedaqogikası ailə mədəniyyətinə istinad edərək, ailə tərbiyəsinin nəzəri əsaslarını işləyib hazırlayır.

Xalqımızın müdrikliyi etnopedaqogikada atalar sözləri və məsəllərində, bayatılarda, laylalarda, nağıl və dastanlarda, mif, əfsanə, rəvayət və əsatirlərdə, oxşama, əzizləmə və tapmacalarda, xalq oyunlarında, adət və ənənələrdə öz ifadəsini tapır. Həmin nümunələrdə tərbiyə və eyni zamanda insanlar arasındakı qarşılıqlı münasibətlərlə bağlı dəyərli və ibrətamiz məsləhətlər, öyüd-nəsihətlər, tövsiyələr, mülahizə və fikirlər əks etdirilir. Fikir verək: "Qarğaya dedilər: "Ən gözəl səs hansı quşdadı?" O dilləndi ki: "Mənim balamdı", "Övladım əziz, tərbiyəsi ondan əziz", "Oğul baş ucalığı, qız üz ağlığıdır", "Oğul ürəkdir, qız kürəkdir", "Hər kəsə öz balası əzizdir Qızı otaqlıya yox, papaqlıya ver" (Azərbaycan atalar sözlərindən)

Bala demə, qan olar,

Yel əsər, tufan olar.

Bala gəzən yerlərə,

Analar qurban olar (Azərbaycan bayatılarından),

Balam gəlir yatmağa,

Böyüyüb boy atmağa.

Sabah yuxusu şirin,

Qıymıram oyatmağa.

***

Laylası dərin bala,

Yuxusu sərin bala,

Tanrıdan əhdim budur

Toyunu görüm, bala.

***

Lay-lay dedim, yat dedim,

Yastığa baş at, dedim.

Bala, çəkim nazını,

Boya-başa çat dedim.

***

Balama qurban inəklər,

Bu balam haçan iməklər?

Balama qurban ilanlar

Bu balam haçan dil anlar? (Əzizləmələrdən).

"Qurani-Kərim", Məhəmməd peyğəmbərin (s.ə.s.) hədisləri, həzrəti Əlinin kəlamları ailə pedaqogikasının mühüm mənbələri hesab olunur.

"Qurani-Kərim"də öz ifadəsini tapmış ideyaların, eləcə də müqəddəs şəxslərin fikirlərinin müstəsna dərəcədə böyük təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanları vardır. Ailədə tərbiyə işləri aparılarkən onlardan genəbol faydalanmaq mümkündür.

İslam dininin yaradıcısı Məhəmməd peyğəmbər (s.ə.s.) Vətən və xalq, nəcib keyfiyyətlər, o cümlədən xeyirxahlıq və yaxşılıq, valideynə hörmət, mərhəmət, əxlaq və ədəb-ərkan, mülayimlik, məhəbbət, vicdan, nəfsi cilovlamaq, təmkinli olmaq, xoşəxlaqlılıq, gözəl danışıq qabiliyyəti, təvazökarlıq, qonaqpərvərlik, ismət və iffət, şərəf və ləyaqət, həya, evlənmək, ailəyə ciddi münasibət, elm öyrənmək və s. aid dəyərli fikirlər irəli söyləmişdir. Hədislərində ailə, ailə münasibətləri, oğlan və qız tərbiyəsi, valideyn-uşaq münasibətləri ilə bağlı dedikləri də diqqəti cəlb edir.

Fikir verək: "Qüvvətli adam güləşəndə qalib gələn deyil, qəzəblənən vaxtı qəzəbini boğa biləndir", "Ömrünün uzanmasını və ruzisinin artmasını istəyən kəs valideyninə ehtiram etsin", "Övladlarınız arasında oğlanla qıza fərq qoymayın, fərq qoymaq lazım gəl- səydi, mən qızları üstün tutardım", "Ata-ananıza ehtiram edin ki, övladlarınız da sizə hörmət qoysunlar", "Qadınların ən yaxşısı: nəcib, mömin, uşaqlarına mehriban, ərinin malına və sərvətinə ürək yandırandır", "Övladlarınızla xoş rəftar edin, onlara qarşı ədalətli olun, birini o birindən üstün tutmayın", "Ataya itaət - Allaha itaətdir. Atanın üzünə ağ olmaq - Allahın üzünə ağ olmaqdır", "Kiçik qardaşın böyük qardaş qarşısında vəzifəsi, övladın ata qarşısındakı vəzifəsi kimidir", "Hər bir şəxs öz yaxşılığı ilə valideyninin razılığını qazanmalıdır" və s.

Həzrəti Əlinin kəlamları da ailə pedaqogikasının mühüm mənbələrindəndir. İmam Əli deyirdi: "Hər bir insanın qiyməti onun yaxşılıqları ilə ölçülür", "Yaxşılıqla azad adamları qul etmək olar", "Hər bir insan öz dilinin arxasında gizlənmişdir", "Dili şirin olan kimsənin qardaşları çox olar",

"Baxın övladlarınıza kim süd verir. Çünki uşaq onun südü ilə inkişaf edəcək. Axmaq qadını dayə tutmayın, çünki süd təbiətə, xasiyyətə üstün gəlir", "Məsləhət etməyən kimsə mətləbinə nail olmaz", "Salamatlıq ən gözəl geyimdir", "İnsanlar arasında bir kəsə nəsihət etmək, onun üçün danlaqdır", "Çox zarafat edən şəxs nifrət qazanar və hörmətsiz olar" və s.

Azərbaycan Respublikasının Konstitusiyası ailə pedaqogikasının dəyərli mənbələrindəndir. Ölkəmizin Əsas Qanununun "Dövlətin ali məqsədi" adlanan on ikinci maddəsində deyilir: "Insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin al məqsədidir". Bu maddə eyni zamanda ailəyə, ailə üzvlərinə də aiddir.

Konstitusiyanın on yeddinci maddəsi "Ailə, uşaqlar və dövlət" adlanır. Bu maddə də ailə pedaqogikası üçün faydalı material verir. Həmin maddədə oxuyuruq: "1. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. 2. Uşaqların qayğısına qalma ailə onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerin yetirilməsinə dövlət nəzarət edir. 3. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər. 4. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır 5. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. 6. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir".

Konstitusiyanın otuz dördüncü maddəsi nikah hüququna hası edilmişdir. Haqqında söz açılan maddədə deyilir: "1. Hər kəsin qa nunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. 2 Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndiril (ərə verilə) bilməz. 3. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir. 4. Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur. 5. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur".

Eyni zamanda maddədə 18 yaşına çatmış əmək qabiliyyətli uşaqların əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borclu olduqları diqqətə çatdırılır.

Azərbaycan dövlətinin və hökumətinin ailəyə, təhsil və tərbiyəyə dair qərarları, fərmanları və sərəncamları ailə pedaqogikasının əsas mənbələrindən biridir.

Ölkəmizdə milli ailə dəyərlərinin qorunması, təbliğ edilməsi və möhkəmləndirilməsi, ailə ixtilaflarının qarşısının alınması istiqamətində sistemli, məqsədyönlü və planauyğun tədbirlər həyata keçirilir.

Bəşəriyyətin diqqətini ailə problemlərinin həllinə cəlb etmək məqsədilə dünyada, o cümlədən respublikamızda hər il may ayının 15-ində Beynəlxalq Ailə Günü qeyd olunur.

Dövlət tərəfindən ailələrə uşağın anadan olmasına görə müavinət verilir. Uşağın anadan olması sosial sığorta hadisəsi hesab edilir. Haqqında danışılan məsələ respublika Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli qərarı ilə təsdiq olunmuş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə işəgötürənin vəsaiti

hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"yə əsasən tənzimlənir. Məcburi dövlət sosial sığortasına cəlb edilən şəxslər uşağın doğulmasına görə müavinət almaq hüququna malikdir. Uşaq anadan olarkən ailəyə qanunvericilikdə müəyyən edilmiş məbləğdə birdəfəlik müavinət verilir. Ana işləmədiyi hallarda, eləcə də bu və ya başqa səbəbdən uşağın anası yoxdursa müavinəti işləyən ata alır.

Ünvanlı dövlət sosial yardımına ehtiyacı olan aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi dövlətin ailəyə qayğısının bariz nümunəsidir. Ünvanlı dövlət sosial yardımına ehtiyacı olan aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 2016-cı il yanvarın 25-də Sərəncam imzalamışdır.

Hazırda respublikamızda ailələrin sayı iki milyondan artıqdır. Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən biri sayılır. Ailələrin xoşbəxtliyi, firavanlığı, sağlam həyat sürməsi, möhkəm olması üçün dövlət də, cəmiyyət də cavabdehlik daşıyır.

Xalqımız ailə dəyərlərini, ailə ləyaqətini həmişə yüksək qiymətləndirmiş, qorumuş, milli adət-ənənələrimizə çevirmişdir. Ona görə də bizim hər birimiz həmin dəyərləri dünyanın mütərəqqi mənəvi sərvətlərindən bəhrələnərək daha da zənginləşdirməliyik.

Millətin sağlam olması üçün ailə də, gənc nəsil də mənəviyyatca sağlam olmalıdır. Heç də təsadüfi deyildir ki, ölkə Prezidenti cənab İlham Əliyev 2014-cü ildə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014-2020-ci illər üçün) Dövlət Proqramı nı təsdiq etmişdir.

Ailə Məcəlləsində dəyişiklik aparılaraq, ailə quranların nikahdan əvvəl tibbi müayinədən keçməsinin zəruriliyi əsaslandırılmıdır. Bundan başqa, "Çoxuşaqlı ailələrə dövlət yardımı haqqında qanun qüvvəyə minmişdir.

Ölkəmizdə ailə siyasətinin həyata keçirilməsi sahəsində görülən tədbirlər sırasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması son dərəcə əhəmiyyətli yer tutur.

Azərbaycan xalqının böyük oğlu, tarixi şəxsiyyət, Ümummill liderimiz Heydər Əliyevin irsi, məruzə və nitqlərində irəli sürdüy fikirlər ailə pedaqogikasının dəyərli mənbələrindəndir. Ulu öndər ailənin cəmiyyətdəki roluna yüksək qiymət verərək deyirdi: "Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaq. ların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir".

Ümummilli liderimizə görə, ailənin hər bir üzvü üzərinə düşən vəzifələri yerinə yetirməli, ailənin rifahı üçün bütün bacardığını etməli, hamıya hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara riayət etməlidir. Çünki ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz. Cəmiyyətin inkişafı ailələrin inkişafından asılıdır. Ailə ins titutunun möhkəmliyi cəmiyyətin və dövlətin güclənməsinə və inkişafına gətirib çıxarır.

Ulu öndər Heydər Əliyevin sözləridir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnmə lidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məf humdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Təbii ki, həmin vəzifələrin yerinə yetirilməsində məktəblə yanaşı ailələr də mühüm rol oynayırlar.

Ulu öndər Heydər Əliyevin qiymətli fikirləri “Ailə pedaqogikası" üçün dəyərli mənbə, ailədə tərbiyə işlərinin təşkili üçün təməldir.

Valideynlər Ümummilli lider Heydər Əliyevin aşağıdakı sözlərini unutmamalı, öz fəaliyyətlərində əsas götürməlidirlər: "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır".

Ailə pedaqogikanın mənbələrindən biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ailəyə, uşaqların təhsilinə, tərbiyəsinə və təliminə, ailənin inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə, gənc nəslin formalaşdırılmasında, müsbət mənəvi keyfiyyətlərə, geniş dünyagörüşünə yiyələnmələri sahəsində valideynlərin məsuliyyətinin artırılmasına dair dəyərli fikirləridir.

Cənab İlham Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən haqqında danışılan məsələlərə diqqət yetirir. Ölkə Prezidentinin rəhbərliyi ilə respublikamızda müvəffəqiyyətlə həyata keçirilən sosial-iqtisadi siyasət ailələrin maddi-rifah halının yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə, uşaqların fiziki və mənəvi sağlamlıqlarının artırılmasını, milli genofondumuzun möhkəmlənməsini təmin edir.

Dövlət başçısı deyir: "Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Bu baxımdan, əgər tarixə də nəzər salsaq görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır".

Cənab İlham Əliyevin düzgün qənaətinə görə, uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir. Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir.

Ölkə Prezidenti böyüyən nəslin təlim və tərbiyəsində mill mənəvi dəyərlərimizin təbliğinə geniş yer verilməsini məsləhət bilir Bu xüsusda oxuyuruq: "Milli dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Məhz milli dəyərlərimiz, ənənələrimiz bizi əsrlər boyu assimilyasiyadan qoruyub. Biz

müxtəlif imperiyaların , ölkələrin tərkibində yaşamışdıq, müstəqillikdən məhrum idik. Ancaq buna baxmayaraq milli  identikliyimizi saxlaya, qoruya bilmişik. Ona görə ki milli dəyərlərimizə münasibətimiz həmişə çox yüksək səviyyədə olmuşdur. Bu gündə gənc nəslin tərbiyə olunmasında, formalaşmasında və Azərbaycanın uzunmüddətli, dayanıqlı, müstəqil ölkə kim yaşamasında milli dəyərlərə bağlılığımız müstəsna rol oynayır. Mən çox istəyirəm ki, gənclərimiz yüksək peşəkarlıqla yanaşı, məhz milli dəyərlərimizi unutmasınlar".

Ailə pedaqogikanın mühüm mənbələrindən biri “Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunudur. Haqqında danışlan qanun təhsilə aid əsas sənəd olmaqla yanaşı, ailə pedaqogikas üçün də zəngin material verir, böyüyən nəslin təhsilinin, təlim və tərbiyəsinin səmərəli təşkili sahəsində valideynlərin üzərinə mühün vəzifələr qoyur.

Qanunun 3-cü ("Təhsil sahəsində dövlət siyasətinin əsas prin sipləri"), 4-cü ("Təhsilin əsas məqsədi") və 34-cü ("Valideynləri və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri") maddələri təhsil müəssisələri ilə yanaşı həm də ailələrə ünvanlanmışdır.

Qanunun dördüncü maddəsində təhsilin əsas məqsədi diqqə mərkəzinə gətirilir. Təhsilin başlıca məqsədinin aşağıdakılardan ibarət olması qeyd edilir: " 1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpər vərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

2. milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müa sir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq

3. sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənil- məsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ic- timai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq".

Qanunun 34-cü maddəsi bilavasitə ailə ilə bağlıdır. Həmin maddədə valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri üzərində dayanılır. Valideynlərin və ya digər qanuni nümayəndələrin hüquqlarına daxil edilir:

1. "yetkinlik yaşına çatmayan övladları müəssisəsini seçmək; üçün təlim-tərbiyə

2. təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;

3. təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;

4. təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək;

5. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək".

Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində vəzifələri isə, aşağıdakıları nəzərdə tutur:

1. övladlarının ... erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq;

2. övladlarını humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək;

3. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək".

Ailə pedaqogikasının mənbələrindən biri də "Azərbaycan Respublikasının Ailə Məcəlləsi" hesab oluna bilər. Ailə Məcəlləsində qeyd olunur ki, ölkəmizdə ailə dövlətin himayəsindədir, analıq, atalıq, uşaqlıq qanunla qorunur. "Ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hərkəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqlrın məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir!".

Ailə məcəlləsində respublikamızın Ailə Məcəlləsi ilə tənzimlənən münasibətlərə aydınlıq gətirilmişdir. Məcəllənin ikinci maddəsində deyilir: "1. Ailə münasibətlərinin hüquqi tənzimi qadını kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailə daxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir. 2. Nikah kişi ilə qadının ailə qurma məqsədi ilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır. 3. Nikaha daxil olarkən və ailə münasibətlərində sosial, irqi, milli, dini və dil mənsubiyyətinə görə vətəndaşların hüquqlarının hər hansı formada məhdudlaşdırılması qadağandır".

Sənəddə Ailə Məcəlləsinin vəzifələri də öz ifadəsini tapmışdır. Həmin vəzifələr üçüncü maddədə əks olunmuşdur. Diqqət yetirək: "1. ailənin ümumbəşəri prinsiplər əsasında qurulması; 2. ailə münasibətlərinin qadın və kişinin könüllü nikah ittifaqı, ailə üzvləri nin maddi mülahizələrdən azad olan qarşılıqlı məhəbbəti, dostluğu və hörmət hissləri əsasında qurulması; 3. ailədə uşaqların ictimai tərbiyə ilə üzvi əlaqədar şəkildə Vətənə sədaqət ruhunda tərbiyə edilməsi; 4. ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi və hər bir uşağın xoşbəxt həyatının təmin edilməsi; 5. ailə münasibətlərində zərərli adətlərin aradan qaldırılması; 6. uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin tərbiyə edilməsi".

Klassik və müasir pedaqoqların ailə tərbiyəsinə, ailədə tərbiyə işlərini səmərəli həyata keçirmək sahəsində valideynlərin roluna dair fikirləri də ailə pedaqogikanın əhəmiyyətli mənəbələridir.

Həmin pedaqoqlar və mütəfəkkirlərdən T. Mor, T. Kampanella, A. Sen-Simon, Ş. Furye, R. Ouen və b.-nın adlarını çəkmək mümkündür. Onlar müxtəlif dövrlərdə və müxtəlif ölkələrdə yaşayıb fəaliyyət göstərmişlər, fəqət onları birləşdirən ümumi cəhət ondan ibarətdir ki, onlar insanın inkişafı, ailə tərbiyəsi, təhsil və təlimin həyatda rolu, pedaqoji prosesin təşkili, məktəb, tərbiyəçi nüfuzu, inkişafın qanunauyğunluqları və s. haqqında öz qənaətlərini bildirmiş, ideal şəxsiyyətin formalaşmasının yollarına aydınlıq gətirmişlər.

Elmi pedaqogikanın formalaşmasında Y.A. Komenski, K.D. Uşinski, İ.H. Pestalotsi, A. Disterveq, A.S. Makarenko, V.A. Suxomlinski, Y.K. Babanski, M.M. Mehdizadə və başqalarının müstəsna dərəcədə böyük rolu olmuşdur.

Bəzi fikirlərə müraciət edək: "Valideynin nüfuzu üçün əsas bünövrə yalnız onların həyatı və işi, vətəndaşlıq siması, davranışı ola bilər", "Tərbiyəçinin şəxsiyyətinin cavan ruha olan təsiri elə bir tərbiyə qüvvəsidir ki, onu nə dərs kitabları ilə, nə əxlaqi nəsihətlərlə və nə də cəza və mükafat sistemi ilə əvəz etmək olar" (K.D. Uşinski); "Şəxsiyyətin əmək fəallığı mövqeyi təmin edilmədən onun fəal həyat mövqeyinin formalaşdırılmasına nail olmaq mümkün deyil" (Mehdi Mehdizadə);

Müasir pedaqoqların, o cümlədən Azərbaycan pedaqoqlarının tədqiqat əsərləri, dərslikləri, ailə tərbiyəsinə, uşaqların müstəqil ailə həyatına hazırlanması sahəsində kitabları və monoqrafiyaları, müxtəlif səviyyəli tədbirlərdəki çıxışları da pedaqogikanın dəyəri mənbələri hesab olunur.

Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri", Abbasqulu ağa Bakıxanovun "Nəsihətlər"i, Mir Möhsün Nəvvabın "Nəsihətnamə"si, Məhəmməd Tağı Sidqinin "Pedaqoji əsərlər"i, Əhməd Seyidovun "Pedaqogika tarixi", Mehdi Mehdizadənin "Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları", Mərdan Muradxanovun şagirdlərin əxlaq tərbiyəsi ilə bağlı əsərləri bu baxımdan əhəmiyyətlidir.

Zahid Qaralov üç cilddən ibarət "Tərbiyə" kitabını yazmışdır. Pedaqoqların "Pedaqogika", "Ailə pedaqogikası", "Məktəbəqədər pedaqogika", "Məktəb pedaqogikası", "Ali məktəb pedaqogikası "Xüsusi pedaqogika və s. bu kimi dərslik və dərs vəsaitləri vardırı

Professor Zahid Qaralova müraciət edək: "İnsanın əsl mahiyyəti, əsas vəzifəsi özünə, xalqına, bəşəriyyətə vicdanla, ağıl-kamala Xidmət etmək, yaradılmışlardan ləyaqətlə faydalanmaq, yaratmaq özü ilə birlikdə başqalarını da yaşatmaqdır".

Müəlliflərdən Mərdan Muradxanov, Nurəddin Kazımov, Hü seyn Əhmədov, Yusif Talıbov, Əjdər Ağayev, Əliheydər Həşimoy Bəşir Əhmədov, Akif Abbasov, Fərahim Sadıqov, Fərrux Rüstə mov, Hikmət Əlizadə, Ləzifə Qasımova, Rəhimə Mahmudova Ağahüseyn Həsənov, Hümeyir Əhmədov, İsmayıl Əliyev, Firədun İbrahimov, Rüfət Hüseynzadə, İramin İsayev, Allahverdi Eminoy, Məcid İsmixanov və başqalarının adları qeyd oluna bilər.

Bu sahədə valideynin üzərinə mühüm vəzifələr düşür.

Nümunəvi ailələrin təcrübəsi də ailə pedaqogikasının mənbələrindəndir. Belə ailələrin təcrübəsi öyrənilərək yayılır. Ailə tərbi yəsində uğurlar qazanan, ailədə tərbiyə işlərini düzgün quran ata-analar təqdir olunur, haqlarında yazılır, verilişlər təşkil olunur, müxtəlif tədbirlərdə onların söhbətləri, məsləhətləri dinlənilir.

Ailə pedaqogikası həmin ailələrin təcrübəsindəki müsbət cəhətləri öyrənir, ümumiləşdirir və yayır.

Azərbaycanın klassik (Qətran Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Saib Təbrizi, Abbasqulu ağa Bakıxanov, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov və b.) və müasir şair və yazıçılarının, bəstəkarlarının (Səməd Vurğun, Məhəmmədhüseyn Şəhriyar, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Mirzə İbrahimov, Mehdi Hüseyn, Anar və b.), dramaturqlarının (Mirzə Fətəli Axundzadə, Cəfər Cabbarlı, İlyas Əfəndiyev, Elçin və b.) əsərlərindəki tərbiyəvi fikirlər, Şərq xalqlarının ("Kəlilə və Dimnə", "Qabusnamə", "Kitabi-Dədə Qorqud"), türk dünyasının şifahi və yazılı sənət abidələri (Mahmud Kaşqarlı, Yusif Xas Hacıb, Əhməd Yuqnəki, Əhməd Yasəfi, Əl Fə rabi, Əbu Reyhan, Biruni, ibn Sina, Hacı Bektaş Vəli, Yunis Əmrə), Şərq mütəfəkkirlərinin (Konfutsi, Keykavus, ibn İsgəndər, Sədi şirazi, Əbdürrəhman Cami), tarixi şəxsiyyətlərin (Mustafa Kamal Atatürk) uşaqların tərbiyəsi, tərbiyəçi və valideyn şəxsiyyəti, tərbiyədə ana və ananın rolu haqqında söylədikləri, mütərəqqi pedaqoji fikirləri də ailə pedaqogikasının mühüm mənbələridir.

Diqqət yetirək: "Harada ki, hökmdar - hökmdardır, təbəə - tə- bəədir; harada ki, ata - atadır, oğul - oğuldur, deməli, orada qayda- qanun, əmin-amanlıq var" (Konfutsi); "Valideynlərin vəzifəsi təkcə öz övladını tərbiyə etmək deyil, həm də onun qayğısına qalmaqdır" (Əbu Reyhan Biruni); "Ata uşağını kiçiklikdən tərbiyə etməsə, günah uşağın deyil atanındır. Oğul-qızın xasiyyəti, əməli pis olsa, bu, atanın pisliyidir, uşağın yox" (Yusif Xas Hacib); "Oğul, sözlərimə yaxşı qulaq as, Ata nəsihəti faydasız olmaz" (Nizami Gəncəvi); "Uşaq süddən ayrıldıqdan sonra hələ əxlaq korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır" (Nəsirəddin Tusi); "Qadının ən böyük vəzifəsi analıqdır. İlk təhsil verilən yerin ana qucağı olduğu düşünülərsə, bu vəzifənin əhəmiyyəti layiqincə başa düşülər" (Mustafa Kamal Atatürk)

Haqqında danışılan mənbələrdən faydalanmaq ailə pedaqogikasını yeni ideyalarla zənginləşdirərdi.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun "Xəbərlər" jurnalı, №4, 2008, s.41-44.

Mühazirə 2: Ailə pedaqogikasının inkişaf tarixi

PLAN:

1. Ailə pedaqogikasının inkişaf dövrləri

2. Ailə pedaqogikasının müstəqil elm kimi

**Ailə sosiologiya baxımından evlənmək ya da qohumluq xətti ilə gələn bir həyat birliyidir. Ailə sözü Qərbdə əsasən ana-ata və uşaqlar anlayışını verir.**

Şərq xalqlarında ailə daha çox eyni evdə yaşayan, ya da eyni nəsildən gələn insanların cəminə deyilir. Ailə sözünün əsli ərəbcədən gələn عائلة (ailə) sözündəndir. Bu söz ərəbcədə "dayanmaq", "söykənmək" mənasında olan عول (avl) kökündəndir. Yəni bir-birlərinə dayanan, etimad edən insanlar  deməkdir.

24 il öncə BMT-nin qərarı ilə Beynəlxalq Ailə Günü təsis edilib. 1992-ci ilin 15 may tarixindən etibarən qeyd edilən bu gün dünyada ailə institutuna olan diqqətin artmasını, ailə problemlərinin həllinə yardımı hədəfləyir. Ailə insanların bir – biri ilə qurduğu münasibətlərin ən qədim və unikal formalarından biridir. Ailənin unikallığı və özəlliyi ondan ibarətdir ki, bir neçə insan onillərlə ölçülən uzun zaman kəsiyində, öz ömürlərinin böyük əksəriyyətini, təxminən 30 – 40 ilini bir-birləri ilə sıx qarşılıqlı münasibətdə keçirirlər. Psixoloqların məlumatlarına görə ölkəmizdə 100 ildən çox birgə xoşbəxt ömür-gün sürmüş insanlar olmuşdur. İndiyədək məhəbbət qədər çox əsər yazılan ikinci mövzu yoxdur. Məhəbbət Fərhadı dağı yarmağa sövq etmiş, insanlar onun yolunda dini – etiqadını dəyişmiş, Leyli, Məcnun, Əsli, Kərəm və onların müasir təcəssümü olan Fərizə məhəbbəti ən şirin nemət olan həyatdan yüksək qiymətləndirərək ondan imtina etmişlər. Hətta Adəm peyğəmbər məhəbbəti cənnətdən üstün tutmuş, Allahın iradəsinə asi olmuşdur.

İbtidai icma quruluşu dağıldıqdan, xüsusi mülkiyyət forması yarandıqdan sonra ekzoqamiya da sıradan çıxdı. O, öz yerini yaxın qohumları ilə nikah ittifaqına qadağan qoyan adətə verdi.

Kapitalizm quruluşu ailə-nikah münasibətlərinə yeni xarakter verdi. Klassik nikahın böhranı üçün zəmin yaratdı. Bütün bunlar qadınların istehsalatda, məhsuldar qüvvələrin inkişaf etdirilməsində daha yaxından iştirak etmələri, dinin təsirinin aşağı düşməsi, ailə və nikah qanunvericiliyində  demokratik istiqamətin güclənməsi nəticəsində mümkün oldu.

Sosializm quruluşunda bu istiqamətdə görülən tədbirlər genişləndirildi, dövlət dini nikahın hüquqi əsasa malik olmadığını bəyan etdi və nikah yalnız dövlət orqanlarında rəsmiləşdirildi. Nikahın hüquqi tənzim mexanizmi yaradıldı. Ailə məcəlləsinə əsasən, nikah  ər və arvad, daha sonra isə ər, arvad və uşaqlar,  eləcə də ailənin başqa üzvləri arasında   hüquqi münasibətləri tənzimləyir.

Hazırda Azərbaycan Respublikasının Konstitusiyasının, ailə və cinayət məcəllələrinin tələbləri elədir ki,  məhəbbət və nikahın bağlanması məsələlərində zorakılığa yol verilmir, iki gənc oğlan və qızın, qadın və kişinin qarşılıqlı razılığı əsas götürülür, kənar mülahizələr  nəzərə alınmır.

Ölkəmizdə yalnız təknikahlılığa icazə verilir, yəni kişi yalnız bir qadınla, eləcə də qadın yalnız bir kişi ilə nikah münasibətinə girə bilər.

“Ailə tərbiyəsi” adlı lüğətdə göstərilir: “Nikah kişi və qadının ailə yaratmaq, uşaqların doğulması və tərbiyə edilməsi məqsədi ilə bağlanan, qarşılıqlı məhəbbətə əsaslanan, hüquqi cəhətdən rəsmiləşdirilən könüllü ittifaqıdır”. Azərbaycan alimləri də nikahın mahiyyəti ilə bağlı öz fikirlərini bildirmişlər.

Professorlar Ə.Ə.Əlizadə və A.N.Abba-sov “Ailə” kitabında yazırlar: “Nikah iqtisadi mülahi¬¬zələrdən azad olub, kişilərin və qadınların məhəbbətə, sədaqətə, uşaqla-rın olması arzusuna əsaslanan könüllü, bərabərhüquqlu ittifa-qıdır” .

Bu təriflərdən göründüyü kimi, nikahın bağlanması üçün bir sıra şərtlər tələb olunur ki, onlardan biri də məhəb¬bət¬dir. “Azərbaycan dilinin izahlı lüğəti”ndə bu sözün mənası belə açı-lır: “Məhəbbət – 1) eşq, sevgi, sevmə, sevişmə; 2) ürəkdən fə¬-da¬¬karcasına bağlılıq, sevgi, dostluq, sədaqət, mehribanlıq; 3) bir şeyə sonsuz maraq, meyl, həvəs, istək”.

Ayrı-ayrı elm sahələri üzrə lüğətlərdə, ensiklopedik nəşrlərdə, eləcə də ədəbiyyatda məhəbbət anlayışının mahiy¬yə-ti aydınlaşdırılır, yazıçı və şairlər məhəbbəti dəyərləndirir, onun nə demək olduğunu açıqlayırlar.

“Etika üzrə lüğət”də bu xüsusda deyilir: “İnsanlar ara-sın¬dakı münasibət kimi məhəbbət yüksək emosional-əxlaqi gərginliklə səciyyələnir və konkret insanın maksimal sərvət¬lə¬ri-nin üzə çıxarılmasına əsaslanır”. Uşağın doğulması ilə hələ şəxsiyyət doğulmur. Şəxsiyyət yalnız insan mühitində formalaşır. Təzə doğulmuş uşağın ən yaxın mühiti ailədir, ana, ata, nənə, baba, qardaş və bacı. Təzə doğulmuş uşağın bir insan kimi, bir şəxsiyyət kimi inkişaf etməsində valideynlərin və ailə üzvlərinin üzərinə çox mühüm vəzifələr düşür.

Ailənin taleyi bu həyatın fərəhli, uğurlu olub-olmaması ərin və arvadın şəxsiyyətindən asılıdır. Onların bir-biri ilə rəftarı, uşaqlarına münasibəti, bu bəşəri hisslərin özü məhəbbətin taleyini həll etmiş olur. Hörmət hissindən məhrum olan məhəbbət çox davam etməz və yüksəlməz. Belə məhəbbət tək qanadlı pəriyə oxşayır.

Ailə ixtilafları ilə tanış olarkən bir cəhət diqqəti cəlb edir: ər və ya arvadın şəxsiyyəti evdə söz-söhbət əmələ gələndə özünü daha aydın şəkildə göstərir.

Kobud, deyingən, ətiacı, astagəl, qorxaq kişiləri və qadınları xatırlayaq. Tutaq ki, evdə təsadüfən uşaq dəm çaynikini əlindən salıb sındırır. Onlardan hər biri bu şəraitdə öz hisslərini dərhal göstərir. Biri qeyzlə uşağın qolundan tutub ananın üstünə tolazlayır. Hələ bir acı söz də deyir: ikincisi özündən çıxır, günahı atanın üstünə yıxır.Üçüncüsü bütün gün deyinir, dördüncüsü...

Əgər bu kişilər və qadınlar bütün ömrü boyu belə qalsalar, onların günürüzgarı necə olar? Görəsən onlar bir-biri ilə yola gedə bilərlərmi? Yola getməzlər. Yerli-yersiz evə

dava salarlar, ailənin psixoloji iqlimini, necə deyərlər həmişə çiskinli, buludlu edərlər. Usaqları gün işığına, xoş rəftara həsrət qoyarlar.

Bəzi valideynlər  elə başa düşürlər ki, tərbiyə prosesi yalnız onlar uşağa öyüd-nəsihət və göstərişlər verərkən müəy-yən məsələni öyrədərkən baş verir. Belə düşünmək səhvdir. Ata-anaların hər bir hərəkəti uşağa təsir göstərir. Valideynləri süfrə arxasında necə əyləşirlər, çəngəli necə tuturlar, qəzeti necə oxuyurlar, bütün bunlar hamısı uşağı tərbiyə edir. Valideynlər övladlarında görmək istəmədikləri hərəkətlərə öz davranışlarında və ailə ənənələrində yol verməməlidirlər. Çünki "Uşaq gördüyünü götürür", "Böyük tökəni kiçik yığır".

Aristotel müşahidə etmişdir ki, valideynlər öz uşaqla¬rı¬nı övladların onları sevməsindən qat-qat artıq sevirlər. M.Monten bunu təbiətin zəruri bir qanunu səviyyəsinə qaldırır. Onun nəzərincə əgər valideynlər öz  övladlarını özlərindən çox istəməsəydi onda yer üzündə insan nəsli kəsilərdi.

Ailə tərbiyəsi ailənin böyük  üzvlərinin və ailə həyat tərzinin uşağa müntəzəm, məqsədəuyğun təsiridir. Ailə tərbiyə-sinin əsas və ümumi vəzifəsi uşaqları mövcud ictimai şəraitdə həyata hazırlamaq, daha məhdud və konkret vəzifəsi isə onlara ailə şəraitində şəxsiyyətin normal şəkildə formalaşması üçün zəruri olan bilik, bacarıq və vərdişlər aşılamaqdır. Ailə tərbiyə-sinin məqsəd və vasitələri ictimai-iqtisadi quruluşdan, mədə¬niyyətin inkişaf səviyyəsindən asılıdır. Ailə tərbiyəsi ailənin mənsub olduğu ictimai təbəqənin ideologiyası, əxlaqı və qarşılıqlı münasibətlər sistemi üzərində qurulur. O, böyüklərin özünütərbiyəsi, onların xarakterində uşaqlara səmərəli pedaqoji təsir göstərə bilən keyfiyyətlərin formalaşması ilə sıx bağlıdır.

Valideynlər arasındakı emosional münasibət nə qədər güclü olarsa və birbirlərinin ehtiyaclarına nə qədər həssasiyyətlə yanaşarlarsa, bu artıq onlardan asılı olmadan uşaqların hər ehtiyacını birlikdə ödəmə, hər məsuliyyəti birgə daşıma, övladlarının yaxşısını və pisini birlikdə dərk edib, paylaşmaqda onlara kömək edəcək. "Sənin verdiyin tərbiyədir! Sənin öyrətdiklərindir! " və  s. kimi daha çox qadınların kişilər tərəfindən məruz qaldığı bu ittihamlar da ortadan qalxacaq! Çünki ata da uşağın tərbiyəsində ana qədər yaxından iştirak etməlidir. Doğrudur, uşaq ən çox ana ilə təmasda və ünsiyyətdə olur, amma ata da evdə olduğu zamanlarda yaxasını bu işdən kənara çəkməməli, övladının düzgün yetişməsində anaya dəstək olmalıdır. O zaman təktərəfli ittihamlara da yer qalmaz həyatınızda.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3. Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4. Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5. Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6. Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun "Xəbərlər" jurnalı, №4, 2008, s.41-44.

**Mühazirə 3: Ailə münasibətləri və ailə tərbiyəsi**

**PLAN:**

**1.Ailədə uşaqların bir şəxsiyyət kimi formalaşmasında valideynlərin rolu**

**2.Uşaq şəxsiyyətinin formalaşmasında ailə daxili ünsiyyət və münasibətlər**

**3.Uşaq şəxsiyyətinə hörmət və tələbkarlıq**

Tanınmış sosioloq Parsonzun nəzərincə ictimai olmaq yaşadığı mühitə hakim olan mədəniyyətə yiyələnməkdir. Başqa bir tərifə əsasən isə, ictimai olmaq, ictimaiyyətdə mövqe tutmaq üçün bir sıra mədəni vərdişlərə yiyələnmək gərəkdir.

"Əsl mədəni vərdişlər tərbiyəsini məktəbin və cəmiyyətin vəzifəsi sayan, ailənin isə bu sahədə heç bir iş görə bilmədiyini iddia edən valideynlər böyük səhv edirlər". Görkəmli rus pedaqoqu A.S.Makarenko bu fikirləri ilə yanaşı onu da qeyd edirdi ki, ailə mədəni vərdişlər tərbiyəsini mümkün qədər tez başlamalıdır, bunun üçün ailənin sərəncamında böyük imkanlar vardır, ailə bu imkanlardan mümkün qədər yaxşı istifadə etməyə borcludur.

Ailədə mədəni vərdişlərin tərbiyəsi heç də çətin iş deyildir, lakin bu işin asan olması üçün valideynlər hər şeydən əvvəl belə düşünməməlidirlər ki, mədəniyyət ancaq uşaq üçün lazımdır və sadəcə bu mədəniyyəti təbliğ etmək onların pedaqoji vəzifəsidir. Valideynlərin özləri qəzet, kitab oxumurlarsa, teatra, yaxud kinoya getmirlərsə, sərgilərlə, muzeylərlə maraqlanmırlarsa, öz-özünə aydındır ki, belə ailədə uşağa mədəni tərbiyə vermək olduqca çətin məsələdir. Belə ailədə valideynlər nə qədər çalışsalar da onların səyləri qeyri-səmimi və süni olacaqdır. Uşaq bunu dərhal görəcək, başa düşəcəkdir ki, valideynlərin tələb etdiyi mədəni adətlər o qədər də vacib məsələ deyildir.

Əksinə, o ailədə ki, valideynlər özləri fəal mədəni həyat sürürlər, qəzet və kitab məişətin zəruri ünsürüdür, teatr və kino məsələləri hamını maraqlandırır, belə ailədə hətta valideynlər ilk baxışda mədəni vərdişlər tərbiyəsi haqqında düşünməsələr də mədəni vərdişlər tərbiyəsi özünü mütləq göstərəcəkdir.

Mədəni vərdişlər tərbiyəsi yalnız şüurlu surətdə təşkil olunduqda, müəyyən planla, düzgün üsul və nəzarətlə müşayət edildikdə faydalı olar.

Uşaqda mədəni vərdişlər tərbiyəsi çox erkən yaşlardan, onun savadlanmasına hələ çox qalmış başlanmalıdır.

Mədəni vərdişlər tərbiyəsi işində valideynlər yalnız əylənmək həvəsi, vaxt keçirmək qayğısının üstün yer tutmaması qayğısına qalmaq məqsədilə diqqətli olmalı və nəzarət də etməlidirlər.

Əlbəttə, hər bir mədəni təşəbbüs, mədəni başlanğıc sevinc də verməlidir. Valideynlərin əsas bacarığı məhz bu sevinclə bu tərbiyə işini birləşdirməkdən ibarət olmalıdır. Bu işdə valideynlərdən bir qədər ixtiraçılıq tələb olunur.

Uşaqlarla ünsiyyət də mühümdür. Ana və ata, eləcə də nənə və baba, bacı və qardaşla ünsiyyətin psixoloji mənası daha böyükdür. Uşağın bir şəxsiyyət kimi inkişafının özülü də bu söhbətlər vasitəsi ilə qoyulur.

Xalq şairi Rəsul Rza “Poeziya zəhmət və ilhamdır” adlı avtobioqrafik məqaləsində yazır: “Atam sağ olanda ailəmiz firavan dolanırdı. Məsələ yalnız maddi cəhətdən təmin olunmaqda deyil. O zaman üçün çox nadir olan bir cəhət də bu idi ki, atamız bədii tərbiyə almağımızın qeydinə qalırdı. Evimizdə çox zaman söhbət ədəbiyyatdan gedirdi. Xüsusilə poeziyadan. Anam Məryəmin şairlik təbi vardı. Onun bu vaxta qədər qalmış üç şeirindən bunu görmək mümkündür. Anam oxumaq bilirdi, ancaq yazmaq bilmirdi. O, şeirlərini atama deyər, atam yazardı. Anamın şeirləri qadınları maarifə, mədəniyyətə çağırırdı. Anam Füzulini,

Natavanı, Sabiri oxuyardı. Yadımdadır, axşam çağları anam bizə - mənə və dörd bacıma qəmli şeirlər oxuyardı.

- Bunlar kimin şeiridir? – deyə soruşardım.
- Nənənizin uzaq qohumu və həmyerlisi xan qızı Natəvanın.

Anam gözəl şairə və ictimai xadim olan Natəvandan danışar, qürbətdə olan Füzulinin qəmli taleyindən söz açardı. Anamın oxuduğu şeirlərin çoxusu həmişəlik yadımda qaldı. Anamdan və nənəmdən eşitdiyim nağıllar və əfsanələr də yaddaşımın aynasından silinmədi. İndi yaddaşımın səhifələrini vərəqlədikcə mən bir daha inanıram ki, mənim könlümə şeirə olan məhəbbətimin ilk qığılcımlarını anam atmışdır. Anam məndə həm klassik poeziya xəzinəsinə, həm də xalq yaradıcılığına dərin hiss tərbiyə etmişdir".

Övladın təbiətində, ürəyində gizlənən şeir, sənət ilhamını, qabiliyətini, ümumiyyətlə, yanğısını oyatmaq üçün valideyn (baba və nənə, ata və ana) söhbətləri, məşvərətləri böyük əhəmiyyət kəsb edir. Ailə mühiti zərif, amma dumduru bulağın gözünü açır... Uşaqlar ana və ata vasitəsilə təbiət və cəmiyyət hadisələri haqqında təsəvvürlərə və anlayışlara yiyələnir, başqa adamları, özünü qiymətləndirmək meyarlarını mənimsəyirlər.

Burada biz uşaqların həm ata-ana, həm bacı-qardaş, həm də nənə-babaları ilə ünsiyyətinin rolunu xüsusi qeyd etməliyik.

Məlumdur ki, uşaq şəxsiyyətinin formalaşmasında ailə uzun müddət ərzində əsas rol oynayır. Böyüyən insanın xarakterinin, əməyə, mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətlərinin əsasları ailədə formalaşır.

Təsadüfi deyil ki, görkəmli rus pedaqoqu B.A.Suxomlinski tərbiyədə ailənin, valideynlərin rolundan bəhs edərək göstərirdi ki, yeniyetmələrin əxlaqi siması insanın uşaqlıq illərində necə tərbiyə olunmasından, anadan olandan 10-11 yaşına kimi onun qəlbinə nə qoyulmasından asılıdır.

Televiziya kanallarında dramatik ailə səhnələrinə tez-tez rast gəlirik. Bir də görürsən ki, hansısa kanalda ata-anasını axtaran, göz yaşları içində boğulan qız uşağını göstərirlər. Başqa bir kanalda övladları tərəfindən atılmış gözüyaşlı bir ananı "təqdim edirlər". Digər kriminal xəbərdə bir-birini bıçaqlayan ata-oğuldan danışırlar və s.

Bütün bunlar gündəlik xəbərlərdir və demək olar ki, hamımıza psixoloji təsir edir. Demək ətrafımızda, qonşuluğumuzda, ailələrdə çox böyük sosial aşınmalar var. Ona görə də bu gün ailə məsələləri hamının, xüsusilə də, cəmiyyətin və dövlətin diqqət mərkəzində dayanan strateji bir məsələyə çevrilməkdədir.

Yuxarıda sadalanan hadisələrin səbəblərini ailələrdə əxlaqi dəyərlərin itməsində görmək olar.

Yer üzündə yaşından, cinsindən, irqindən, milliyyətindən, təhsilindən, tutduğu vəzifədən asılı olmayaraq hər bir şəxs üçün ən əziz, ən yaxın, ən doğma və ən ülvi varlıq məhz anadır! Bizdə olan ən yaxşı keyfiyyətləri, cəhətləri məhz anamızdan əxz edirik. Ömrümüzün ilk günlərindən ana qayğısı, mehribanlığı, nəvazişi, hərarəti, yorulmaz əməyi, dözümü bizi günəş şüası kimi əhatə etmişdir. Ana fədakarlığı yenilməzdir. Böyüyüb başa çatsaq, yaşa dolsaq, oğul-uşaq sahibi olsaq da, ana qayğısı, narahatlığı üstümüzdən əksik olmur. Ən ağır dəqiqələrimizdə yanımızda anamızı görmək istəyirik. Sevincimizə də ilk növbədə şərik olan, ürəyi dağa dönən ana olur!

Uşaqlarda geyim mədəniyyətinin tərbiyə olunmasında valideynlərin rolu böyükdür. Ata-ana gözəl və zövqlə geyinməklə yanaşı, bu vərdişi öz övladlarına da aşılamalıdırlar. Valideyn nəzərə almalıdır ki, onun səliqəsiz geyinib cəmiyyət içinə çıxması, işə, məclisə getməsi uşağa da siraət edir. Ata ayaqqabısının tozunu təmizləmədən onu geyinirsə, uşaq da məktəbə belə yollanacaq. Bəzən küçədə, iş yerində, mağazada dünənki yağışdan sonra ayaqqabılarını təmizləmədən onları ayaqlarına keçirən adamlarla rastlaşırıq. Yaxalığı çirkli köynək geyinən ata, plaşının düyməsi düşmüş ana qızına hansı nümu-nəni göstərə bilər? Geyim mədəniyyəti belə bir prinsipi diqtə edir: “Mənə yaraşan gözəldir”.

Geyim mədəniyyətinin formalaşmasında valideynlər qədər müəllimlərdə yüksək təsir gücünə malikdirlər. Müəllimin geyiminin, hər şeydən əvvəl pedaqoji əhəmiyyəti vardır. Onun gündəlik geyimi məktəblilərdə estetik tələblər, zövq barədə təsəvvür yaradır, müasir insanın zahiri görkəminə dair onlara müvafiq istiqamət verir. Bu, bir həqiqətdir ki, müəllimin geyimlə bağlı nəsihətlərində daha çox şəxsi nümunəsi şagirdlərə güclü təsir edir.

Peşəsindən, sənətindən və məşğuliyyət növündən asılı olmayaraq, hər bir şəxs modaya biganə qalmamalıdır. Lakin hər şeydə olduğu kimi burada da modadan kortəbii deyil, ağıllı istifadə edilməlidir. Moda nədir? Moda geyinibkeçinməyi, səliqəli davranmağı, saç düzümünü, özünü gümrah saxlamağı, zəmanənin nəbzini tutmağı bacarmalıdır. Geyim bu gün əksəriyyətin zövqünə oxşayır və onların diqqətini cəlb edən tələbata çevrilirsə, deməli dəbdədir. Ailədaxili münasibətlər kontekstində valideynlərin uşaqları ilə münasibəti də önəmli əhəmiyyət kəsb edir. Bu məsələ hələ lap kiçik yaşlarından, məktəbəqədər dövrdən başlayır. Uşaqların şəxsiyyətinin formalaşmasında, psixi inkişafında, ətrafdakılarla rəftar və davranışında, idrak fəallığının inkişafında valideyn-övlad münasibətləri mühüm rol oynayır. Bu münasibətlər uşağın öz yerini, ailədəki rolunu müəyyənləşdirməkdə və özünü dərk etməsində, qabiliyyət və bacarıqlarını inkişaf etdirməkdə önəmlidir.

Ailədaxili münasibətlər kontekstində valideyn-uşaq münasibətləri tarixən milli xüsusiyyətlərin tələblərinə uyğun olaraq, eyni zamanda valideynlərin özlərinin düşüncə tərzinə, fərdi xüsusiyyətlərinə uyğun əsaslar üzərində qurulur. Uşaqların şəxsiyyətinin formalaşmasında və psixi inkişafında aparıcı rol oynayan ünsiyyət tələbatı da məhz bu münasibətlərin gedişində bu və ya digər dərəcədə ödənilir. Qeyd etdiyimiz kimi sağlam, düzgün münasibət sağlam, formalaşmış gələcəyə yol açır. Təəssüflə qeyd etmək lazımdır ki, bəzi vaxtlarda ailədaxili münasibətlərin (ər-arvad) nizamsızlığı uşaqların taleyində neqativ izlər buraxır.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun "Xəbərlər" jurnalı, №4, 2008, s.41-44.

## Mühazirə 4: Ailə tərbiyəsinin metodologiyası və ailə tərbiyəsinin nəzəri məsələləri

**PLAN:**

**1.Ailə tərbiyəsinin metodları**

**2."Ailə"nin etimoloji mənası**

**3.Müxtəlif tarixi dövrlərdə ailə**

**4.Ailənin mühüm vəzifələri**

Valideynlər övladları ilə ailədə təhsil-tərbiyə işləri apardıqda müvafiq metodlardan faydalanmalı olurlar. Həmin metodların köməyi ilə uşaqlar düzgün davranış və rəftar qaydalarına yiyələnir, onlarda davranış və ünsiyyət mədəniyyəti formalaşır, oğlanlar və qızlar vətənsevər olur, ailənin şərəfini qoruyurlar.

Valideynlər bir sıra hallarda ailədə öz bildikləri kimi uşağı tərbiyə edir, onların təhsil və təlimi məsələləri ilə məşğul olurlar, müxtəlif tərbiyə metodlardan faydalanırlar. Deməli, bu və ya digər ailədə tərbiyə üsulu müxtəlif ola bilər. Bu, bir həqiqətdir: nə qədər ailə varsa, o qədər tərbiyə metodikasının olması mümkündür. Lakin eyni zamanda, hər halda ailədə tərbiyənin ümumi forma və metodları da mövcuddur ki, ata-analar, ailənin yaşlı üzvləri onlara müraciət edirlər.

Gəlin əvvəlcə belə bir suala cavab tapmağa çalışaq: "Metod nədir?:

Oxuyuruq: "Metod (yunancada: methodos - gerçəkliyə, gözlənilən nəticəyə doğru yol, vasitə). Metod dedikdə, məqsədə çatma pedaqoji gerçəkliyi dərk etmək, bu və ya digər pedaqoji vəzifəni yata keçirmək üçün istifadə olunan priyomların, nəzəri və əməliliyyatı  nizamlayan qaydaların məcmusu anlaşılmalıdır. Dərk olur qanunauyğunluqlar metodun obyektiv amilləri; həmin qanunauğunluqlara əsaslanaraq pedaqoji gerçəkliyin öyrənilməsi və qarşı dayanan pedaqoji vəzifələrin həyata keçirilməsi priyom və vasitə isə onun subyektiv amilləridir". Bəs elə isə, ailə tərbiyəsinin metodları nələri nəzərdə tutur?

Ailə tərbiyəsinin metodları dedikdə, tərbiyənin vəzifələr çatmaq üçün valiseynin istifadə etdiyi yol və vasitələr, üsullar sistemi anlaşılır. Başqa sözlə, ailə tərbiyəsinin metodları dedikdə, ata ana ailənin digər yaşlı üzvləri tərəfindən uşağın şüuruna və dayanışına məqsədyönlü, sistemli, planauyğun təsiri həyata keçirmə imkan verən yol anlaşılır.

Pedaqoji və metodik ədəbiyyatda tərbiyənin, o cümlədən a tərbiyəsinin metodlarını müxtəlif şəkildə təsnif olunur. Ya metodlarrın hər birinin konkret olaraq, adları qeyd edilir (məsələn, inandırma, alışdırma, rəğbətləndirmə, cəzalandırma,tərbiyəçinin şəxsi nümunəsi), yaxud onlar metodlar qrupu ilə ifadə olunur.

Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində əxlaq tərbiyəsinin metodlarına münasibət bildirmiş, rəğbətləndirmə tədbirlərindən tərif, həvəsləndirmə və ürək-dirək vermənin; cəzalandırma tədbirlərindən qulaqburması vermənin və hədə-qorxu gəlmənin adını tutmuşdur.

Hazırda ailə tərbiyəsinin aşağıdakı metodlar qrupuna müracia olunur:

**1. Şüura, ağıla, idraka təsir göstərən metodlar (başqa sözlə "inandırma metodları")**

Valideynlər ailədə uşaqlarla tərbiyəvi işlər apardıqda əsasə onların şüuruna, ağlına, idrakına təsir göstərirlər. Bu zaman tərbiyə metodlarının başa salma, öyüd-nəsihət, məsləhət və s. növlərinə müraciət olunur.

Müsbət keyfiyyətlərin aşılanması, inkişaf etdirilməsi, intizama nail olunması üçün uşaqlarda ata-analarının dediklərinə inam yaratmaq lazım gəlir. Deməli, inandırma metodunun imkanlarından faydalanmaq məsləhət bilinir. Bu metoddan istifadə etməklə uşaqlarda fəaliyyətə, davranış, rəftar və ünsiyyət tərzinə yeni, düzgün münasibət formalaşdırılır. İnandırma metodunun tətbiqi xüsusi diqqət tələb edir. hətta təsadüfən deyilmiş hər hansı bir söz uşaqda inam yarada bilər. valideyn nümunəsi inandırma metodunun səmərəlilik göstəricisi kimi çıxış edir. nümunə müsbət, yaxud mənfi ola bilər. Uşaqlar xüsusən kiçik yaşlarından öz ata-analarını yamsılamağa, qızlar analarına, oğlanlar – atalarına bənzəməyə, özlərini böyüklərə oxşatmağa çalışırlar. Odur ki, valideyn öz hərəkətlərinə, oturuşuna, duruşuna, davranış və rəftarına ciddi fikir verməlidirlər.

İnsanın, gənc nəslin təşəkkül tapıb formalaşmasında nəsihət və öyüdün müstəsna dərəcədə əhəmiyyətli olduğunu yaxşı Nizami Gəncəvi oğlu Məhəmmədə nəsihətlər yazmışdır.

İnandırma metodu dedikdə, müsbət adət və keyfiyyətlərin yaradılması, davranış, rəftar və xarakterdəki, şəxsiyyətlərarası münasibətlərdə mənfi halların qarşısının alınması üçün valideynlərin uşaqların şüuruna, hisslərinə və iradəsinə təsir göstərməsi üsulu nəzərdə tutulur.

Nəsirəddin Tusi ailə tərbiyəsində inandırma metodunun roluna yüksək dəyərləndirir, başa salmaya bu metodun çox mühüm növü, vasitəsi kimi yanaşırdı. Nəsirəddin Tusinin qənaətincə, "Uşağı mehribanlıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etmək lazımdır, xüsusilə ağıla, şüura, idraka təsir edən başa salma yolu ilə...".

Sözün təsir qüvvəsi inandırma metodunun səmərəliliyi şərtidir. Uşaqlarla söhbətlər, öyüd-nəsihət, tövsiyə, məsləhət faydalıdır. İnandırma metodunun bir sıra növləri vardır. Həmin növlərə (vasitələrə) daxildir: başasalma, öyüd, nəsihət, tövsiyə, xatırlama, dilətutma, xəbərdarlıq, söhbət və s.

**2. Fəaliyyəti təşkil edən və mənəvi davranışı formalaşdıra metodlar (başqa sözlə, “alışdırma metodları")**

Uşaqlarda davranış mədəniyyəti, müsbət mənəvi keyfiyyətlə formalaşdırmaq baxımından inandırma metodunun imkanları genişdir. Fəqət ailə tərbiyəsində yüksək göstəricilər qazanmaq üçün ata ana öz pedaqoji fəaliyyətini yalnız bu metodla məhdudlaşdıra bil öyüd-nəsihət vermək, tutmaq, başa salmaq hələ kifayət etmir. Nə üçün? Cavab verməy çalışaq: Axı heç də bütün uşaqlar tərbiyəvi təsirləri eyni dərəcədə valideynin istədiyi kimi qəbul etmir. Heç də onların tərbiyəlilik səviyyəsi eyni deyil. Ailələrdə sakit, sözəbaxan uşaqlarla yanaşı, çılğın, sözəbaxmaz, ərköyün, əsəbi, xudpəsənd uşaqlar olur.

Odur ki, istər-istəməz ailə tərbiyəsində uşağın fəaliyyətinin təşkili və ictimai davranış təcrübəsini formalaşdıran metodlarından, başqa sözlə, alışdırma metodundan, onun vasitələrindən, priyomlarından faydalanmaq lazım gəlir. Alışdırma müsbət hərəkət və davra nışla bağlı vərdişlərin yaradılmasını tələb edir.

Valideyn hər hansı bir davranış təcrübəsinin, hərəkətin zəruriliyini, bu və ya digər müsbət keyfiyyəti özündə tərbiyə etməyin vacibliyini oğluna, yaxud qızına başa salır. Başasalma, aydınlaşdırma (şüura təsir göstərmə) kömək etmədikdə ata, yaxud ana, eləcə də ailənin digər yaşlı üzvləri (baba, nənə və b.) alışdırma metodunu im- kanlarından bəhrələnir. Beləliklə, düzgün davranışa, nəzakətli və xeyirxah hərəkətlərə uşaqları alışdırmaqla onlarda mədəni adətlər meydana gəlir. Alışdırma metodu valideynlərin təşkilatçılıq qabiliy- yətinə yiyələnmələrini tələbata çevirir.

Öz övladlarına davranış qaydaları, şəxsiyyətlərarası münasibətlər sistemi, rəftar tərzi barədə məlumatın verilməsi ilə bu sahədə adətlərin formalaşması arasında ziddiyyət, uyğunsuzluq ola bilər. başqa sözlə, inandırmaq (şüura təsir göstərmək) mümkün olmadısa, alışdırmaq (*fəaliyyəti təşkil etmək və mənəvi davranışı formalaşdırmaq)* lazım gəlir.

Bu xüsusda A.S. Makarenko yazırdı: "Biz hər gün döşəmələri silirdik. Sonra kimsə çirkli ayaqqabıları ilə döşəmədən keçib gedirdi. Heç bir oğurluq, heç bir xuliqanlıq məni bu çirkli ayaq izləri kimi qəzəbləndirmirdi. Niyə çirkləndirmişdir? Ona görə ki onu heç kim görməmişdir. Bəlkə də bu, başqalarından düzgün davranış tələb edən, özü gözəl zərbəçi olan , irəlidə gedən ən yaxşı kommunardır.

O, tək qalanda, onu heç kim görmədikdə o, öz yoldaşlarının işinə. öz rahatlığına və gözəlliyinə tüpürmüşdür, çünki onun bu hərəkətini heç kim görməmişdir. Necə hərəkət etmək lazım olduğunu başa həşməklə adət üzrə davranmaq arasında olan ziddiyyət beləunu

Uşaqları vətənpərvərlik hisslərini inkişaf etdirmək üçün onla- rın məqsədyönlü, sistemli və planauyğun şəkildə Vətənin mənafeyi naminə fəaliyyət göstərmələrinə çalışmaq lazımdır.

Beləliklə, davranış mədəniyyətinin təşəkkül tapması alışdırma ilə - oğlanlarda və qızlarda zəruri bacarıq və vərdişlərin, mədəni adətlərin yaradılması ilə başlanır. Alışdırma dönə-dönə təkrar nəticəsində mümkündür. Mədəni adətlər uşaqları mənəvi təcrübəyə yiyələndirir. Onlar intizamı, etik qaydaları, cəmiyyətdə davranış və birgə yaşayış normalarını, qanunun tələblərini gözləyir, özünütərbiyə və özünütəhsillə məşğul olur, nəzakətli, mərifətli olurlar. Beləliklə, intizama əməl etmək baxımından adətə çevrilmiş hərəkətlər işə düşür. Alışdırma metodunun köməyi ilə uşaq hər hansı xoşagəlməz hərəkəti icra etməkdən vaz keçir.

Ailə tərbiyəsində alışdırma metodunun aşağıdakı növlərindən (vasitələrindən) istifadə etmək məsləhətdir: rejim, oyun, sərəncam, tələb, ictimai rəy, tərbiyəvi vəziyyətin yaradılması, tapşırıq, pedaqoji tələb, ictimai-faydalı əmək və s.

**3. Şagirdlərin hiss və münasibətlərini, fəaliyyət və davranışını stimullaşdıran metodlar (başqa sözlə, "rəğbətləndirmə və cəzalandırma metodları")**

Bəzi valideynlərin əksinə olaraq ailə tərbiyəsinin məqsədi "sözəbaxan”, yalnız buyurulanı yerinə yetirən uşaqlar tərbiyələndirməkdən ibarət deyildir. Bu uşaqların aciz, təşəbbüskar olmayan, müstəqillik nümayiş etdirə bilməyən nəzil kimi böyümələrinə səbəb olardı.

Tərbiyənin keyfiyyətindən, valideynlərin tərbiyə işində səriştəliliyindən asılı olaraq, ailədə müxtəlif tərbiyəlilik səviyyəsinə malik uşaqlar böyüyür. Ona görə də uşaqların hiss və münasibətləri fəaliyyət və davranışını stimullaşdıran metodlardan istifadə etm də zərurətə çevrilir. Nümunəvi davranan, dərslərini yetirən, müstəqillik, təşəbbüskarlıq nümayiş etdirən, təşkilatçılıq bacarıqlarına yiyələnən, əməyə bağlanan, yaradıcı təfəkkürə malik uşaqlar valideynlər tərəfindən yeri gəldikcə rəğbətləndirilməlidirlər. Rəğbətləndirmə tərbiyənin səmərəli metodudur. Rəğbətləndirmə- ailədə uşağın nümunəvi davranışına və fəaliyyətinə müsbət qiymət verilməsidir.

Rəğbətləndirməyə qarşılıqlı fəaliyyətin müxtəlif formalan aiddir. Nümunə olaraq birgə gəzinti və oyunu, etibar, tərif, hətta maddi stimullaşdırmanı göstərə bilərik.

Nəsirəddin Tusiyə yazırdı: "Uşaqda xoşa gələn bir hərəkət baş verdikdə onu tərifləyib həvəsləndirmək lazımdır, lakin əks hallarda hər dəqiqə danlayıb başına vurmaq doğru deyildir".

Rəğbətləndirmə vasitələri tətbiq olunarkən ədalət və obyektivlik gözlənilməlidir. Əks halda, nümunəvi davranış və rəftarı, aktiv fəaliyyəti ilə diqqət mərkəzində olan uşaq inciyə, küsə bilər, ədalətin olmadığı qənaətinə gələr.

Ailədə rəğbətləndirmənin aşağıdakı növlərindən (vasitələrindən) faydalanmaq mümkündür: 1) mənəvi (tərif, təşəkkür etmək, fəxri tapşırıq, şagirdin valideynlərinə məktub göndərmək, şagirdin şəklini şərəf lövhəsinə vurmaq, haqqında divar qəzetinə, məktəbin kitabına yazmaq və s.); 2) maddi (fəxri fərmanla, diplomla, qiymətli hədiyyə ilə təltif etmək və s.).

Davranış və rəftarı qüsurlu olan, sözeşitməz, kobud, dalaşqan, təlimdə yetirməyən, məhəllə uşaqlarını, sinif yoldaşlarını, bacı-qardaşlarını incidən, söyüş söyən, dərsdən qaçan, dərs- dən yayınan uşaqlar ata-anaları tərəfindən cəzalandırılmalıdırlar. Cəzalandırma heç də o demək

deyildir ki, uşaq ata-anası tərəfindən döyülsün. Fiziki cəza, ümumiyyətlə, yol verilməzdir. Fiziki cəza tərbiyəvi metodu yoz, təzyiq metodudur.

Bəzən valideyn tərbiyənin bu və ya digər metodundan istifadə etsə də, uşağın davranış, rəftar və ünsiyyətində, hərəkət və əməllərində müsbət dəyişikliklər müşahidə olunmur. O, bacı və qardaşları, sinif yoldaşları, məhəllədəki uşaqlarla kobud davranır, onda mənəvi borc və məsuliyyət, cavabdehlik hissləri inkişaf etmir, özündən kiçikləri incidir, böyükləri eşitmir.

Niyə belə olur? Bunun səbəbini onunla izah etmək mümkündür ki, ailədə tərbiyə işləri düzgün qurulmamışdır, ailənin mənəvi və psixoloji mühiti lazımi səviyyədə olmamış, beləliklə, mənfi adətlər təşəkkül tapmışdır. Bütün bunların aradan qaldırılması lazım gəlir, fəqət buna uzun vaxt lazımdır. Belə hallarda valideynlər tərbiyəvi təsirlərinə yeni nəzərlərlə baxmaq əvəzinə, cəzalandırma tədbirlərinə əl atırlar.

Bu və ya digər hərəkət formasını bəyənməmək, danlamaq, məzəmmət etmək, irad tutmaq uşağı naqis, xoşagəlməz hərəkət və əməllərdən çəkindirir.

Cəzalandırma pedaqoji təsir metodudur. O, uşaq müəyyən olunmuş tələbləri yerinə yetirmədiyi, davranış qaydalarını pozduğu hallarda tətbiq olunur. Bu metodun tətbiqi nəzərdə tutulduqda uşağa ilk növbədə cəzalandırmanın səbəbi aydınlaşdırılmalıdır: o hansı işinə, əməlinə, hərəkətinə görə cəzalandırılır. Ailə təcrübəsində cəzalandırmanın aşağıdakı növlərinə müraciət edilir: tənbeh, töhmət, danlaq, nəzərdə tutulmuş bu və ya digər işi (məsələn, kinoya, konsertə, teatr tamaşasına, muzeyə, ad gününə, toya getməyi, sərgiyə baxmağı və s.) təxirə salmaq və s.

Uşağı, xüsusən oğlanları tez-tez cəzalandırma tədbirləri ilə təngə gətirmək olmaz.

Nəsirəddin Tusinin fikrincə, "Çox danlamağa adət edib hər şeyi qadağan etməkdən çəkinmək lazımdır, bu sırtıqlaşmağa, acığa düşüb həmən işi bir də görməyə sövq edər (insan qadağan olunmuş şeylərə həvəskar olar); nəsihətə qulaq asmaqdan bezər, zəhləsi gedər, "qorxaq" olmadığını nəzərə çarpdırmaq xatirinə bəd əməllərə başlayar, bəlkə daha incə hiylələrə əl atar".

Cəza lazım gəldikdə tətbiq edilməli, düzgün, ədalətli, obyektiv və əsaslandırılmış şəkildə olmalıdır. Bu, uşağın öz hərəkətini təhlil etməsi, xoşagəlməz hallara yol verməməsi ilə nəticələnir.

Ailə həyatında əsas yer tutan norma və qaydalar pozulduqda, uşağın davranış və rəftarında xoşagəlməz hallar müşahidə edildikdə, təcili tədbir görülməlidir. Bir daha tərbiyəşünas A.S. Makarenkoya müraciət edək: "Bu yayılmış fikirdir ki, insanın həm ləyaqətli, həm də nöqsanlı cəhətləri olmalıdır. Bu cür fikirləşərək yaşamaq bir qədər rahat olur: ləyaqətlərim də var, qüsurlarım da var. Sonra insan özünə təsəlli verməyə başlayır: qüsurlar olmasaydı, insan yox, sxem əmələ gələrdi. Əlvanlıq üçün qüsurlar olmalıdır. Lakin nədən ötrü, nəyin xatirinə mütləq qüsurlar olmalıdır. Hərgah sizin iyirmi ləyaqətiniz və on qüsurunuz varsa, biz sizdən əl çəkməməliyik: bəs nə üçün sizin 10 qüsurunuz var? Rədd olsun beşi. Beş qüsur qalanda - rədd olsun ikisi, qoy üçü qalsın. Ümumiyyətlə, insandan tələb etmək, tələb etmək lazımdır! Hər bir adam özündən də tələb etməlidir".

Bir sıra hallarda ailələrdə cəzalandırma metodu kimi fiziki cəza tətbiq olunur. Bu, problemə yanlış yanaşmadır. Həqiqi şəxsiyyət təzyiq və zorakılıq metodları ilə hazırlana bilməz. Vaxtilə ata övladını oxutmaq üçün mədrəsəyə, mollanın yanına gətirəndə "əti sənin, sümüyü mənim» deyir, oğlunu onun sərəncamına verirdi.

Həmin sözlərin mənası bu idi ki, istəsən, uşağı döy, şallağa tut, təki oxusun, bilik alsın.

Şillə, şallaq, qayış və çubuqla tərbiyə. Bu, anti-pedaqoji bir formadır. Uşağın tərbiyəsində bu vasitələrdən istifadə həm yolverilməzdir, həm də səmərəsiz. Hətta 4-5 yaşlı uşaq belə ata- ananını qışqırığının səbəbini anlamır, bunun cəza olduğunu başa düşmür. Bu kimi hallarda küncə qoymaq daha münasibdir. Əgər valideyn fiziki cəzaya əl atırsa, bu, o deməkdir ki, özünün haqlı olduğunu başqa yollarla heç cür uşağa sübut edə bilmir. Şillə, şallaq, qayış və çubuq uşaqda ata-ananın hərəkətini, münasibətini bəyənməmək, qəbul etməmək, acıq, bəzi hallarda nifrət yaradır.

Mollalar atanın onlara verdiyi səlahiyyətdən sui-istifadə edərək yaxşı oxumayan, yaxud intizamsız uşaqların ayaqlarını falaqqaya qoyub çubuqla onları döydürürdülər. "Dəli Kür" romanı (və eyni adlı filmi) nümunə gətirilə bilər.

Əslinə varsaq, deyə bilərik ki, fiziki cəza nəyin yaxşı, nəyin pis olduğunu uşağa öyrətmir. Döyülmək qorxusunu hiss edən uşaq yalnız mü- vəqqəti, müəyyən vaxt çərçivəsində sözə baxır. Çəkindiyi, qorxduğu şəxsin yanında özünü - sözəbaxan, ədəbli aparır, sonra da bildiyini edir.

Yeniyetmələr valideynlərin onlara uşaq kimi yanaşmalarını xoşlamır, hər addımbaşı onları nəzarət altında saxlamalarından hətta hiddətlənirlər. Yeniyetməlik ziddiyyətli yaş dövrüdür. Özlərini böyümüş hiss edən uşaqlar himayəçiliyi qəbul etmirlər. Bir sıra hallarda valideynlərini eşitmir, dediklərini yerinə yetirmir, öz bildiklərini yeridirlər. Bu yaş dövründə yaxşı olar ki, ata-analar yeniyetmələrlə dost münasibətində olsunlar. Belə halda hətta onlar öz ürəklərini

valideynlərinə aça da bilərlər. Uşaqların etibarını itirmək olmaz. Əks təqdirdə yeniyetmələr qaraqabaq olacaq, bir çox məsələləri ata- analarından gizli saxlayacaqlar.

Ata (ana) fikirləşir ki, övladı (oğlu, qızı) onun dediklərindən özü üçün nəticə çıxarıb, "sözəbaxan" olub. Fəqət, aldadıcı qənaətdir. Həqiqətdə bu, döyülmək qorxusu önündə zahiri itaətkarlıqdır. Fiziki cəza qorxusu uşağı özünü başqa cür aparmağa məcbur edir. Onda yalançılıq, iki- üzlülük, qorxaqlıq, yaltaqlıq və s. kimi mənfi keyfiyyətlərin formalaşmasına səbəb olur.

Valideyn ailə tərbiyəsində rəğbətləndirmə və cəzalandırma metodlarını ona görə tətbiq edir ki, uşaq öz hərəkət və əməllərinin, davranış və rəftarının, ünsiyyət tərzinin müsbət və mənfi nəticələrini görüb, düzgün qənaətə gəlsin.

Valideyn cəza verdikdən sonra onun nəticəsini də diqqət yetirməlidir. Ata, yaxud ana uşağın hər hansı biri əmələ, hərəkətə qəsdən, bilərəkdən və ya təsadüfən yol verdiyini özü üçün aydınlaşdırmalıdır. Bəzən cəzanın tətbiqi lazım gəlmir. Pedaqoqların qənaəti belədir ki, cəzalandırma metodundan nə qədər az istifadə edilsə onun səmərəliliyi daha yüksək olar. Əgər uşaq günahını səmimi şəkildə etiraf edirsə, cəzaya ehtiyac qalmır.

Valideynlərin hamısı uşaqlarını xoşbəxt böyütmək istəyirlər. Bəzi ata-analar bu sahədə uğurlar qazansalar da, bir sıra hallarda səhvlərə də yol verirlər.

Hansılardır o səhvlər:

1) Ata-analar nümunə göstərmək əvəzinə elə hey öyüd-nəsihət verirlər. Necə deyərlər, uşaq hər gün gördüklərini, şahidi olduqlarını canına, yaddaşına hopdurur. Ata, yaxud ananın dediyi bir şey olur, amma etdikləri başqa şey. Bu deyilənlərlə edilənlər arasında seçim etməyi uşağa tapşırmalı olsaq, o zaman uşaq ikincini valideynlərinin davranış və rəftar, ünsiyyət tərzini seçəcək, təbii ki, məsləhət bildiklərinə laqeyd qalacaqlar. Məsələn, ata (ana) deyir: ki, söyüş söymək olmaz. Amma evdə o, söyüş söyür. Ana (ata) deyir: yalan danışmaq olmaz. Fəqət uşaq görür kü, ana özü əslində lazım gələndə yalan danışır, sözün düzünü, həqiqəti demir.

2) Uşağın əvəzinə bir çox işləri valideynlər görürlər. Bununla, əvvəla, uşağı müstəqillikdən, özünəxidmətdən məhrum edirlər. İkincisi, onu tənbəlliyə alışdırırlar. Ana balaca qızının dalınca uşaq bağçasına getmişdir. Onun paltarını tələsmədən dəyişdiyini görüb: "Qızım, tələs" deyir. Gözləməyə səbri çatmadığından onu özü geyindirir. Sonra qonşuların, rəfiqələrinin yanında şikayətlənir: "Qızım mənim köməyim ol- madan çəkmələrinin bağını belə bağlaya bilmir. Fəal deyil".

3) Valideynlərdən birinin (ananın) o birini (atanı) uşağın yanında tənqid etməsi. Hətta valideynlərin bir-birindən narazılıqları varsa da, uşağın yanında bir-birini pisləməməli, bir-birinin nöqsanlarını sadalamamalı, qığqırmamalı, bir-birinə əl qaldırmamalıdırlar. Uşaq belə hallarda valideyn münaqişələrinin qurbanına çevrilir. Bu da onun psixi vəziyyətini pisləşdirir.

4) Uşağın fiziki fəallığına təzyiq göstərilməsi. Oğlanlar qızlarla müqayisədə fiziki baxımdan daha fəal olurlar. Onlar artıqlıq edən enerjidən yaxa qurtarmalıdırlar. Buna görə də onların hərəki oyunlarla, qaçış, uzununa və hündürlüyə tullanma, uzgüçülük, güləş, boks və s. məşğul olmaları təbiidir. Bəzi valideynlər uşaqlarını idman bölmələrində iştirakına qadağa qoyur, beləliklə, istifadə olunmayan enerji emosional gərginlik yaradır.

5) Uşağı həmyaşıdları ilə müqayisə edib üstünlüyün onun dostuna, yoldaşına verilməsi. Bu da arzuolunmazdır. Uşağı ruhdan salır, öz dostuna, yoldaşına münasibətdə qibtə, nifrət, öz qüvvəsinə inamsızlıq yaradır. əgər ailədə bir neçə uşaq varsa, onları da bir-biri ilə müqayisə etmək, üstünlüyü onlardan hansınasa vermək lazım deyil. Belə bir mövqe, uşaqlar arasında ixtilafa səbəb olur. ailədə uşaqlara ögey-doğma münasibət yolverilməzdir. Hər bir uşağı özünün uğuruna görə tərifləmək daha yaxşı olar. Uşaq yaxşı rəqs edirsə, demək olar: bu gün dünənkindən də yaxşı rəqs etdin. O biri uşağı tərifləyərək bildirmək olar: çəkdiyin rəsmlər adamı valeh edir. Belə yanaşma uşaqlarda öz qüvvələrinə inamı artırır.

6) Fiziki cəzanın tətbiqi. Bu, ailə tərbiyə- sini çətinləşdirir. Bu haqda artıq bəhs etmişik.

7) Yersiz himayə. Ailədə yeganə oğlan uşağı böyüdükdə o, hədsiz qayğı ilə əhatə olu- nur. Nəticədə o, müstəqillikdən məhrum olur. Belələrinə, adətən "ana uşağı" deyirlər.

8) Valideynlik məhəbbətini əsirgəmək. Bəzi ata-analar tərbiyəvi məqsəd baxımından valideynlik məhəbbətini əsirgəmək kimi priyomundan istifadə edirlər. Mənəvi cəza bir sıra hallarda hətta fiziki cəzadan da dəhşətli olur.

Uşaq atan-anasından:

-Mən səni daha sevmirəm.

-Mən pis, yaramaz uşağı xoşlamıram

-İtil gözümdən.

-Mənim ümidlərimi doğrultmadın.

-Tərbiyəsizin birisən.

-Əgər mənin dediklərimə qulaq asmasan, daha səni sevməyəcəyəm.

-Rədd ol, gözüm səni görməsin və s. bu kimi sözləri eşidəndə varından yox olur. Bunlar çox ağır ittihamlardır.

Azyaşlı uşaqlar valideynlərini itirməkdən, ata-anasının gözündən düşməkdən qorxaraq onların tələblərini yerinə yetirirlər. tərbiyənin bu tipli metodu az-çox səmərə versə də, ağır nəticələrlə müşayiət olunur.

9) Emosiyaların qadağan olunması. Ailədə bir sıra hallarda oğlan uşaqlarına müraciətlə deyilir: kişilər ağlamaz; qız kimi gözünün yaşını tökmə; sən kişisən dözməlisən və s. Bu müraciətlər, bu təsdiqlər təbii hissləri büruzə verməkdə oğlanlara mane olur. Lazımdırmı? Əlbəttə, yox. Hətta yekə kişilər belə bir çox hallarda öz emosiyalarına nəzarət edə bilmirlər. Burada nə qəbahət var? Uşaq his-həyəcanını büruzə vermək haqqına malikdir. Bu zaman zəruri köməyi, dəstəyi almalıdır. Kədərini, hiss-həyəcanını daxilində yaşatmaq ona ziyan vurar.

10) Məktəbdə aldığı qiymətə görə uşağı danlamaq. Bu ona pis təsir göstərir. Valideynin verilən qiymətə reaksiyası müxtəlif şəkildə nəticələnə bilər: uşaqda təlimə ciddi məsuliyyət yaradar; yaxud oxumağa, təlimdə yaxşı nəticələrə yiyələnməyə marağını öldürə bilər. Qiymət düzələndir, münasibətin korlanması daha ciddi fəsadlar yarada bilər: uşaq valideynindən küsür, tez-tez üstünə qışqırdığına görə anadan (atadan) qorxur və s.

**4. Valideynin şəxsi nümunəsi.** Valideyn nümunəsi uşağa təsir edən güclü metoddur. K.D. Uşinskinin düzgün qənaətinə görə, "Tərbiyəçinin cavan ruha təsiri elə bir təsir qüvvəsidir ki, heç bir dərslik, heç bir əxlaqi nəsihət, heç bir cəza və rəğbətləndirmə onu əvəz edə bilməz".

Bu sözlərdə dərin həqiqət vardır.

Valideyn bütün günü uşağın diqqət mərkəzində olur. Ata, yaxud ana pedaqoji etikanın tələblərini necə yerinə yetirir, uşaqla necə danışır, onu necə həvəsləndirir, necə cəzalandırır, necə geyinir, hövsələli, yaxud əsəbidir? Uşaqlar bunlara fikir verirlər. Ona görə də valideynin uşaqlara dedikləri, məsləhət bildikləri ilə özlərinin hərəkət və əməlləri, davranış və rəftar tərzləri bir-birinə uyğun gəlməlidir.

Deməli, valideyn hər sahədə – bilik və bacarığı, geyimi, davranış və rəftarı, ünsiyyəti, qarşılıqlı münasibət tərzi, təşkilatçılıq qabiliyyəti və s. ilə öz övladlarına nümunə göstərməlidir.

5. Tərbiyədə nəzarət, özünənəzarət və özünüqiymətləndirmə (başqa sözlə, tərbiyə prosesinə nəzarət və onun səmərəliliyinin təh-lili) metodu

Uşağın bir şəxsiyyət kimi təşəkkülündə bu metodun da əhəmiyyəti böyükdür. Tərbiyə mütəşəkkil, məqsədyönlü, sistemli və fasiləsiz proses olduğundan bu proses nəzarətsiz buraxıla bilməz. Özlərinin gündəlik davranışına, rəftar və ünsiyyət tərzinə fikir verməyi uşaqlara öyrətmək və hər sahədə nümunəvi olmaq tələbatını onlarda yaratmaq vacibdir.

Özünənəzarət özünütərbiyənin mühüm komponentlərindəndir, şəxsiyyətin ahəngdar və hərtərəfli inkişafını təmin edir. Özünüqiymətləndirmə barədə də həmin fikri söyləmək olar. Əgər uşaq özünüqiymətləndirməyi bacarırsa, özünə kənardan, başqasının gözləri ilə baxa bilir və öz qüsurlarını, yaxşı cəhətlərini görürsə, o, nəticə çıxarmağa çalışacaqdır. Başqa cür ola da bilməz.

Burada Şeyx Nizaminin:

Öz əksinə vurulma, bil ki, nədir varlığın,

Qüdrətin güzgüsündə bir zərrədir varlığın,

və: A. Bakıxanovun: "O adam ağıllı hesab olunur ki, öz nöqsanını başqalarından çox görsün və hünərini az bilsin" sözləri yerinə düşür.

Cəmiyyətin nəzərində müsbət qiymətləndirilmək istəyi insanı mədəni və tərbiyəli, kamil olmağa məcbur edir. Tərbiyədə nəzarət, özünə- nəzarət və özünüqiymətləndirmə bir-biri ilə sıx surətdə bağlı olan və biri digərinin olmasını zərurətə çevirən anlayışlardır.

Ailədə şəxsiyyətlərarası münasibətlərin ölçüsü. Ailə tərbiyəsində uşaqla kobudluq yolverilməzdir. Valideynlər sözlərinə, danışıq tərzlərinə fikir verməlidirlər. Ünsiyyət zamanı təhqiredici sözlərdən istifadə olunmamalıdır. Nitq mədəniyyəti gözlənilməlidir. Valideyn söyüşə, kobud sözlərə, təhqirə adət edərsə, bu kimi hallar uşaqda, onun danışıq, nitq və ünsiyyətində öz əksini tapacaqdır. Məktəbəqədər yaşlı uşaqlarla adi dildə danışılmayanda, bu onun nitqinin inkişaf etməməsinə, yaxud düzgün olmayan davranışına səbəb olur. uşaq doğulduğu gündən etibarən çığır-bağır deyil, düzgün nitq eşitməlidir ki, normal danışa bilsin.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI


1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun “Xəbərlər” jurnalı, №4, 2008, s.41-44.

**Mühazirə 5: Ailə tərbiyəsinin tipologiyası**

**PLAN:**

**1.Ailə tipləri və onların xarakteristikaları**

**2.Münasibətlərin üslubu baxımından ailə tipləri**

**3.Nuklear ailə**

**4.Mürəkkəb ailə**

Ailənin sadə və mürəkkəb olmaqla iki başlıca tipi vardır. Omoqrafların qənaətincə, hazırda ən geniş yayılmış ailə tipi nuklear ailə saylır. Nuklear ailə nədir? Onun əsas xüsusiyyətləri nədən ibarətdir? Nuklear ailə sadə ailədir. O, iki nəsildən -ata-ana və uşaqlar- ailənin tipi dəyişir, dan ibarət olur. Əgər uşaqlardan hər hansı biri evlənirsə (ərə gedirsə) və valideynləri ilə birlikdə yaşayırsa, bu vaxt nuklear ailə mürəkkəb ailəyə çevrilir.

Nuklear ailə əsas ailə tipidir. Nuklear sözü də həmin mənanı ifadə edir. Nuklear latınca nus-leus nüvə deməkdir. Biz hansı ailə dən bəhs ediriksə edək, onun məhz nüklear ailə əsasında təşəkkül tapdığını görərik.

Uşaqların sayına görə nuklear ailənin 3 tipini qeyd edirlər:

a) çoxuşaqlı (5 və daha artıq uşaq) ailə;

b) orta uşaqlı ailə (4 və 3 uşaq);

c) az uşaqlı ailə (2 və 1 uşaq).

Mürəkkəb ailə üç və yaxud daha çox nəsildən - baba-nənə, uşaqlardan ibarətdir. Əgər iki və daha çox nuklear ailə birlikdə (bir mənzildə, bir evdə) yaşayır, təsərrüfatı birgə aparırsa, o ata-ana və da mürəkkəb ailə sayılır.

Azərbaycanda bir zamanlar mürəkkəb ailə daha geniş yayılmışdı. Keçmişlərdə bu ailələri patriarxal ailə adlandırırdılar. Həmin ailələr tərkibinə görə mürəkkəb səciyyəyə malik idi. Həmdə mürəkkəblik təkcə ailədə üç və daha artıq nəslin yaşaması ilə deyil, eyni zamanda uşaqların sayı ilə əlaqədar idi. Mürəkkəb ailədə 10-12, bir sıra hallarda 15-18 uşaq olurdu.

Kişilər qadınlar, qadınlar isə, kişilər barədə lazımi biliklərə malik olmalıdırlar. Mövcud ədəbiyyat, mətbuat bu sahədə köməyə gəlir. Mənbələrdə qadınlara kişilər haqqında aşağıdakı məlumatlar verilir:

1. "Kişilər kiminsə onların həyatına müdaxilə etməsini xoşlamırlar. Odur ki, onların işinə çox da qarışmayın.

2. Kişinin tənqiddən xoşları gəlmir. Tənqid etmək istədikdə, yaxşı olar ki, bunu zarafata salıb edin.

3. Siz ağıllı və çox bacarıqlı ola bilərsiniz, fəqət bu keyfiyyətlərinizi kişilərin gözünə soxmayın.

4. Kişinin məsləhətlərinə və köməyinə ehtiyacınız olduqda bunu gizlətməyin.

5. Kişini  başa düşmək üçün dünyaya onun gözləri ilə baxın.

6. Tənha qadınlara məsləhətlər bunlardır: "1. Tənhalığınızdan  yerli-yersiz söz açmayın.

2. Belə hallarda sizə acıyarlar, yazıqları gələr. Belə mövqe isə adamın ləyaqətini alçaldar.

3. Əlinizi dünyadan üzməyin, yaxud özünüzü bədbəxt saymayın. Hər həsrətin sonunda bir ümid var.

4. Tənha qadınlar möhkəm yadda saxlasınlar: "Sonuncu ölən ümidlərdir.

5. Öz taleyinizdən rəfiqələrinizə, qohumlar ailə üzvlərinizə şikayət etməyin. əks təqdirdə, valideynlərinizi, bacı-qardaşlarınızı pərişan edərsiniz, onsuz da onlar sizin barənizdə fikirləşirlər. Başqaları isə sizi başa düşməyəcəklər.

6. Pal-paltarınıza, bəzək-düzəyinizə, ətriyyata fikir verməkdənsə,  mətbəxinizə diqqət yetirin. Lakin səliqəsiz və zövqsüz də geyinməyin. Şux və təravətli görünün.

7. Özgələrin ərlərinə göz dikməyin.

8. Özünüzü güclü qadın kimi göstərməkdən çəkinin. Siz onsuz da qadınsınız. Qadın isə gül ləçəyi kimi zərif, ətirli və təravətlidir.

Demoqrafiyada müasir ailəni səciyyələndirmək məqsədia sadə (nuklear) və mürəkkəb ailə ilə bərabər həm də tam və nataman ailə anlayışlarına müraciət edilir. Bu barədə artıq bəhs etmişik.

Lev Tolstoy "Anna Karenina" romanına epiqraf kimi yazırdı: "Bütün xoşbəxt ailələr hamısı bir-birinə oxşayır, bədbəxt ailələrinisə hərəsi bir cür bədbəxtdir". Bu fikir baxımından ailələr uğurlu və uğursuz olur. Psixoloqların qənaətincə, uğursuz ailələr üçün səciyyəvi xüsusiyyətlər bilavasitə ailənin həyat şəraiti ilə deyil, ər-ar vadın qarşılıqlı münasibətləri, davranış və rəftarı, ünsiyyət tərzi ilə əlaqədardır. Belə ki bu tipli ailələrdə ər və arvad baş qaldıran problemlərə fərqli yanaşır, br-birlərini ya başa düşmür, ya da başa düşmək istəmir, yerli-yersiz mübahisələr edir, bir-birlərinə hörmət etmirlər. Qarşılıqlı qayğı, etibar, mehribanlıq, səmimiyyət, diqqət və alama bu ailələrə yad olur. Ər və arvad bir-birinin əsəbləri ilə oynayar, acı sözlərlə bir-birini təhqir edir, chyamla danışır, bir-birinə tez-tez söz atırlar. Ər və arvad bir-birinə inanmır, etibar etmirlər, təbiiki, asudə vaxtlarını nəinki bir yerdə keçirmir, hətta bir damın altında bir yerdə olmaq belə onları haldan çıxarır və darıxdırır. Belə şəraitdə uşaqlar hədsiz əziyyət və fikir çəkir, gizli və açıq göz yaşları tökür, öz valideynlərinə görə xəcalət hissi keçirirlər. Psixoloqlara görə, ailənin xoşbəxtliyi üçün bir sıra şərtlərin olması lazımdır.

Buraya daxildir: bir-biri üçün yaşamaq, xoş ünsiyyət, qarşılıqlı anlama, qarşılıqlı etibar, güzəştə getməyi bacarmaq, uşaqların olması arzusu, normal intim həyat, ayrıca EVİN, MƏNZİLİN olması və s. Diqqət yetirdinizsə ev, mənzil sözlərini böyük hərflərlə yazdıq. Burada söhbət yaşayış sahəsindən deyil, ailə münasibətlərini özhərarəti ilə isidən ev-eşikdən gedir. Mövcud ədəbiyyatda ailənin başlıca tiplərini başqa cür də təsnif edirlər:

*ənənəvi (və ya patriarxal) ailə;

*ənənəyə söykənən müasir ailə;

*eqalitar ailə ("bərabər münasibətlər" ailəsi).

Ənənəvi ailə tipi bir çox ölkələr üçün səciyyəvidir. MDB-yə daxil olan ölkələrdə, o cümlədən Azərbaycanda əhalinin sosial-demoqrafik strukturundakı dəyişikliklərə baxmayaraq, bu ailə tipi öz mövcudluğunu saxlamışdır. Azərbaycan ailələri arasında ənənəvi ailələr daha çoxdur. Bu ailə tipinin əsas xüsusiyyəti ondan ibarətdir ki, onlar özündə ən azı üç nəslin nümayəndələrini birləşdirir. Bu ailələrdə qadın-kişi və yaxud ər-arvad münasibətlərində ənənəyə söykənən daimi öhdəliklər və ya dəqiq "vəzifə bölgüsü" mövcuddur. Burada kişi ailənin başçısı vəzifəsini yerinə yetirir, ailənin mövcudluğu, təminatı, rifahı və tərəqqisi naminə cavabdehliyi öz üzərinə götürür. Bu səbəbdən qadın bir sıra hallarda iqtisadi baxımdan həyat yoldaşından asılı vəziyyətə düşür, lakin bunun əvəzində özünü ailə səhabəsi, öz evinin xanımı kimi görür və buna görə fərəh hissi keçirir.

Ənənəyə söykənən müasir ailələrdə də kişi nüfuzunun böyük rolu vardır.

Bu ailədə də vəzifə bölgüsü aparılır. Fəqət həmin bölgə əksər hallarda sosial-iqtisadi motivlərə əsaslanır. Belə olan təqdirdə arvad öz əri ilə birlikdə əmək bölgüsündə yaxından iştirak edir, eyni zamanda bu və ya digər müəssisədə, təşkilatda, zavodda və s. çalışır, ailənin təminatında onun da öz payı olur. Bundan başqa, qadın çox zaman ev əməyi və bir sıra məişət problemləri ilə məşğul olmaq məcburiyyətində qalır. Ona görədir ki, bu ailə tipinə istismarçı ailə tipi də deyirlər. Eqalitar ailədə və ya "bərabər münasibətlər" ailəsində ailə vəzifələri və öhdəliklər daha dəqiq və ədalətli şəkildə bölüşdürülür. Ər-arvad probleminin həllində bir-birinə yaxından kömək göstərir.Ailənin problemləri və həyatı ilə əlaqədar qərarları birlikdə məsləhətləşmə və qarşılıqlı anlaşma şəraitində qəbul edirlər.

**Gənc ailənin xüsusiyyətləri**

Ailə həyatında əsas etibarilə üç dövr diqqəti cəlb edir: a) kiçik ər-arvadlıq yaş dövrü; b) orta ər-arvadlıq yaş dövrü; c) böyük ər-ar vadlıq yaş dövrü.

Kiçik ər-arvadlıq yaş dövrünə ər-arvadlığın başlanğıc mərhələsi daxildir. Bu dövrdə hələ ailədə uşaq yoxdur, nikah bağlanmış, toy olmuş, iki sevgili bir-birinə qovuşmuşdur.

Ailənin yaranması insanın həyatında ən əlamətdar hadisədir. Gənc ər-arvad, hər şeydən əvvəl ailənin möhkəm təməl üzərində qərar tutmasına çalışmalıdır. Xalqımızın gözəl bir adəti var: toy günü gənc ailənin yaşayacağı otağın qapısı ağzında qab sındırılır. Qabın sındırılması o deməkdir ki, təki sınan boşqab olsun, təzə yaranan ailədə başqa sınıqlıq, o cümlədən qəlb sınıqlığı olmasın. Qızın gəlin köçərkən gətirdiyi güzgü də rəmzi məna daşıyır. Güzgü təmizlik, paklıq, sədaqət və ismət deməkdir ("Qızımız bu güzgü kimi təmiz, bakirədir").

Nikahdan əvvəlki dövrlə ər-arvadlığın başlanğıc dövrü arasında muhüm fərq vardır. Toy gününədək gənclər öz aralarında intim məsafə saxlayırdılar. Bir-birlərini sevir, bir-birlərindən ötrü darıxır, tez-tez görüşməyə can atırdılar. Lakin həmişə bir yerdə ola bilməzdilər. Hələ ailə qurmamışdılar, nişanlı idilər. Onlar nişanlılıq dövrünün qayda-qanununu gözləməliydilər. Bu dövrlə toy arasındakı dövr onların məhəbbətinin sınaq dövrü sayılır. Ona görə də birlikdə olanda son dərəcə nəzakətli davranır, bir-birinin xətrinə dəymir. necə deyərlər, "can deyib, can eşidirdilər".

Toydan sonra isə vəziyyət dəyişir. Gənclər görüş üçün tələsmirlər, çünki artıq bir yerdədirlər. Dilimizdə ər-arvadları səciyyələndirən bir çox gözəl sözlər vardır: ömür-gün yoldaşı, həyat yoldaşı və s. Demək, sevəndə, nikah bağlayanda, evlənəndə fikirləşmək lazımdır ki, ömrün boyu həyatda sənə yoldaşlıq edəcək adamı seçirsən və artıq seçmisən. Ailədə isə bütün ömür boyu hayat etmək çətindir. Bir çoxları bu yolu axıra qədər qət edə bilmirlər. Birgəyaşayış şəraitində bəzi gənclərin xarakterlərindəki kəm-kəsirlər meydana çıxır. Onların bir qismi keçmişdə olduğu kimi qadına qulluqçu, dayə kimi yanaşır, evdə özünü təkəbbürlü apararaq heç nədən qanı qaralıq salır, gənc qadının xətrinə dəyir, onun həmişə öz ərinin qulluğunda durmasını, vaxtlı-vaxtında çayını, xörəyini süfrəyə gətirməsini, pal-paltarını yuyub ütüləməsini təkidlə tələb edir. Belələri

hətta hazarlığı da arvadının öhdəsinə buraxır. Əgər arvad: «Əlimdə işim var, dur özünə çay süz" desə bu, əri haldan çıxarar, "Özümçün çay şüzən idim, daha niyə evlənirdim?!"

Əlbəttə, ailə həyatına belə yanaşmaq düzgün deyildir.

Bəzən isə əksinə olur. Gənc arvad qız vaxtından evdə hər işi hazır görüb, anası yeməyini bişirib, paltarını yuyub, sərib, ütüləyib, yatağını yığışdırıb, ayaqqabılarını təmizləyib. Qız, ər evinə hazırlıqsız gəlib, ailədə öz vəzifələrini yerinə yetirə bilmir və yaxud yetirmək istəmir. Mənzildə səliqəsizlik hökm sürür, tavanın künclərindən hörümçək torları sallanır... Gənc qadın isə gününü divanda uzanıb kitab oxumaq və yatmaqla keçirir.

Gənc qadın ərinin haqlı tələblərinə əhəmiyyət vermir, onun nüfuzunu gözləmir, yerli-yersiz ona irad tutur. Səmimiyyət, mehribanlıq olmayan yerdə isə ailənin ömrü qısalır. Hər xırda məsələ üstündə ər-arvad arasında münaqişə qopur, heç kim digərinə güzəştə getmək istəmir. Gənc ailənin həyatında belə hallara yol verilməsi xoşagəlməz nəticələrə gətirib çıxarır.

Boşanma halları çox vaxt gənc ailələrdə, kiçik ər-arvadlıq yapı dövründə baş verir. Bundan necə yaxa qurtarmalı? Əlbəttə, ilk növbədə səbrli olmaq lazımdır. Aşağıdakı hadisəyə diqqət edək. Gənc qadının qardaşının ad günü olmalıdır. O, ərini hədiyyə dalınca göndərir. Sonra onlar gül də alıb birlikdə təbrik etməyə yollanırlar. Məclis çox gözəl keçir, onlar da öz hədiyyələrini təqdim edirlər. Bir neçə ay keçir. Bu dəfə gənc ərin ad günü olur. Qadın öz ərini təbrik edir. Ər isə ürəyində inciyir. Nə qayınanası, nə də qayını onu təbrik etmir. Qanı qaralsa da, bunu açıb-ağartmır, arvadının üzünə vurmur. Bir neçə gün sonra qadının anasıgilə getməli olurlar. Bu gənc ərin ürəyindən olmasa da, yenə etiraz etmir. Onları xoş üzlə qarşılayır. lar. Hiss olunur ki, qabaqcadan bu günə hazırlıq görülüb. Gənc əri ad günü münasibətilə səmimi təbrik edib ona ürəyinə yatan hədiyyə bağışlayırlar. Demə, ad günü olan gün onlar qonşu rayonda imişlər. Yolda maşın xarab olub və evə gec qayıdıblar. Fikirləşirlər ki, onsuz da hər həftənin şənbə günü gənc ər-arvad (qız və kürəkən) onlara baş çəkməyə gəlir. Onda təbrik edərlər.

Gəlin fikir yürüdək: əgər gənc ər hövsələsizlik edib öz arvad na tənə vursaydı: "Gördün də ananın, qardaşının mərifətini, quru sözlə də ad günümü təbrik etmədilər" desə idi, söz yox ki, həyat yoldaşının qəlbinə dəyəcək, gənc qadın ona əziz olan adamların ünvanına deyilmiş tənəli sözlərdən acıqlanıb ərinə cavab qaytaracaq, arvad öz anasını, qardaşını qınayacaq, onlardan inciyəcək, zəng lisababini öyrənmədən bəlkə də onları acılayacaqdı. Beləliklə, bu inciklik gənc ailənin çərçivəsindən çıxıb o biri ailənin daxilinə nüfuz edəcəkdi.

Deməli, gənc ər öz hisslərini gizlətməkdə düzgün hərəkət etmiş, nəticədə bihudə yerə münasibətlərin pozulmasına, ixtilafların aranmasına yol verməmişdir. Yaxud, ailədə həmişə səliqəsizlik hökü sürür. Buna bais ərdir. Götürdüyü şeyi heç vaxt yerinə qoymur. Nəticədə həmin şey lazım olanda ər də, arvad da baxmadıqları, axtarmadıqları yer qalmır. Nəhayət, əldən-dildən düşəndən sonra tapırlar. Gənc ər paltarını soyunanda onların hərəsini bir stulun başına atır, ayaqqabının biri dəhlizdə, digəri vanna otağında olur. Arvad hər dəfə onları səliqəyə salır, paltarları şifonerdə yerləşdirir. Bir də baxır ki, fincan stolun, nəlbəki televizorun üstündədir. Əlbəttə, nəhayət belə hal onu əsəbləşdirir. Lakin kəskin münasibət kəskin münasibətə səbəb olur.

Bunu isə heç də hər bir gənc ər-arvad bilmir. Atalar demişkən, "Acıqlı başda ağıl olmaz". Qadın ərinə irad tutmazdan əvvəl gərək hövsələsini basıb fikirləşə: "Belə bir vəziyyətdə tutmağımdan kar aşacaqmı? Əlbəttə, yox. Ağıllı ər ola bilsin ki, zarafata salıb onun acığını soyudar və səliqə-səhmana fikir verər. Təbii ki, əgər o kəmhövsələ deyilsə. Bəs özünü təbəkkürlü aparan ər necə? O, arvadının acıqla söylədiyi sözlərə dözməyib cavab qaytaracaq. Ona görə də susub xoş məqam gözləməli və fürsətdən istifadə edib bütün bunları eyhamla, yarıciddi, yarızarafat ərinə başa salmalıdır. Yalnız və yalnız hər ikisinin əhvalı xoş olanda. Gənc ər-arvad bir-birinin nöqsanını söyləyərkən heç də şəxsiyyətlərini təhqir etməməlidir. Ailədə birinin digərini təhqir etməsi milli əxlaqımıza yabançı sifətdir.

Yeni qurulmuş ailə çox vaxt maddi çətinliklərlə üzləşir. Gənc ər-arvad əvvəllər ailənin büdcəsini planlaşdıra bilmir və beləliklə, çıxar gəlirdən daha çox olur, məcburiyyət qarşısında qalıb valideynlərindən pul istəyirlər. Lakin tədricən hər şey qaydasına düşür. Ər- arvad nəinki maaşı çatdırır, hətta qənaət edib bir qədər pul toplayır və həmin pula ev üçün, özləri üçün zəruri şeylər alırlar.

Nümunəyə müraciət edək. Olmuş hadisədir. Toy ərəfəsində gəlin üçün plaş va paltodan savayı, demək olar ki, hər şey alınmayıb.  Oglan evi tovdan sonra plaş və paltonu da alacağını vəd etmişdi. Nəhayət, gənclər ailə qurdular. Oğlan evinin toya xeyli xərci çıxmşdı. Hatta borc da götürmüşdülər. Gəlin üçün plaş alındı, imkansızlıq ucbatından palto almaq mümkün olmadı. Qış yaxınlaşırdı. Gənc ər narahatçılıq keçirirdi: "Bəs qarda, şaxtalı havalarda arvad nə geyinəcək?" Gənc qadın ərinin narahatçılığını başa düşüb ona təskinlik verdi: "Nə olar, paltosuz deyiləm ki. Keçən il geydiyim (yəni atam evində olarkən geydiyi) palto hələ köhnəlməyib onu geyərəm , imkanımız olanda təzəsini alarıq. Gör nəyə görə qanını qaraldırsan.”

Arvadının başqa cür deyil, məhz gözlə düşünməsi, şübhəsiz gənci sevindirdi, həyat yoldaşını onun gözündə ucaltdı. Gəlin qışı həmin paltoda keçirtdi. Oğlan bir qədər qənaət edib növbəti qşa arvadı üçün onun könlünə yatan palto aldı. Gənc qadın, bəziləri kimi başqa cür də hərəkət edə, ərinin iki ayağını bir başmağa dürtüb onu palto almağa (əlbəttə, borc pul götürməklə) məcbur edə bilərdi. Bu vaxt isə müxtəlif bəhanələr gətirərdi: "Axı ayıbdır, köhnə palto ilə qızlıq vaxtında geydiyimlə rəfiqələrimin arasına necə çıxım? Deməzlərmi ki, ərinin bir palto almağa da gücü çatmır?"

O, şübhəsiz, belə də edə bilərdi. Ər də borca düşüb palto alardı. Lakin onun ürəyi sınardı. Bu isə onlar arasındakı qarşılıqlı münasibətlərin saflığına xələl gətirərdi. Gənc ər sonralar deyirdi: "Hayat yoldaşım gözümdə qat-qat ucaldı. Mən qət etdim ki, gələn ilə kimi hökmən ona palto alacağam. Özü də öz zəhmətimlə, heç kim dən borc almadan. Qənaət edib yığdığım pullar artdıqca sevincimin həddi-hüdudu olmurdu".

Yeni ailə quranlar heç də yalnız çətinliklər, ağır gün haqqında fikirlərlə özlərini yormasınlar. Bütün bunlar müvəqqəti və keçicidir. Atalar demişkən, "Yaman günün ömrü az olar".

Gənc ər-arvad bir-birinə münasibətdə həssas və diqqətli olmalı, qayğı göstərməlidir. Onlardan biri bikef olanda digəri bunun səbəbini öyrənməli, mümkün qədər bu bikefliyi aradan qaldırmağa

çalışmalıdır. Əlbəttə bu vaxt nəvaziş göstərmək, xoş sözlər işlətmək vacibdir. Bayramlarda, ad günlərində gənc ər-arvad bir-birlərini təbrik etməlidir. Əlamətdar hadisələrlə əlaqədar olaraq kişi qadınına gül-çiçək dəstəsi təqdim edir, özünün insanlıq, ərlik vəzifəsini yerinə yetirir, ut edir ki, həyat yoldaşını yenə də əvvəlki kimi sevir. bununla sübut edir ki, həyat yoldaşını yenə də əvvəlki kimi sevir.

Hazırda ərlə arvad arasında ixtilaf bəzən kimin ailə başçısı olması haqqında söhbətdən irəli gəlir. Ölkəmizdə ailənin başçısı əsasən kişidir. Əgər vaxtilə, uzaq keçmişdə ərin arvad üzərində hökmranlığı həm iqtisadi sistemlə, xalq adət və ənənələri ilə, həm də qanun yolu ilə möhkəmləndirilirdisə, hazırda nə ölkəmizin Əsas Qanununda- Konstitusiyasında, nə də Respublikamızın "Ailə məcəlləsində" ailə başçısı məsələsinə toxunulmur. Çünki ər və arvad ailə münasibətlərində və uşaqların tərbiyəsində eyni hüquqlara malikdirlər. Bir də, mahiyyət etibarilə, söhbət kimin ailə başçısı olmasından onun möhkəmliyindən və bir sıra başqa cəhətlərindən getməlidir.

Ailə başçısı məsələsi münasibətlərin mənəvi xarakterini müyyənləşdirir. Gənc ailələrin bəzilərində kişi və qadın öz funksiyalarını eyni səviyyədə yerinə yetirilər, Paltar yumaq, xörək bişirala döşəməni silmək, mebelləri qaydaya salmaq, bazara və mağazaya getmək və s. ilk baxışda əhəmiyyətsiz və xırda iş kimi görünür. Gənc ər-arvad bəzən həmin işlərin görülməsi ilə ailə həyatı münasibətləri arasında sıx əlaqə olduğunu başa düşmürlər. Əslində isə bütün bunlar ər-arvad məhəbbətinin inkişafına və möhkəmlənməsinə güclü təsir göstərir, ailə münasibətlərini tənzimləyir.

Ailədə bütün işlər qadının öhdəsinə buraxıldıqda o həddsiz yorulur və ona kömək etmədiyi üçün ərindən inciyir, ona acığı tutur. Nəticə etibarilə bu, ailə həyatının mənəvi və emosional baxımdan təmin olunmasına maneçilik törədir. Ailədə hər işin, o cümlədən fiziki qüvvə tələb edən işlərin qadının öhdəsinə buraxılması onu vaxtından əvvəl qocaldır. Qadın gözəlliyini qorumaq, onun həmişə təravətli və şux olmasını təmin etmək kişilərin borcudur. Axı gözəllik qayğı sevir, qayğı olmayan yerdə gözəllik də solub gedir. Ailədə bütün təsərrüfat işlərinin yalnız kişinin üzərinə qoymaq da doğru deyildir. Ər-arvad bütün işləri əlbir şəraitdə yerinə yetirməlidirlər. Kişi qadının ağır zəhmət tələb edən işləri görməsinə razı olmamalı ona kömək göstərməlidir.

Təsərrüfat işləri planlaşdırılarkən asudə vaxt da nəzərə almalıdır.

Gənclərin bir qismi evləndikdən sonra valideynləri ilə birlikdə yaşayır. Bu, istər-istəməz ər-arvaddan, həm də yaşlı nəsildən bir, təmkin, eləcə də qayğı və nəvaziş tələb edir. Oğul, hər şeydən əvvəl ata-anası ilə arvadı arasında yaxşı münasibətin bərqərar olmasına çalışmalıdır. O özü valideynlərinin hörmətini saxlamalı, onların ağıllı məsləhətlərini eşitməli, onların qayğısına qalmalı, vaxtlı-vaxtında əhvallarını soruşmalıdır. Belə münasibət gəlinə də sirayət edir. O da qayınatasının və qayınanasının hörmətini saxlayır, onları ata-ana gözündə görür. Əgər oğul valideynlərini saymır və onların qayğısına qalmırsa, söz yox ki, gəlindən bunu gözləmək mənasızdır.

Gəlin ailənin üzvü kimi özünü aparmalıdır. O elə davranmalıdır ki, hamının sevimlisi olsun, hər xırda iş üstündə ailəyə söz-söhbət, narazılıq salmasın, qocaları incitməsin. Aşıq Ələsgər deyir: "Can deməklə candan can əskik olmaz".

Yaşlılar da cavanların yaxın məsləhətçiləri olmalı, gənc ailənin daxili işlərinə qarışmamalı, əksinə, gənc ər-arvad arasında söz-söhbət baş qaldıranda onları sakitləşdirməlidirlər.

Orta ər-arvadlıq yaşı dövründə valideynlər, əsasən, övladlarını böyütmək qayğısına qalır, onların təlim və tərbiyəsi ilə məşğul olurlar. Elə ki uşaqlar böyüyür, təhsil alır, ailə qururlar, yavaş-yavaş evini tərk edirlər, böyük ər-arvadlıq yaşı dövrü başlayır. Bu dövrdə artıq müəyyən həyat təcrübəsi qazanmış ər-arvad keçdikləri yola nəzər salır, çətinlikləri, uğurları yada salırlar. Hər şey arxada qalmışdır. Ər və arvad ötüb-keçən illərdə mənalı izlər qoymuşlarsa, həm illərə görə fərəh hissi keçirirlər. Artıq onlar gəlin gətirmişlər, qızlar ərə getmişdir. Nəvələr, nəticələr, kötücələr dövrələrində atılıb-düşür, oynayırlar. Həyat davam edir. Onlara da qayğı göstərmək lazımdır. İndi onların ürəyində nəvə, nəticə, kötücə toyu keçir. Bəli, yaşamağa dəyər!

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI


1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun “Xəbərlər” jurnalı, №4, 2008, s.41-44.

**Mühazirə 6: Ailə tərbiyəsinin pedaqoji prinsipləri**

**PLAN:**

**1.Ailə tərbiyəsinə verilən pedaqoji tələblər**

**2.Ailə tərbiyəsinin əsas pedaqoji prinsipləri**

**3.Ailə tərbiyəsində pedaqoji prinsiplərin vəhdəti**

Valideynlər uşağa iş tapşıranda, ona böyüklərlə, özündən kiçiklərlə davranış və rəftar qaydalarını öyrədərkən, dərslərini hazırlamaqda ona kömək göstərərkən, yaxşı əməlinə görə onu rəğbətləndirərkən, bu və ya digər xoşagəlməz hərəkətə görə onu cəzalandırmaq istəyərkən

müəyyən tələbləri, rəhbər müddəaları əsas götürür. Həmin tələb və müddəalar bir deyil, bir neçədir. Pedaqoji ədəbiyyatda onlar prinsiplər adlanır: ailə tərbiyəsinin prinsipləri.

Ailə tərbiyəsinin prinsipləri dedikdə, ailədə tərbiyə prosesinin təşkilinin məzmunu, metod və formalarını müəyyənləşdirən rəhbər müddəalar başa düşülməlidir. Valideyn həmin tələbləri öz fəaliyyətində əsas götürür.

Bu və ya digər prinsip konkret şəraitdə və situasiyalarda ayrı- ayrı uşaqlara yanaşma tərzini, fəaliyyətin ümumi istiqamətini göstərir.

Ailə tərbiyəsinin aşağıdakı əsas prinsipləri qeyd oluna bilər:

1.Tərbiyədə məqsəd aydınlığı.

2. Tərbiyə işinin həyatla, əməklə və Azərbaycan Respublikasının quruculuğu ilə əlaqələndirilməsi.

3. Yaşauyğunluq.

4. Ailə tərbiyəsinin humanistyönlülük prinsipi.

5. Təbiətəmüvafiqlik prinsipi.

6. Mədəniyyətəmüvafiq tərbiyə prinsipi.

7. Fərdi xüsusiyyətlərin nəzərə alınması.

8. Tərbiyədə sistemlilik, ardıcıllıq və fasiləsizlik.

9. Nikbinlik (uşağın müsbət cəhətlərinə istinadən qüsurlarının aradan qaldırılması).

10. Uşağın şəxsiyyətinə hörmətlə düzgün tələbkarlığın uzlaşdırılması (tərbiyədə hörmət və tələbkarlıq).

11. Tələblərdə vahidliyin gözlənilməsi.

12. Tərbiyə prosesinə kompleks yanaşma.

**Tərbiyədə məqsədaydınlığı prinsipi** uşağın şəxsiyyətinin təşəkkül tapıb formalaşmasında mühüm əhəmiyyət daşıyır. Prinsipin mahiyyəti ondan ibarətdir ki, valideyn tərbiyənin ümumi məqsədini aydın təsəvvür edir, yaxın vəzifələri müəyyənləşdirməyi bacarmalı şüurlu şəkildə, fəal surətdə və təkidlə onları yerinə yetirməyə çalışmış övladının ləyaqətli vətəndaşlar kimi böyüməsində maraqlıdır.

Tərbiyələndirmək kimi mühüm, həyati əhəmiyyətli işdə iki dərəcəli, yaxud əhəmiyyətsiz məsələ yoxdur və ola da bilməz. Bu sahədə görülən tədbirlər məqsədyönlü olmalı, ümumbəşəri və milli dəyərləri əhatə etməli, uşaqları mədəni davranış və nəzakətli rəftar qaydalarına yiyələndirməli, mənəvi hiss, duyğu və şüuru formalaşdırmağa xidmət göstərməlidir.

Haqqında danışılan prinsip ailədə aparılan tərbiyə işinin tərbiyənin məqsədinə uyğun qurulmasını nəzərdə tutur, valideynin aydın perspektivə malik olmasını, qarşısında hansı vəzifələrin dayandığını və onları həyata keçirmək üçün nələrin lazım gəldiyini bilməyi, əldə olunanların təhlilini aparmağı, yol verilmiş nöqsanları görməyi, tərbiyə işində yüksək nəticələr qazanmağı tələb edir.

Məqsəd aydın olmadıqda valideyn öz fəaliyyətində uğur qazana bilməz. Şərqin böyük sənət abidəsi olan "Kəlilə və Dimnə"də yazılmışdır: "Ağıllı adam gərək işin əvvəlində onun sonunun nə ilə qurtaracağını gözünün qabağına gətirə, yola çıxmamış hara gedəcəyini müəyyən edə. Əks halda o, yolun ortasında avara qalar".

Məqsədin aydın başa düşülməsi və yerinə yetirilməsi ailədə uşaqlarla aparılan tərbiyə işlərinin səmərəliliyini artırır.

***Tərbiyə işinin həyatla, əməklə və Azərbaycan Respublikasında dinc quruculuq işləri ilə əlaqələndirilməsi prinsipi.*** Həyatda, cəmiyyətimizdə, ölkənin daxilində və xaricində hər gün çox müxtəlif hadisələr baş verir. Həmin hadisələrin bəziləri bilavasitə, yaxud bilvasitə uşaqların həyatı ilə bağlı olur. Onları sevindirir, yaxud kədərləndirir. Oğlanlar və qızlar həmin hadisələrin bəzilərinin canlı şahidi olur, bir qismindən mətbuat, televiziya və radio, tay-tuşları, ailə üzvləri vasitəsilə xəbər tuturlar. Cəmiyyətin həyatında baş verən dəyişikliklər böyük əhəmiyyətə malikdir.

Ölkəmiz müharibə şəraitindədir. Əhalimizin milyon nəfərdən artığı (təxminən yeddidə bir hissəsi) qaçqın, köçkün, didərgin vəziyyətində yaşayır. İşğal olunmuş torpaqlarımızın azad edilməsi tam ciddiliyi ilə qarşıda dayanır. Vətənin müdafiəsinə hazır olmaq, dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsinə çıxmaq və s. təxirəsalınmaz  vəzifələrdir. Valideyn tərbiyə işləri apararkən, yeri gəldikcə, həyatda baş verən ayrı-ayrı hadisələrlə, ölkəmizdə gedən dinc quruculuq işləri ilə, zəhmət adamları və onların fədakar əməyi ilə uşaqları tanış etmək olar.

Uşaqlar müsbət nümunələr, mütərəqqi adət və ənənələr əsasında tərbiyə almalıdırlar. Lakin həyatdakı mənfiliklər, naqis hallar və onların doğurduğu nəticələrə də diqqət yetirilməlidir ki, onların acı nəticələri uşaqlara məlum olsun.

Tərbiyə işini həyatla əlaqələndirməyi mühüm tələb kimi götürmək, bu prinsipə əsaslanmaq səmərəli nəticələnir. Türkiyə Respublikasının yaradıcısı və öndəri Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" devizinin mahiyyətini uşaqlara çatdırmaq olar. Biz sülh istəyir, müharibəyə nifrət edirik. Lakin... Vətən təhlükədə olanda ölüm-dirim savaşına atılmaq artıq zərurətə çevrilir.

Tərbiyə işinin həyatla əlaqələndirilməsi ona görə vacibdir ki, gənc nəsil müvafiq mikro və makromühitdə yaşayır, fəaliyyət göstərir. Müəyyən mühitdə yaşayıb onun təsirindən azad olmaq isə mümkünsüzdür.

***Yaşauyğunluq prinsipi.*** Uşaqların yaş dövrlərini tarixən müxtəlif şəkildə təsnif etmişlər. Qurani-Kərimlə tanışlıqdan belə qənaət hasil olur ki, insan doğulandan həyatının sonuna kimi üç

dövrü yaşayır: **1) uşaqlıq; 2) cavanlıq; 3) qocalıq** dövrü. "Rum" surəsində deyilir: "Sizi zəif yaradan, sonra sizə güc verən, sonra sizi zəifldən, qocaldan Allahdır".

Göründüyü kimi, burada üç dövr diqqət mərkəzində dayanır.

Məhəmməd peyğəmbər (s.ə.s.) yaş dövrlərinə münasibətini aşağıdakı şəkildə bildirmişdir: "Uşaq yeddi il ağa, yeddi il vəzir, yeddi il isə quldur". Həzrəti Əlinin qənaətincə, "Uşağı yeddi il azad buraxın, yeddi il ədəb və tərbiyə öyrədin, yeddi il isə işlədin". Məhəmməd peyğəmbər "qul" deyəndə insanın cavanlığını, işə-gücə yararlı olduğu dövrü nəzərdə tuturdu.

Məhəmməd peyğəmbər (s.ə.s.) də, imam Əli də yaş dövrlərinin yeddi-yeddi olmaqla üç dövrünü diqqət mərkəzinə gətirirdilər: a) ilkin uşaqlıq dövrü; b) uşaqlıq dövrü; c) erkən gənclik dövrü nəslin

Bir vaxtlar Aristotel (Ərəstu) gənc olga qorumaq, olmaqla üç dövrə ayırmışdır: 0-7 yaş (bitki dövrü, başqa sözlə, bitkiyə göz qorumaq, qulluq göstərmək vacib olduğu kimi, uşağa da baxılmalı, qayğısını çəkmək lazımdır); 7-14 yaş (hevani dövr, başqa sözlə, uşaqlarda iradi keyfiyyətlərin tərbiyə olunması); 14-21 yaş (insani dövr, başqa sözlə, gənclərin zehni tərbiyəsi qayğısına qalmaq).

Çex pedaqoqu Y.A. Komenski yaş dövrlərini altı-altı olmaqlı dörd dövrə bölmüşdür: 0-6 yaş (ailədə ana məktəbi -- məktəbəqədər ailə tərbiyəsi): 6-12 yaş (hər kənddə və qəsəbədə "ana dili" məktəbi): 12-18 yaş (hər şəhərdə “latın məktəbi”); 18-24 yaş (akademiya - ali məktəb).

Jan Jak Russonun bölgüsü digərlərinkindən fərqlənir:

0-2 yaş - uşağın fiziki tərbiyəsinə diqqət yetirilir.

2-12 yaş - əqli yuxu dövrü. Uşaq guya bu müddət ərzində hələ müstəqil şəkildə fikir söyləmək, mücərrəd anlayışları qavramaq iqtidarında deyil.

12-15 yaş - əqli və əmək tərbiyəsi kimi səciyyələnən dövr.

15 yaş - yetkinlik yaşına qədər olan əxlaq tərbiyəsi dövrü.

Fikrimizcə, hazırda aşağıdakı yaş dövrlərini qeyd etmək lazımdır:

1) Məktəbəqədər yaş dövrü (0-6 yaş); 2) Məktəb yaşı dövrü (6-17 yaş).

Məktəbəqədər yaş dövrü kimi şərti olaraq uşağın anadan olduğu gündən məktəbə gedənə qədərki müddəti götürür və buraya aid edirik: çağalıq dövrü (0,6 yaş), körpəlik dövrü (0,6-2 yaş), erkən uşaqlıq dövrü (2-3 yaş) və məktəbəqədər yaş dövrü (3 yaşdan 6 yaşa qədər). Məktəbəqədər yaş dövrü üç yerə bölünür: kiçik məktəbəqədər yaş (3-4.5 yaş), orta məktəbəqədər yaş (1,5-5,5 yaş), böyük məktəbəqədər yaş dövrü (5,5-6 yaş).

Məktəb yaşı dövrü də üç yerə bölünür: kiçik məktəb yaşı (6-10 yaş), orta məktəb yaşı (10-15 yaş), böyük məktəb yaşı (15-17 yaş).

Göstərilən yaş dövrlərində uşaqların inkişafı üç istiqamətdə gedir: 1) anatomik-fizioloji inkişaf; 2) psixoloji inkişaf; intellektual-mənəvi inkişaf.

Orta məktəb yaşı dövrünü isə ilk gənclik yaşı adlandırırlar. Yeniyetməlik yaşı dövrü də iki yerə ayrılır: kiçik və böyük yeniyetməlik yaşı.

Məktəbəqədər yaşlı kiçik yeniyetmə yaşlı uşağın; böyük yeniyetmə yaşındakı uşaqla ilk gənclik yaşındakı uşağın xarakteri, fərdi xüsusiyyətləri, əqli inkişafının səviyyəsi, dünyagörüşü, hətta anatomik-fizioloji məlumatları və s. eyni deyildir. İbtidai siniflərdə oxuyan fagirdlərin təlim materialı orta və yuxarı siniflərə nisbətən asan olur. Eləcə də kiçik məktəb yaşlı şagirdlərlə müqayisədə orta və böyük yaşlı məktəblilərə daha mürəkkəb tələblər irəli sürülür. Deməli yaş xüsusiyyətləri nəzərə alınır. Konkret şəxsin, o cümlədən uşaqların hər birinə məxsus fərdi xüsusiyyətlər mövcuddur. Həm də müvafiq yaş dövründə bütün məktəblilər üçün eyni dərəcədə səciyyəvi sayılan xüsusiyyətlər də vardır.

**Kiçik məktəb yaşı dövründə (I - IV siniflər)** uşaqlar emosionallıq, tərifi xoşlamaq və bundan ruhlanmaq, böyüklərə, doğmalara, valideynə və müəllimə ehtiram, hörmət və inam bəsləmək, eyni zamanda tez yorulmaq, diqqətdə davamsızlıq, səmimi olmaq və s.-lə seçilirlər. O biri yaş dövrləri ilə müqayisədə 6-11 yaşlı uşaqlar təlimə səyli münasibət, ata-ananın və müəllimin sözünə baxmaq, sinifdənxaric tədbirlərə, əyləncə və bayramlara, gəzintiyə, ekskursiyaya böyük maraq göstərmək, həssaslıq, intizamı gözləmək və həm də tənəffüslərdə dəhlizdə qaçmaq, bir-bir ilə tutaşmaq və s.-lə fərqlənirlər. Valideynin övladları, müəllimin həmin uşaqlarla ünsiyyəti, rəftar və münasibət tərzi onların bir-biri ilə də qarşılıqlı münasibətlərinin xarakterini müəyyənləşdirir. Ata-ananın və müəllimin şəxsi nümunəsinin oğlanlardan və qızlardan ötrü əhəmiyyəti böyükdür. Uşaqlarda özlərini ata-analarına, müəllimlərinə bənzətmək meyli qüvvətli olur.

Bu yaş dövründə uşaqlarda təlimə şüurlu münasibəti, iradi keyfiyyətləri inkişaf etdirib formalaşdırmaq nəticəsində onlar fəallıq, müstəqillik, mütəşəkkillik, təşəbbüskarlıq, öyrənilən mövzulara maraq yaranır. Onlar getdikcə müqayisə və ümumiləşdirmələr aparmaq, müvafiq nəticələrə gələ bilmək bacarıq və vərdişləri inkişaf edir. Bu yaş dövründə uşaqlarda insanlara və təbiətə qayğıkeş münasibət, xeyirxahlıq, vətən sevgisi, böyüyə hörmət, düzlük və doğruçuluq, yoldaşlıq kimi müsbət keyfiyyətləri uğurla inkişaf e dirmək mümkündür.

**Orta məktəb yaşı (V-IX siniflər) dövründə** uşaqlarda orqanizmin bütün sistemi əsasən formalaşır. Anatomik-fizioloji inkişa əsaslı dəyişikliklərlə müşayiət olunur. Bu dəyişikliklər uşaqları psixikasında öz izlərini buraxır. Haqqında danışılan yaş dövrü yeni yetməlik yaşına düşür. Başqa yaş dövrləri ilə müqayisədə yeniyetməlik yaşı özünün ziddiyyətləri ilə seçilir və uşaqlıq dövrü ilə gənclik yaşı dövrü arasında bir növ körpü rolunu oynayır. Uşaqlarda böyüklərə xas əlamətlər meydana gəlir. Yeniyetmələr yaşlıların nümunəsini mexaniki təkrarlamaqdan azad olur, öz hərəkət, davranış və rəftarlarına tənqidi yanaşmağa başlayırlar.

**Böyük məktəb yaşı (X-XI siniflər) dövrünü** bioloji yetişkənliyin başa çatması dövrü kimi səciyyələndirmək mümkündür. Uşaqlar ilk gənclik yaşı dövrünə qədəm qoyurlar. Onlarda təbiətdə və cəmiyyətdə baş verən hadisələrə, insanların qarşılıqlı münasibətlərinin xarakterinə

özündən əvvəlki yaş dövrlərindən fərqli yeni baxışlar sistemi təşəkkül tapır, psixikalarında köklü dəyişikliklər baş verir, maraqları bir tərəfdən dərinləşir, digər tərəfdən fərdiləşir. Onlar müstəqil həyatın astanasında dayandıqları üçün həm də öz gələcəkləri barədə düşünür, öz hisslərini tənzimləməyi və idarə etməyi bacarırlar.

Uşaqlar peşə seçimi edir, valideynləri ilə də məsləhətləşir, müvafiq qərara gəlirlər.

**İlk gənclik yaşında** olan oğlan və qızlar yoldaşlıq və dostluq münasibətlərində daha sabitqədəmdirlər, yoldaşları arasından baxışları, maraqları, əqidələri, xarakterləri uyğun gələn dostlarını müəyyənləşdirirlər. Bəzən bu dostluq illərlə, ömürlərinin sonuna kimi davam edir. Oğlanların və qızların qarşılıqlı münasibətlərində də əsaslı dəyişiklik baş verir. İlk sevgi bu yaş mərhələsində yaranır. Bəziləri qonşular, məhəllə, sinif, yaxud məktəb yoldaşları arasından gələcək ömür-gün yoldaşlarını seçirlər.

Valideynlər, müəllimlər, sinif rəhbərləri onların yoldaşlıq, dostluq, məhəbbət hisslərinə qayğı ilə yanaşmalı, yersiz eyhamlara, sorğu-suallara yol verməməlidirlər.

**Ailə tərbiyəsinin humanistyönlülük prinsipi** - Yan Amos Komenskinin əsərlərində, Jan Jak Russo və Lev Tolstoyun azad tərbiyə nəzəriyyəsində özünün ifadəsini tapır. Haqqında danışılan par Sip valideynin subyekt-subyekt münasibətləri əsasında öz münasibətlərini düzgün qurmağı bacaran övladına müstəqil subyekt kimi yanaşmasını nəzərdə tutur. Bu prinsipdən istifadə şəxsiyyətin təşəkkülünə və onun sosiallaşmasının bütün aspektlərinə müsbət tasir göstərir: Humanistyönlülük prinsipindən faydalanma imkan verir: 1) refleksiya və özünütənzim inkişaf etsin; 2) ətraf aləmə və ətraf aləmlə münasibətlər formalaşa bilsin; 3) Şəxsi ləyaqət hissi təşəkkül tapsın; 4) şərəf hissi inkişaf etsin; 5) məsuliyyət, təmkin formalaşsın və s.

**Təbiətəmüvafiqlik prinsipi** - Yan Amos Komenski hələ XVII əsrdə diqqəti bu prinsipin geniş imkanlarına yönəltmişdir. Onun pedaqogikası təbiətəmüvafiqlik prinsipinə əsaslanırdı. Bu prinsip sonralar, xüsusən VIII-XIX əsrlərdə xüsusilə dəbdə olmuşdur. Hazırda təbiətəmüvafiqlik prinsipi aşağıdakıları nəzərdə tutur: 1) uşağın cinsini və yaşını hesaba almaqla tərbiyələndirmək; 2) təbiətin və insanın inkişafının ümumi qanunlarını əsas götürməklə tərbiyə işlərini qurmaq; 3) təbii və sosial proseslərin qarşılıqlı əlaqəsinin elmi cəhətdən başa düşülməsinə yönəlmə; 4) uşaqda öz-özünün inkişafına görə məsuliyyətin formalaşdırılması.

Təbiətəmüvafiqlik prinsipinə uyğun olaraq, uşaqlarda təbiətə, planetə, biosferə münasibət üzrə müvafiq etikayönümün; həmçinin təbiəti mühafizə və ehtiyatların qorunması üzrə təfəkkürün və davranışın tərbiyə edilməsi lazımdır. Y.A. Komenskinin qənaətincə, "insan təbiətin bir hissəsidir. Ona görə də onun ümumi qanunlarına tabe olmalıdır".

**Mədəniyyətəmüvafiq tərbiyə prinsipi** ingilis pedaqoqu C Lokkun (XVII əsr), fransız mütəfəkkiri Helvetsinin (XVIII əsr) və Avstraliya alimi Henri Pestalotsinin (XIX) əsərlərindən qaynaqlanmışdır. XIX əsrdə Adolf Disterveq bu prinsipi formalaşdırmışdır.

Disterveqə görə, mədəniyyətəmüvafiq tərbiyə prinsipinin mahiyyəti bundan ibarətdir ki “uşağın tərbiyəsində təbii və yaş xüsusiyyətlərindən başqa bir də onun doğulduğu gələcəkdə yaşayacağı

yerin şəraiti, vaxtı nəzərdə tutulmalıdır. Yəni geniş mənada müasir  mədəniyyətin və xüsusilə şagirdin vətəninin mədəniyyətinin naliyyətlərini də nəzərdə tutmalıdır".

Hazırda, yeni pedaqoji təfəkkür şəraitində mədəniyyətəmüvafiq prinsipi o deməkdir ki, tərbiyə mədəniyyətin ümumbəşəri dəyərlərinə əsaslanmalı və bu və ya digər milli mədəniyyətin dəyərlərin və normalarına, səciyyəvi xüsusiyyətlərinə uyğun şəkildə qurulmalı bu və ya digər regionun ənənələrinə uyğun gəlməli, ümumbəşəri dəyərlərə zidd olmamalıdır.

**Fərdi xüsusiyyətlərin nəzərə alınması prinsipi.** Hər bir şəxs özünəməxsus fərdi xüsusiyyətlərə malikdir. Zahiri bənzərlik mümkün olduğu halda, xarakter və xasiyyətcə heç kim bir-birinə oxşamır. Nəsirəddin Tusi yazırdı: "Heç bir surət bir-birinə oxşamadığı kimi, heç bir xasiyyət də başqa xasiyyətə oxşamaz. Ona görə də tərbiyə və təlimdə ehmallıq göstərilsə, hər kəsin cilovu öz təbiətinin ixtiyarına verilsə, o, bütün ömrü boyu hansı xasiyyətdə doğulmuşdursa, elə də qalar".

Odur ki, Tusi valideynlərə məsləhət görürdü ki, öz övladlarının tərbiyəsi ilə yaxından məşğul olsunlar və onlara vicdanlı olmağı öyrətsinlər.

Ailə tərbiyəsində fərdi fərqləri hesaba almaqla səmərəli nəticələr qazanmaq olar.

Fərdi fərqlər temperamentin tiplərindən irəli gəlir. **Psixoloqlar dörd temperament tipini göstərirlər: xolerik, sanqvinik, fleqmatik, melanxolik.**

Hippokrat (e.3. 460-377) temperamenti qan, öd, qara öd və semuli bədəndəki nisbəti ilə, alman psixiatrı E. Kreçmer, amerikalı U. Şeldon və S.Stivens insan bədəninin quruluşu ilə əlaqələndirilirsə, İ.P.Pavlov ali sinir fəaliyyətinin tipləri ilə aydınlaşdırırdı.

**Mövcud ədəbiyyatda temperament tipləri xassələrinə görə aşağıdakı şəkildə səciyyələndirirlər: sangvinik - zirək, fleqmatiq sakit, xolerik - coşqun, melanxolik - zəif tip.**

**Xolerik tipə** xas əlamətlər bunlardır: bir yerdə qərar tuta bilməyən, narahat; hövsələsiz, təşəbbüskar, qətiyyətli, kobud, inadkar, hazırcavab, risk edən, kinsiz, tez özündən çıxan, məqsədə çatmaq yolunda inadkar, əhvalı tez dəyişən və s.

**Sanqvinik tip** üçün səciyyəvidir: gümrah, şən və işgüzar olma; başladığı işi bəzən axıra çatdırmayan; özünü lazım olandan çox qiymətləndirən, uğursuzluqdan tez təsirlənən; şəraitə uyğunlaşmağı bacaran; hər hansı bir işə girişib həmin işdən başqasına keçən, həmişə gümrah əhval-ruhiyyədə olmaq və s.

**Fleqmatik temperament tipinə** məxsus əlamətlər: ehtiyatlı və ağıllı olmaq, soyuqqanlılıq; qaradinməzlik; səliqəlilik və intizamı xoşlamaq; təmkinlilik; boş-boş danışmağı xoşlamamaq; gün rejimini ciddi gözləmək; hamıya eyni cür yanaşma; yeni şəraitə gec alışmaq, hisslərini cilovlaya bilmək və s.

**Melanxolik tip** üçün səciyyəvidir: hər şeyi ürəyinə salmaq, həssaslıq, utancaqlıq, yeni şəraitdə özünü itirmək; yeni tanış olduğu şəxslərlə ünsiyyətə girməkdə çətinlik; tənhalığı xoşlamaq; küsəyənlik; təsir altına tez düşmək; özünə, həm də başqalarına tələbkar yanaşmaq və s.

Valideyn uşağın fərdi fərqlərini öyrənib, həmin fərdi fərqləri nəzərə almaqla tərbiyə işlərini qurmursa, təbii ki, öz tərbiyəetmə fəaliyyətində çətinliklərlə qarşılaşacaqdır. Hər bir uşağın, hər bir qızın və oğlanın fərdi xüsusiyyətlərini bilmək və həmin xüsusiyyətləri hesaba almaq tərbiyə prosesində müvəffəqiyyətin rəhnidir.

**Tərbiyədə sistemlilik, ardıcıllıq və fasiləsizlik prinsipi.** Uşağın hərtərəfli və ahəngdar inkişafına tərbiyə vasitəsilə nail olunur. Lakin istənilən fəaliyyət sistemli şəkildə aparıldıqda, ardıcıllıq gözlənildikdə səmərəli nəticələr qazanılır. Valideyn övladları ilə qarşılıqlı münasibətlərdə konkret tərbiyəvi vəzifələri yerinə yetirir. Bu vəzifələr bir-biri ilə sıx surətdə bağlıdır. Tərbiyənin tərkib hissələri komponentləri, istiqamətləri arasında əlaqə gözlənilməlidir. Ardıcıllıq bu əlaqələrin mütəmadi şəkildə bir-birini izləməsini nəzərdə tutur. Ailədə aparılan sistemli tərbiyə işləri, məktəbdə təlim prosesində, tənəffüslərdə, təhsilalanların asudə vaxtlarında davam etdirilməli, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə daha da inkişaf etdirilib möhkəmləndirilməlidir.

Tərbiyə işi sürəkli, uzunmüddətli bir prosesdir. Ona görə fasilələri xoşlamır. Bir də görürsən ki, valideyn müəyyən müddət tərbiyə ilə ciddi məşğul olur, övladlarının davranış, rəftar və ünsiyyət tərzinə, qardaş-bacıları, məktəb, sinif və məhəllə yoldaşları ilə onların qarşılıqlı münasibətlərinin xarakterinə diqqət yetirir. Bu zaman müvafiq tələblər irəli sürür, tapşırıqlar verir, onların özfəaliyyəti, müstəqilliyi, təşəbbüskarlığı qayğısına qalır. Sonra birdən-birə sanki ciddiliyi, tələbkarlığı azalır, tərbiyə işinə fikir vermir. Tez-tez güzəştə gedir. Tələb irəli sürür, lakin ehtiyac olmadan güzəştə gedir, uşağı bağışlayır, "yazığı gəlir", "halına acıyır". Tapşırıq verir, onun necə yerinə yetirildiyini və ümumiyyətlə, yerinə yetirilib-yetirilmədiyini yoxlamır. Və yaxud, xeyli vaxt keçdikdən sonra yadına düşür ki, oğluna nə isə tapşırmışdı. İcranın vəziyyətindən xəbər tutmaq istəyəndə məlum olur ki, atanın (ananın) maraqlanmadığını görən uşaq tapşırılan işi yerinə yetirməmişdir. Yaxud valideyn vəd verir ("Sizi konsertə aparacağam" və s.), lakin ona əməl etmir. Təbii ki, bu, uşağın diqqətindən yayınmır, onu arxayınlaşdırır. O da əvvəlki kimi öz davranış və rəftarına fikir vermir.

Deməli, tərbiyədə fasilə yaranmışdır. Tərbiyə prosesi isə bu fasiləni xoşlamır.

Başqa hallara da təsadüf olunur. Valideyn xoşagəlməz hərəkətinə görə uşağı cəzalandıracağını bildirir, lakin dediyini unudur. Uşaq cəzasız qalır. Belə vəziyyət bir neçə dəfə təkrar olunur. Uşaq atanın (ananın) sözünün söz olaraq qalacağı qənaətinə gəlir. Beləliklə, valideyn özü öz sözünün təsirini aşağı salır. Uşaq isə onun dediklərinə laqeyd yanaşır.

Tərbiyədə sistem, ardıcıllıq pozulur. Bu isə yolverilməzdir.

**Nikbinlik prinsipi** uşağın yaxşı keyfiyyətlərini əsas götürmək, onun qabiliyyət və bacarığını, istedadını qiymətləndirməklə, mənfi cəhətlərini aradan qaldırmağı nəzərdə tutur. Uşaqlar arasında

elələri vardır ki, ailədəki yanlış tərbiyə, məhəllə mühitinin pozucu təsiri altında özünü yaxşı savaşır, özündən kiçikləri incidir, həmyaşıdları ilə kobud davranır, savaşır, məktəbdə dərsə mane olur, söyüş söyür, intizamı pozur, məşğələlərdən qaçır.

Valideynlər bəzən bu yeniyetmələrlə ehtiyatlı davranmaq əvəzinə, onlarla ixtilafa girir, kobud davranır, üstlərinə qışqırır, və onları döyürlər.

Bu kimi hallar isə, valideyn-övlad münasibətlərini çətinləşdirir. Bir sıra hallarda sözəbaxmaz, düzəlməz saydıqları bu yenişdi mələrdən əllərini üzür, onların tərbiyə olunmasının qeyri-mümkünlüyü barədə bədbin əhval-ruhiyyəyə qapılırlar. Nikbinlik prinsipi yeniyetməyə münasibətdə nikbin olmağı, bu sahədə bədbinliyə qapılmamağı tələb edir.

Pedaqoji prosesdə nikbin olmaq nəyi nəzərdə tutur? Heç kim anadan nümunəvi, intizamlı, bilikli, başqa sözlə, ən yaxşı mənəvi keyfiyyətlərə yiyələnmiş şəkildə və yaxud intizamsız, mənfi keyfiyyətlərlə doğulmur. Uşağın xarakteri düşdüyü mühitin, aldığı tərbiyənin təsiri nəticəsində formalaşır. Lakin uşaq və yeniyetmə şəxsiyyətinin hansı şəkildə təşəkkül tapmasından asılı olmayaraq, onu müsbət pedaqoji təsirlərlə əhatə etmək mümkündür. Hətta nümunəvi  sandığımız uşaq və yeniyetmənin xarakterində də xoşagəlməz cəhətlər (təkəbbürlük, lovğalıq, xudpəsəndlik və s.) olur. Lakin onun uğurlarının fonunda böyüklər bu cəhətlərə fikir vermirlər. Əslində bunlar valideynin diqqətindən yayınmamalıdır.

İntizamsız, yaxşı oxumayan, mənfi davranışı və mənfi keyfiyyətləri ilə başqalarında narahatçılıq doğuran yeniyetmələrə gəldikdə isə, onları gözdən salmaq lazım deyildir. Tərbiyədə “nikbinlik prinsipi"nə "uşağın müsbət keyfiyyətlərinə istinad etməklə ondakı qüsurların aradan qaldırılması prinsipi" də deyirlər. Elə bir insan tapmaq olmaz ki, o, yalnız bütün mənfi keyfiyyətləri özündə cəmləşdirsin. Həyatda diqqət mərkəzində olmayan, yaxşı oxumayan, hansısa işi, hərəkəti ilə fərqlənməyən şəxslər bəzən ekstremal şəraitlərdə də elə elə mərdlik nümunəsi göstərirlər ki, yaxşı insan sandığımız bəziləri belə vəziyyətlərdə sadəcə seyrçi kimi dayanıb baxır, yaxudı üzlərini çevirib keçirlər.

Valideyn və müəllimlər "yolagəlməz”, “düzəlməz”, “çətin "tərbiyəsiz hesab etdiyi övladına nikbin nəzərlə baxdıqda, onun da yola gələcəyinə, düzələcəyinə, tərbiyəli və nümunəvi olacağım inandıqda və bu istiqamətdə fəaliyyət göstərdikdə müsbət nəticələ əldə edirlər.

Deməli, çalışmaq, səy göstərmək, çətinliklərdən qorxmamaq lazımdır.

Yeniyetmələr hərtərəfli öyrənilməlidir. Bu zaman mənfi keyfiyyətləri ilə bərabər onların müsbət tərəfləri də (mərddir, qorxmazdır, cəsurdur, qüvvətlidir, yaxşı idmançıdır, foto ilə, rəsmlə məşğul olur, yaxşı səsə malikdir, tarda, qarmonda ifa edir və s.) aşkara çıxacaqdır. Onların istedad və qabiliyyətləri nəzərə alındıqda rəğbətləndirdikdə müsbət nəticələrə nail olunur.

**Uşağın şəxsiyyətinə hörmətlə düzgün tələbkarlığın uzlaşdırılması (tərbiyədə hörmət və tələbkarlıq) prinsipi.** Məhəllədə futbol oynayarkən uşaq qonşunun pəncərə şüşəsini sındırmışdır. Oğlan savaşmışdır. Valideyn nə etməlidir? Bir də görürsən ki, ata, yaxud ana uşağın üstünə

qışqırır, onu təhqir edir. "Heyvan", "yaramaz", "axmaq", "tərbiyəsiz", "intizamsız və s. bu kimi sözlərlə onun şəxsiyyətini alçaldır. Hətta uşağa əl qaldıran valideynlər də var.

Uşaqdan cəmiyyətdə mövcud olan etik normaları yerinə yetirməyi, düzgün davranmağı, intizamı gözləməyi tələb etmək lazımdır. Tutduğu xoşagəlməz hərəkətə, əmələ görə, əlbəttə, o, təriflənməyəcək, əksinə müvafiq cəza alacaqdır. Intizama nail olmaq, uşaqlarda mədəni davranış adət və vərdişləri formalaşdırmaq üçün ailənin hər bir yaşlı üzvü, valideyn mehriban, qayğıkeş, səmimi olduğu qədər həm də ciddi və tələbkar olmalıdır. Lakin tələbkarlıq heç də əsas vermir ki, onlar uşağın şəxsiyyətini təhqir etsin, layaqə alçaltsınlar.

Naqis əməlinə görə uşağa güzəştə getmək yox, onu cəzalandırmaq ata-ananın borcudur. Axı, cəzasızlıq intizamsızlıq yaradır. Fəqət cəzanın şəxsiyyətin mənliyini tapdalayan söymək, döymək təhqir etmək kimi yolverilməz üsullarına əl atmaq pedaqoji mərifətsizlik, etikasızlıqdır, tərbiyəçinin nüfuzuna xələl gətirir, onun hörmətini aşağı salır, pedaqoji səriştəsizliyini, təcrübəsizliyini, acizliyini göstərir.

Nümunəvi valideyn insan şəxsiyyətini alçaldan vasitələrə müraciət etmir, daha səmərəli təsir üsulları axtarıb tapır. Uşağın şəxsiyyətinə hörmət və tələbkarlıq yanaşı getməlidir. Tərbiyənin bu prinsipindən düzgün istifadə edən valideynlər öz fəaliyyətlərində səmərəli nəticələr əldə edirlər.

**Tələblərdə vahidliyin gözlənilməsi prinsipi.** Ailədə uşaqlara qayğı və nəvaziş göstərilməklə yanaşı onlara müxtəlif tələblər verilir. Öz xarakterinə və məzmununa görə bu tələblər mədəni adətlərin, nümunəvi davranış və rəftarın, ünsiyyət tərzinin formalaşmasına, əmək bacarıq və vərdişlərinin yaradılmasına, nəcib sifətlərin qazanılmasına xidmət göstərir və eyni zamanda təlim xarakteri daşıyır, uşaq və yeniyetmələrin təfəkkürünün, təxəyyülünün, iradi keyfiyyətlərinin, diqqət və hafizəsinin inkişafına kömək edir.

Tələblərin kiçik yaşlardan irəli sürülməsi məqsədəuyğundur. Bu, uşağa tələbləri, onların mahiyyətini, cəmiyyət və ailə üçün, özündən ötrü faydalılığını anlamağa və könüllü yerinə yetirməyə imkan verir. Nəticədə uşaq bir şəxsiyyət kimi formalaşmağa başlayır.

Yalnız qayğı və nəvazişlə əhatə olunan, əmək vəzifələrindən azad edilən, çətinliyə alışmayan, müəyyən bir işi görməyi öyrənməyən uşaqlar sonralar ailədə ata-analarının, məktəbdə müəllimlərinin tələblərini laqeyd qarşılayırlar.

Ailədə olduğu kimi məktəbdə də şagirdlərə bir çox tələblər verilir. Tələbin onlar tərəfindən başa düşülməsi, ona əməl edilməsinin zəruriliyinə inam oyatmaq üçün bir sıra şərtlər gözlənilməlidir. Bu şərtlər aşağıdakılardır:

1. Tələblər pedaqoji etika çərçivəsində verilməli, pedaq mərifətə və takta əməl edilməlidir.

2. Tələb uşağa aydın olmalıdır

3. Uşağın yaşı nəzərə alınaraq ona tələb verilməlidir.

4. Tələb onun gücünə uyğun gəlməlidir.

5. Tələblər irəli sürülərkən uşağın fiziki və ruhi vəziyyəti, əhvalı nəzərə alınmalıdır. Uşaq xəstə dalğın, q nıqara, əhvalı pərişan ola bilər. Təbii ki, belə vəziyyətlərdə o, tələb maraq göstərməyəcək, yaxud onu könülsüz yerinə yetirəcəkdir.

6. Valideynin tələbləri ədalətli olmalı, subyektiv mülahizələrə söykənməməlidir. Əks təqdirdə uşaqda tələblərə, sərəncama, tapşırılan iş hiddət və acıq yarana bilər. O, tələbi yerinə yetirməkdən imtina edər ki, bu da valideyn-övlad münasibətlərini çətinləşdirər, ixtilaflı va ziyyət doğurar.

7. Ata-analar tələblərində ardıcıllığı gözləməlidirlər.

8. Dalbadal bir neçə tələbin irəli sürülməsi məqsədəuyğun deyildir.

9. Tələblər tərbiyənin məqsədinə zidd olmamalı, əksinə, onun yerinə yetirilməsinə istiqamətlənməlidir.

Tələb verdikdən sonra valideyn fikrini dəyişib yersiz güzəştə getməməlidir. İkincisi, ailə üzvləri vahid dəsti-xətti gözləməlidirlər. Atanın verdiyi düzgün tələb ana tərəfindən, ananın verdiyi tələb ata tərəfindən müdafiə olunmalıdır.

Müxtəlif tələblərin verilməsi uşaqda tələbə qarşı etinasızlıq yaradır və onu belə qənaətə gətirir ki, tələbə əməl etmək heç də məcbur deyildir. Və yaxud, hansı tələb onun ürəyincə olursa, ona əməl edir.

Valideyn tələbin yerinə yetirilib-yetirilmədiyinə nəzarət etməlidir. Bəzən uşaq tələbə qarşı durur. Təbii ki, bu, yaxşı hal deyildir. Odur ki, soyuq, rəsmi şəkildə tələbi yerinə yetirməyin lazım gəldiyini ona xatırlatmaq lazımdır.

**Tərbiyə prosesinə kompleks yanaşma prinsipi.** İnsan hissə- hissə deyil, küll halında formalaşdırılır. Valideyn tərbiyənin hər hansı sahəsini onun digər tərkib hissələrindən ayrıca götürüb (yəni tutaq ki, yalnız hər hansı mənəvi keyfiyyətin inkişaf etdirilməsi) tərbiyə işi ilə məşğul olmur. Eyni zamanda digər mənəvi keyfiyyətin inkişafını da təmin edir.

Məsələn, vətənpərvərlik tərbiyəsi uşağın fiziki və əmək tərbiyəsi qayğısına qalmağı tələb edir. Vətəni yaxşı fiziki hazırlığa, dözümə, çevikliyə, əmək bacarıq və vərdişlərinə yiyələnmiş şəxs daha möhkəm müdafiə edər.

Ona görə də tərbiyəyə kompleks yanaşma istər-istəməz zəruri prinsip rolunu oynayır. Tərbiyəyə kompleks yanaşma prinsipinə həm də şəxsiyyəti formalaşdıran bütün amillərin kompleksliyi və qarşılıqlı əlaqəsi prinsipi də deyirlər.

Tərbiyə işinə kompleks yanaşma zamanı tərbiyənin vəzifələrinin, prinsip, metod və vasitələrinin birliyi, hərtərəflilik mühüm şərtdir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun "Xəbərlər" jurnalı, №4, 2008, s.41-44.

**Mühazirə 7: Ailə tərbiyəsinin funksiyaları**

**PLAN:**

**1.Ailənin reproduktiv funksiyası**

**2.Ekzistensial funksiya**

**3.Sosiallaşdırma funksiyası**

**4.Ailənin bərpaedici funksiyası**

**5.Kommunikativ funksiya**

**6.Ailənin cinsi funksiyası**

Ailənin bir sıra funksiyaları vardır. Funksiya (fintio - latın sözüdür) mənası icra, fəaliyyət deməkdir. Ailənin funksiyaları dedikdə, onun həyat fəaliyyətinin başlıca istiqamətləri nəzərdə tutulur. Bu baxımdan onun aşağıdakı funksiyalarını fərqləndirmək olar: reproduktiv, təsərrüfat-iqtisadi, tərbiyə və bərpaedici.

Ailənin funksiyaları qarşılıqlı əlaqədədir. Onlar, hər şeydən əvvəl ailənin sosial mahiyyətini əks etdirir. Ailə cəmiyyətin sosial əsasıdır. O öz üzvlərinin müxtəlif tələbatı (şəxsi və ümumailə, yəni qrup) ilə yanaşı cəmiyyətin bir sıra mühüm tələbatını əhali tələbatını yerinə yetirir. Bu isə ictimai tələbatdır. Ailənin funksiyaları məhz buradan irəli gəlir. Ailənin funksiyaları ictimai-tarxi xarakter daşıyır. Onların məzmunu sosial amillərlə ailəyə cəmiyyət tərəfindən verilən tələblər, ailə hüququ və əxlaqi, mədəni normala cəmiyyətin ailəyə göstərdiyi real yardım və s. ilə müəyyən olu Lakin bununla yanaşı, kiçik qrup olan ailəyə xas xüsusiyat həyati mənasını bu funksiyalarda tapır. Ailə kiçik qruplan başqa növlərindən özünün səciyyəvi funksiyalarına görə seçilir.

Ailənin funksiyalarının hər birini nəzərdən keçirək:

***Ailənin reproduktiv funksiyası*** ilk növbədə uşaqların doğulması kimi mühüm vəzifəsini yerinə yetirir. Nəslin davam etdirilməsini təmin edən seksual tələbatın tamlığı və yüksək hiss kimi məhəbbət ər-arvadlardan birinin digərindən ayrılmasını mümkünsüz edir. Kişi və qadının məhəbbəti seksual tələbatların təmin olunmasından, onların tənzim edilməsindən və ər-arvadın uşaq doğumuna və uşaqların özlərinə münasibətlərindən xeyli dərəcədə asılıdır.

Firudin bəy Köçərli ərlə arvadın qarşılıqlı münasibətlərind danışarkən aşağıdakı məsələləri diqqət mərkəzinə gətirirdi: "Ər övrət... bir bədənin iki şaqqası və müvafiq hissəsi olduqlarına görə bunların arasında olan yekdillik, ülfət, məhəbbət və mənəvi yaxınlıq gərəkdir... kişini arvad özünə məhz bir cismi və zahir camalı ilə bənd edə bilməz. Bunun üçün ağıl və kamal da lazımdır. Zahiri gözəllik kişini ancaq əvvəl dəfələrlə özünə mail edir. Necə ki kişi bir gözələ malik və sahib olmayıbdır, onun tələbindədir və bu halda gözəllik nüfuzu artıq və hökmrəvandır. Amma elə ki kişi ona qalib gəldi və ona sahibləndi, onda zahiri gözəllik mənadan düşür".

Nuşirəvan adlı yaşlı bir kişi söhbət edir: "Cavan idim. Ali təhsilimi başa vurub doğma rayonumuza qayıtmışdım. Zavodların birində bir neçə il idi işləyirdim ki, məni baş mühəndis vəzifəsinə irəli sürdülər, sərəncamıma maşın verdilər. Mənə böyük etimad göstərmişdilər. Mən də çalışırdım ki, bu etimadı doğruldum. Səhər tezdən evdən çıxır, gecə yarısı qayıdırdım. Bir neçə il keçdi. Zavodda iş başdan aşırdı. Mən də öz işimi sevirdim. Ailə qurmaq yadıma düşmürdü. Amma anam narahat idi. "A bala, na zaman tərpənəcəksən? Ətrafda qız qalmadı ərə getdi, oğlan qalması - evləndi!"

Mən də hər dəfə zarafata salır: "Başım ayılan kimi evlənərəm, Məni tələsdirmə.

Toydan gələn anam bir də görürdüm ki, ah çəkir, sonra üzünü mənə tutaraq: "Hamı evlənir, hamının gəlini var, məndən başqa. Bəs mənə nə zaman əl yetirən qismət olacaq?" - deyirdi

Bir gün dedim:

-Ana, istəyirəm evlənim.

Anam sevindiyindən bilmədi, nə desin. Boynumu qucaqlayıb: "Axır ki, insafa gəldin!" - dedi.

-Ay bala kimdir, kimlərdəndir? Barı mən tanıyıram?

Heç mən də tanımıram. Heç görməmişəm də, - deyə cavab verdim.

Anam dilxor oldu, qaşqabağını tökdü:

-Məni ələ salırsan, bala?

-Allah eləməsin, ay ana. Bu nə sözüdür? Deyirəm evlənirəm, demək evlənirəm. Gəlini sən tapmalı olacaqsan.

-Mən?

-Hə, sən.

-Elə niyə, ay oğul?

-Bilirsən, ay ana, gəlinlə mən, yox daha çox sən yaşayacaqsan...

Anamın təəccüblə baxdığını görüb əlavə etdim:

-Mən səhər tezdən çıxıram, gecə yarısı qayıdıram. Gəlinlə bü-tün günü sən qalacaqsan. Gərək sənin sözün-söhbətin onunla tuta. Siz bir-birinizlə dolana biləsiniz. Siz yola getsəniz mənimçin də yaxşı olacaq. Arşınmalçı Əsgərin xalası kimi çarşabını başına salıb özünə gəlin axtar.

Nuşirəvan kişi söhbətinə davam etdi:

-Elə də oldu. Gəlini anam tapdı. İndi həmin illərdən 30-40 il keçib. Bizim evdə nə gəlin-qayınana, gəlin-baldız, nə də ər-arvad söz-söhbəti olub. Nəvələrimiz, nəticələrimiz var. Bir-birimizə can deyib, can eşidirik.

Biz o iddiada deyilik ki, övladları üçün qızları, həyat yoldaşını analar, bacılar tapmalıdır. Bu da bir variantdır. Amma evlənəndə valideynlərin məsləhətini eşitmək, xeyir-duasını almaq yaxşı olardı.

Ailədə neçə uşağın olması münasibdir? Ər-arvad neçə uşaq istəyir? Onlar ailənin inkişafını necə planlaşdırırlar?Bu suallar hər bir ailədə müzakirə mövzusu olur və ailənin reproduktiv funksiyasının məzmununu aydın şəkildə əks etdirir. Övladların sayı onun həyat tərzinin mühüm göstəricisi hesab olunur. Ailənin inkişafı uşaqların anadan olmaları ilə sıx surətdə əlaqədardır.

Ailə insan nəslinin davam etdirilməsi funksiyasına (uşaqları doğulmasına) xidmət edir. Bu funksiyanı ailə yerinə yetirməlidir. Bəzi üzdəniraq nikah əleyhdarları bu əqidədədirlər ki, uşağı ailə qurmadan da, nikah ittifaqına girmədən də dünyaya gətirmək mümkündür. Lakin, əvvəla, nikahsız ailə əxlaqi deyildir. İkincisi, nikahsız uşaq doğmağa heç də həmişə cəhd göstərilmir, çünki tam, hərtərəfli ailə, mütəşəkkil, müntəzəm tərbiyə olmadan uşaq böyütmək çətindir.

Ana və uşaq, ata və uşaq hələ ailə demək deyildir. Bu ailənin bir hissəsidir və natamam ailə sayılır. Natamam ailədə verilən tərbiyə isə bir çox hallarda natamam olur. Statistik məlumatlara görə, daxili işlər şöbələrinin yeniyetmələrlə iş üzrə müfəttişliklərində qeydə alınan uşaqların bir çoxu məhz natamam ailələrdə böyümüşlər.

Ər-arvad uşaqların sayı ilə bərabər onların təxmini doğulma vaxtını, bir sıra hallarda ilk övladla sonrakı körpələr arasındakı müddəti planlaşdırır. Ailədə neçə uşağın olması məsələsini ər-arvad birlikdə həll edirlər. Kənar mülahizələr əsas rol oynamır. Lakin uşağın sayı barədə qərar müəyyən amillərin təsiri altında qəbul oluna bilər. Bunun bəzi səbəblərdən irəli gəlməsi mümkündür. Şəhər həyat tərzinin genişlənməsi, yaşayış sahəsinə tələbat, qadının məşğuliyyəti, eləcə də müəyyən ictimai vəzifə daşıması, tələbatın artması və s. belə səbəblərdəndir. Lakin bunlar əslində həlledici amil deyildir. Əsas məsələ ər-arvadın psixoloji yetkinliyi və hazırlığıdır. Həyatda eyni şəraitə malik neçə-neçə ailə vardır. Bəzisində bir, bəzisində iki-üç, bəzisində beş-altı uşaq olur. Doğrudur, çoxuşaqlı ailələr müəyyən maddi çətinliklərlə qarşılaşırlar. Lakin həmin uşaqlar boya-başa çatdıqda hər birisi ailəyə, ata-anaya həyan olur. Çoxuşaqlı ailələrdə boşanmaya da nadir hallarda rast gəlinir. Azuşaqlı ailələrə nisbətən, çoxuşaqlı ailələrdə tərbiyə edilmiş uşaqlar daha sərbəstdir, kollektivdə öz yerini tez tapır, ətrafdakılarla ünsiyyət bağlamağı bacarır, mehriban, qayğıkeş, iltifatlı, səmimi olurlar. Bu keyfiyyətlərin kökü isə şübhəsiz, ailədən gəlir. Üç-dörd uşaqlı ailə daha optimaldır. Belə miqdar əhalinin geniş təkrar istehsalında cəmiyyətin

tələblərinə cavab verir və qohumluq əlaqələrinin tam uyğunluğunu duymaqda ailə üzvlərinə kömək göstərir. Xüsusi uşaqcanlı valideynlər, əlbəttə, daha çox övlad böyüdə bilərlər. Bu, təqdir edilir.

Sağlam mühit, ər-arvadın bir-birinə qayğı və nəvazişi, bir-birini başa düşməsi, lazım gələndə güzəştə getməyə bacarması vas uzunnömürlülüyün və çoxuşaqlı ailələrin meydana gəlməsinin şərtlərindəndir. Belə ailələrin üzvi olmaq necə də xoşdur...

Ailədə uşaqların sayının azalmasının bir sıra səbəbləri vardır.Bir çox hallarda qadınlar özünün ailə rolunu peşə fəaliyyəti ilə sadəcə olaraq əlaqələndirməkdə çətinlik çəkir və yaxud uşaqları bu yolda özü üçün maneə hesab edir. Ölkəmizdə bir çox məşhur qadınların çoxuşaqlı olması həmin fikrin birtərəfli olduğunu göstərir. İki dəfə Sosialist Əməyi Qəhrəmanı, adlı-sarılı pambıq ustası Şamama Həsənova dörd uşaq anası idi. Neçə-neçə nəvəsi vardı. Sosialist Əməyi Qəhrəmanı, pambıq ustası Sürəyya Kərimova Ağdam rayonundakı «Telman» adına kolxozda manqa başçısı idi. Onun sinəsini neçə-neçə orden medal bəzəyirdi. S. Kərimova həm fəal ictimai xadim, həm də qayğıkeş, mehriban ana idi. Beş qız, beş oğul doğmuş. tərbiyə etmiş, "Qəhrəman ana" adına layiq görülmüşdü. Məşhur "Sürəyya" mahnısı indi də sevilə-sevilə oxunur.

Bəzi qadınlar isə ailə həyatına yüngül münasibət bəsləyirlər. Onlar "gəzmək", "dolanmaq", "kef etmək", “gün görmək üçün bir müddət uşağın doğulmasının qarşısını müxtəlif yollarla alırlar.

Bununla əlaqədar iki cəhətə diqqəti cəlb etmək lazımdır. **Birincisi**, uşağın sağlamlığı, həm də ananın yaşından asılıdır. Həkimlərin fikrincə, ilk körpəsini 20-24 yaşlarında doğan anaların uşaqları daha sağlam olurlar. 30 yaşından sonra doğulan ilk uşaqla rın tam sağlam olması ehtimalı da azalır.

**İkincisi**, doğuşun qarşısı süni yollarla alınanda, bu, hata bəzi hallarda əsl faciə ilə qurtarır: qadın nəinki xəstələnir, həm də sonsuz qalır, analıq səadətindən məhrum olur.

Nəhayət, elə qadınlara rast gəlinir ki, onlar sadəcə doğmağın əleyhinədirlər. Beləleri hətta bir körpənin də dünya açmasına etiraz edirlər. Guya uşağın doğulması onların gözəliyini poza bilər. Yazıçı Əhmədağa Muğanlının "Vicdan" povestinda təsvir olunan Xavər obrazı kimi. Meşşan təbiətli bu qadın hamilə olduğu üçün əzab çəkir: “Bir deyən ki, ay axmaqlar, yaşınızın bu çağın da nəyinizə uşaq yaraşır? Axı indi bizim əsl deyən-gülən, kef sürən vaxtımızdır... Hidayətə nə var, gedib gəzəcək, kefini sürəcək. Mən isə dörd divar arasında onun üçün uşaq böyüdəcəyəm. Bundan sonra məni yanı uşaqlı görüb heç kim kompliment deməyəcək. Kölgə kimi ardıcca sürünən oğlanlar məndən üz döndərəcəklər”.

Analıq hissi Xavərə o qədər yaddır ki, xəstəxanada yatarkən körpəsini öz xoşu ilə palata yoldaşı Sonaya bağışlayır, ərini aldadaraq ölü uşaq doğduğunu söyləyir... Biz həyatda belə hallara bu və ya digər formada təsadüf etsək də, onlar ülvi analıq hissləri üçün heç vaxt səciyyəvi olmamışdır və olmayacaqdır. Analıq səadəti insanın mənəvi sərvətləri içərisində həmişə xüsusi yer tutmuşdur.

Atalıq hissi də kövrəkdir, zərifdir. Körpənin həyatının ilk illərində bəzən gənc atalar öz vəzifələrini aydın təsəvvür edə bilmirlər. Bir çox hallarda onların bu sahəyə lazımı səriştəsi də olmur. Lakin həssas ana atanın kövrək hisslərini düzgün başa düşdükdə, körpəyə qayğını onunla bölüşdükdə, ona uşağa qulluq etməyi öyrətdikdə ai lədə öz-özünə yaxşı mənəvi psixoloji iqlim yaranır, ana da, ata da özünü xoşbəxt hiss edir, körpə isə ana nəvazişi, ata qayğısı ilə sağlam böyüyür... Professor T.M. Afanasyeva göstərir ki, əgər uşaqlar bir-birinin ardınca doğulursa, onda vaxt itkisi əslində eyni olur. Hətta qüvvə də. Ana ilk və yeganə uşağına iki, hətta üç uşağa sərf etdiyindən daha çox qüvvə sərf edir. Əvvələn, körpəyə qulluq etmək, onu yedirtmək qaydalarını bilməmək və bacarmamaq ananı həddindən artıq yorur. Ikinci uşaqla bir çox işlər, demək olar, avtomatik həyata keçirilir. **İkincisi**, ilk körpə daha çox diqqəti özünə cəlb edir, əsəb gərginliyinin daha çox sərf olunmasını istəyir. Çünki evdə onunla məşğul olan, oynayan tapılmır. Ona görə də ataya- anaya yapışır, onların dalınca düşür, əl çəkmir. Uşaq iki, üç olanda bir-biri ilə oynayırlar. İkinci uşağa sərf olunan maddi xərclər də azalır. Birinci uşağın paltarlarını ikincisi geyinir. Körpənin sağlamlığının valideynin qəlb rahatlığından çox asılıdır. Yeganə körpəsi olan, daim onu itirəcəyindən qorxan ana dinclik tapa bilmir.

Cəmiyyətimiz ailələrin tam olması qayğısına qalır. Tam ailə dedikdə, ata, ana, bir də uşaqlar olan ailələr nəzərdə tutulur. Valideynlərdən hər hansı birinin yoxluğu (ailədən getməsi, ər-arvadlıq münasibətlərinin kəsilməsi, valideynlərdən hər hansı birinin ölümü, boşanma, ata-analardan hər hansı birinin itkin düşməsi və s.) natamam ailəni meydana gətirir. Əhalinin artım sürəti ailənin yaranması vaxtından, onun davamlı olmasından və uşaqların sayından asılıdır. Ölkəmizdə insan nəslinin davam etdirilməsi funksiyası ailənin ən mühüm funksiyası olaraq onun digər funksiyalarını da özündə birləşdirir. Deməli, ailə əhalinin həm kəmiyyət, həm də keyfiyyət artımında iştirak edir. Həmin funksiyanın ailə tərəfindən yerinə yetirilməsi zərurəti ər-arvadın həm ictimai, həm də şəxsi tələbatından irəli gəlir.

Son vaxtlar ailənin bu funksiyası xüsusilə diqqət mərkəzində dayanmışdır. Buna səbəb doğumun aşağı səviyyəyə düşməsi, azuşaqlı və uşaqsız ailələrin sayının artmasıdır. Halbuki əvvəllər ölkəmizdə çoxuşaqlı ailələr geniş yayılmışdı.

Bəzi valideynlər bir uşaqla kifayətlənməyi üstün tutur və bunu həmin uşağın guya daha yaxşı, fıravan, şən böyüməsi, daha səmərəli tərbiyə olunması ilə izah edirlər. Lakin bu, bir həqiqətdir ki, tək uşağı tərbiyə etmək daha çətindir. Çoxuşaqlı ailə böyük ailə kollektivi deməkdir. Burada uşaqlarda erkən yaşlardan kollektivçilik və dostluq, yoldaşlıq hissləri tərbiyələndirmək üçün imkanlar açılır. Uşaqlar bir-birlərinə qarşılıq kömək və qayğı göstərməyə, səmimi davranmağa çalışır, yeri gələndə onlara doğma olan şəxsin (bacısının, qardaşının və b.) xatirinə öz mənafelərindən və maraqlarından əl çəkib sevinc və kədərlərini bir yerdə bölüşürlər. Çoxuşaqlı ailələrdə valideynlər bütün uşaqlara eyni dərəcədə qayğı göstərməlidir. Bu evdə sağlam psixoloji və mənəvi mühitin bərqərar olmasına, uşaqların ahəngdar inkişafına kömək edir.

Ailənin digər funksiyası təsərrüfat-iqtisadi funksiyah funksiya ailənin mövcud bir çox başqa tələbatlarının ödənilməsi təsərrüfatı ilə məşğul olmaq, ailə büdcəsinin qaydaya salınması, ailə

üzvlərinin sağlam və gümrah olmalarına qarşılıqlı köməyin göstərilməsi kimi əsas cəhətləri özündə birləşdirir.

Təsərrüfat-iqtisadi funksiyanın mahiyyəti cəmiyyətin iqtisadi bazisi və onun mədəniyyəti ilə müəyyən olunur. Bəzi ailələrdə ailənin bu funksiyasının əsasında xüsusi mülkiyyətin toplanması onun nəsildən-nəslə verilməsi dayanır ki, bu da xüsusiyyətçi meyllərinin yaranmasına və formalaşmasına imkan verir. Bu isa ailənin təməlini sarsıdır. Bir sıra hallarda ailə üzvləri, o cümlədən ər-arvad arasında, eləcə də ata-ana və övladlar arasında ixtilaf yaradır. Sadə ailələrdə isə vəziyyət başqadır. Ailənin təsərrüfat-iqtisad funksiyasının əsasını heç də ər-arvadın xüsusi mülkiyyətçilik psixologiyası təşkil etmir. Xüsusi mülkiyyətçilik meylləri milli əxlaqımıza yabançıdır. Bizdə ailələrin əksəriyyəti yığın əməyindən azaddır, lakin o, gündəlik həyata vacib olan təsərrüfat fəaliyyətini (ərzağın alınması və yeməyin hazırlanması, uşaqlara, ailənin yaşlı və xəstə üzvlərinə qayğı, mənzilin qaydaya salınması və s.) həyata keçirir.

Gələcəkdə təsərrüfat üzrə işin həcminin necə olacağı haqqında fikir söyləmək çətindir. Hazırda bir-birinə zidd olan iki meyil mövcuddur: bir tərəfdən mənzil şəraitinin yaxşılaşdırılması və məişət xidmətlərinin genişləndirilməsi ilə əlaqədar ev işlərinin həcmi azalır. Digər tərəfdən isə mənzil şəraitinin yaxşılaşdırılması nəticəsində otaqların müxtəlif avadanlıqlarla, mebel və s. ilə bəzədilməsi kimi qayğı, həmçinin təmir tələb edən müxtəlif məişət texnikasına ehti yac artır, qida və geyim, mənzildə isə təmizlik və səliqə-sahman mədəniyyətinə olan tələblər çoxalır. Qadının təhsil səviyyəsi və onun ictimai həyatdakı fəallığı hər bir ailədə ev əməyinin təşkilinin yeni formalarının axtarılması vacibliyini tələb edir. Ev işlərinin yenidən təşkilində üç əsas istiqamət həlledici əhəmiyyətə malikdir: 1.Ailənin bütün üzvləri arasında ev işlərinin bölüşdürülməsi. 2. Ev işlərinin daha da mexanikləşdirilməsi. 3. Məişət və kommunal xidmətlərindən maksimum istifadə edilməsi.

Sosioloqların fikrincə, mənzili yığışdırmaq, xörək hazırlamaq, paltar yumaq, yamamaq, ütülmək və s. üçün lazım olan vaxt son İllər ərzində gündə çox az ixtisara düşmüşdür. Müasir üç nəfərdən ibarət ailənin üzvlərindən ötrü xörək bişirmək, paltar yumaq və s. hər gün beş saat vaxt tələb edir. Həmin vaxtı belə işlərə kim sərf etməlidir? Yalnız qadınmı?

Ailənin bütün üzvləri arasında ev işlərinin bölüşdürülməsi ev əməyinin (xüsusilə qadının öhdəsinə düşən) bütün ailə üzvlərinin funksiyasına çevrilməsinin ən sadə və səmərəli üsuludur. Bu ən çox üşaqlara öz müsbət təsirini göstərir, onların hərtərəfli inkişafına şərait yaradır. Bu, əmək və əxlaq tərbiyəsinin fəaliyyətdə olan vasitəsidir, uşaqlarda kollektivçilik, dostluq və məsuliyyət hissinin inkişafına, xudpəsəndliyə, tənbəlliyə qalib gəlməyə, iradəni möhkəmləndirməyə kömək göstərir.

Ev əməyinin təsirini xüsusən qızlarda müşahidə etmək mümkündür. Onlar oğlanlara nisbətən təsərrüfat işlərinə 2,1 dəfədən də çox vaxt sərf edirlər. Bu isə qızların istər təlim əməyinə, istərsə də İctimai fəallığına yaxşı təsir göstərir.

Ev əməyinin bərabər bölünməsinə əsasən ailə üzvlərinin imkanını, fiziki qüvvəsini, bacarıq və marağını nəzərə almaq lazımdır. Ev əməyinin səmərəli bölgüsü müxtəlif problemlərin birgə həll edilməsinə səbəb olur. İşlərin mexanikləşdirilməsi kişilərin və uşaqların bu fəaliyyətə cəlb edilməsinə şərait yaradır.

Ailənin ünsiyyət funksiyası da mühümdür. Başqa sözlə, buna kommunikativ funksiya da deyilir. Bu funksiyaya ailədaxili ünsiyyətin təşkili, ailə üzvlərinin televiziya, radio, qəzet və jurnallarla, ədəbiyyat və incəsənət əsərləri ilə bağlılığı və s. daxildir. Ailədaxili Ünsiyyət ailə həyatının bütün sahələrinə nüfuz edir. Kənd şəraitində valideynlər uşaqlarla daha sıx ünsiyyətdə olurlar. Şəhərdə isə çox vaxt ata və ana işlədiyindən ünsiyyət imkanı zəifləyir. Ata, bir də görünsən səhər tezdən evdən çıxır, bir də gecə yarısı qayıdır.

Fəlsəfə elmləri namizədi İ.F. Dementyeva göstərir ki, ailənin asudə vaxtı imkanlardan heç də tam istifadə edilmir. Valideynlər (əsasən məktəb yaşına çatmamış uşaqlarla daha çox məşğul olurlar. Bu zaman nəsillərin ünsiyyəti xeyli dərəcədə ilkin səviyyədə, uşağa valideyn himayəsi, köməyi kimi (körpəni geyindirməyə, əl-üzünün yumağa, yedirtməyə sərf olunan vaxt) baş verir. Məktəb yaşına çatmamış uşaqlarla müqayisədə valideynlərin kiçik yaşlı məktəblilərlə siyyətinin strukturu vaxt etibarilə məhduddur, lakin bu strukturia uşaqlara qulluq edilməsinə xeyli az vaxt sərf edilir, burada birinci yeri ünsiyyətin məzmunca zəngin olması tutur.

Uşaqlar yeniyetməlik dövrünə qədəm qoyduqda isə valideynlərin onlara diqqəti bir qədər zəifləyir. Ünsiyyət vaxtı azalır ki, bu da arzuolunmaz prosesdir.

Ünsiyyət üçün səmimi və etibarlı olmaq səciyyəvidir. Çünki bu, imkan verir ki, ailənin hər üzvü öz sevincini və kədərini ata-anası, bacı-qardaşı, baba-nənəsi ilə bölüşdürsün, onu həyəcanlandıran, maraqlandıran və narahat edən məsələlərə cavab ala bilsin, öz mə nəvi aləmini zənginləşdirsin. Radioya qulaq asanda, televizora baxanda, dövri mətbuatı nəzərdən keçirəndə, həyət-bacada çalışanda, birgə oyunların keçirilməsi zamanı, hara isə (istirahət evinə, gəzməyə, turist səyahətinə, parka və s.) dincəlməyə gedəndə ailə üzvləri daha sıx ünsiyyətdə olurlar. Bir çox ailələr tez-tez gəzintiyə, açıq havaya çıxır, teatr tamaşalarına, konsertlərə, sərgilərə gedirlər. Bütün bunlar ailə üzvləri arasında ünsiyyətin yaxşılaşmasına şərait yaradır. Xoş ünsiyyət həm də uşaqların səmərəli tərbiyə olunmalarının rəhnidir.

Valideynlə birlikdə çalışan uşaqda əməksevərlik, zəhmətə bağlılıq, görülmüş iş üçün iftixar hissi təşəkkül tapır. Təbiətin qoynuna gəzintiyə çıxan uşaq ətraf mühitə, bitki və heyvanat aləmina diqqətli olur, onlara məhəbbət bəsləyir, hər hansı kitabın ailə üzvlərinin iştirakı ilə müzakirəsi uşağın estetik və əxlaqi tərbiyəsinə müsbət təsir göstərir.

Ailənin tərbiyəvi funksiyası son dərəcə mühümdür. Ailadə həm yaşlılar, həm də uşaqlar tərbiyə olunurlar. Ailənin gənc nəslin bayəsinə təsiri xüsusilə böyük rola malikdir. Ona görə də ailənin barbiyəvi funksiyası üç cəhətlə bağlıdır: a) tərbiyənin ailənin yaşı vlərinə (ataya, anaya, nənəyə, babaya, əmi, bibi, dayı, xala və Başqalarına) verilməsi; uşaqlarda dünyagörüşün, nəcib əxlaqi sifətlərin formalaşdırılması, birgəyaşayış qaydalarını, qanunun tələblərini yerinə yetirmək tələbatının və bacarığının aşılanması; b) ailə kollektivinin özünün ailənin hər bir üzvünə

uzunmüddətli, məqsədyönlü, sistemli və müntəzəm tərbiyəvi təsiri; c) uşaqların öz valideynlərinə (eləcə də ailənin digər üzvlərinə) daimi təsiri. Bu, valideynlərin özünütərbiyə ilə fəal surətdə məşğul olmalarına şərait yaradır.

Əhəmiyyətli funksiyalardan biri də ailənin asudə vaxtının və istirahətinin təşkili funksiyasıdır. Asudə vaxt mühüm sosial sərvətdir. Cəmiyyətimizdə vətəndaşların asudə vaxtlarını, mədəni, əxlaqi-estetik səviyyəsini müntəzəm olaraq yüksəltmək, səciyyəvi şəkil almışdır. Asudə vaxtın və istirahətin şən, mənalı və məzmunlu keçirilməsi ailə üzvlərinin sağlam və gümrah olmalarına şərait yaradır, yorğunluğu aradan qaldırır, ailə üzvləri arasında münasibətlərin səmimi olmasına kömək edir, əsəbi əhval-ruhiyyəni aradan qaldırır. Yaxşı istirahət edən ata, yaxud ana işdə üzləşdiyi çətinliklərin öhdəsindən səbirlə, təmkinlə gəlir, başqa adamların qanını qaraldan hərəkətlərə yol vermir. Belə olduqda uşaqlar da dərslərə yaxşı hazırlaşır. İctimai işə həvəslə qoşulurlar.

Ailənin asudə vaxtının təşkili funksiyasına daxil olan tədbirlərə aşağıdakıları aid edə bilərik: televiziya və teatr tamaşalarına, kinoya baxmaq, radioya qulaq asmaq, şənliklərdə iştirak etmək, qohumlarla, dostlarla görüşmək, kinoya, teatra, konsertə getmək, gəzintiyə çıxmaq, çimərlikdə və parkda olmaq, bayram və istirahət günlərini birgə keçirmək, ad gününü qeyd etmək, idmanla, digər faydalı əyləncələrlə məşğul olmaq və s. Bəzi ailələrin öz asudə vaxtlarını düzgün təşkil etmədiyi də məlum olmuşdur. Belə ki ata kinodan, teatrdan, müxtəlif əyləncələ rindən qalmır, toy məclislərinə, ad günlərinə tək gedir. Məzuniyyələ çıxanda isə putyovka tapıb səfalı guşələrdə dincəlir, uşaqları da ana nın öhdəsinə buraxır. Arvad isə istər adi günlərdə, istərsə də istira hət və bayram günlərində (hətta üstəlik özünün ad günündə) evdən bayıra çıxmır, gah mətbəxdə, həyət-bacada məşğul olur, gah paltar yuyub ütüləyir və s.

Uşaqlar bəzən dərsdən gələn kimi televizoru qoşur, vaxtının çox hissəsini onun qarşısında keçirir, açıq havada isə az olurlar. Yaxud onlar bütün günü həyətdə keçirir və nəticə etibarilə özlərini yorub əldən salırlar. Ailədə asudə vaxtın və istirahətin təşkilini həftəlik, aylıq və illik planlaşdırmaq olar.

Ailə hər bir insan üçün sağlamlaşdırıcı, psixoterapevtik mühitdir. Ailənin bərpaedici funksiyası bu cəhəti nəzərə alır. Biz öz dərd-sərimizi ailədə yaddan çıxarırıq. İşdə, iclaslarda nə qədər yorulsaq belə, evə gələn kimi, uşaqlarımız üstümüzə qaçıb qucağımıza atılan kimi, yaxud qızımızın, oğlumuzun uğurlarını eşidən kimi könlümüz açılır, gözlərimizdə dünyanın mənası dəyişir, nikbin ruh bizi bürüyür. Həyat yoldaşımızın qulluğumuzda durması, sevinc və xoş sözlərlə bizi dindirməsi bizə xoş ovqat bəxş edir, istər-istəməz düşünürük: həyat necə şirin və fərəhlidir!

Ailə həyatı çox cəhətlidir. Onun funksiyaları arasında sıx əlaqə vardır. Həmin funksiyaların vəhdət halında tətbiqi gənc nəslin hərtərəfli və ahəngdar inkişafına əlverişli şərait yaradır.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun "Xəbərlər" jurnalı, №4, 2008, s.41-44.

**Mühazirə 8: Ailənin dövrləri və aspektləri**

**PLAN:**

**1.Ailə həyatında dövrlər**

**2.Ailənin aspektləri**

**3.İqtisadi ailə**

**4.Məhəlli ailə**

**5.Bioloji aspekt**

Ailənin aşağıdakı aspektləri vardır:

Sosial təsisat olmaq etibarilə ailə ər-arvad, valideynlər və uşaqlar arasındakı münasibətləri tənzim edən sosial normalarla, sanksiyalarla, davranış normaları ilə, hüquq və vəzifələrlə səciyyələnir.

*İqtisadi ailə* - iqtisadi cəhətlərlə, ümumi ailə ilə bağlı olan şəxsləri əhatə edir.

*Məhəllə ailə* - tərəfləri yaşayış əlaməti üzrə birləşdirir.

Bioloji aspekt valideynlərdən və uşaqlardan ibarət olur.

**Şəxsiyyətin ailədəki yerinə əsasən ailələr bölünür:**

1. *Valideyn (ata) ailəsi* – insanın anadan olduğu ailə.

2. *Reproduktiv ailə* - insanın özünün yaratdığı ailə.

**Ailənin yaşayış yerindən asılı olaraq ailələr bölünür:**

1. *Natrilokal ailə* - ərin valideynləri ilə yaşayan gənc ailə.

2. *Matrilokal ailə* - arvadın valideynlər ilə yaşayan gənc ailə.

3. *Neolokal ailə* - valideynlərin yaşayış yerindən aralıda yerləşən mənzilə köçüb orada həyatını quran ailə.

**Ailədə başçılıq tipinə görə ailələr bölünür:**

1. *Eqalitar ailə* - ər-arvadın bərabərliyinə əsaslanan ailə.

2. *Avtoritar ailə* - ər-arvaddan birinin iqtisadi hökmranlığına əsaslanan ailə.

**Sosial tərkibin eyniliyi (oxşarlığı) üzrə:**

1. *Sosial homogen* (eynicinsli, həmcinsli) ailə.

2. *Keterogen* (eyni cinsli olmayan) ailə.

**Ailə məişətinə, tərzinə görə ailələr bölünür:**

1. Ailə "təsəlli".

2. Uşağın diqqət mərkəzində olduğu və onun hökmlərinə tabe olan ailə.

3. İdman komandası, yaxud müzakirə klubu tipli ailə.

4. Rahatlığı, sağlamlığı, nizam-intizamı birinci yerə qoyan ailə.

**Ailə stajı üzrə:**

1. Təzə toyları olmuş oğlan və qız - 1-2 aydan yarım ilə qədər nikahda olanlar.

2. Gənc ailə - yarım ildən üç llədək ailə həyatı.

3. Uşaq gözləyən ailə çağanın perspektiv hamiləliyin başlanğıcı çağanın dünyaya gəlməsinə qədər olan müddət

4. Orta ər-arvadlıq dövrü - 3 ildən 10 ilə qədər birgə yaşama

5. Böyük ər-arvadlıq dövrü - 10-20 il ailə stajı.

6. Yaşlı ər-arvadlıq cütlüyü birinci uşağın dünyaya gəlməni nəvələrin doğulmasından sonra yaranır.

**Ailədə münasibətlərin və atmosferin keyfiyyəti üzrə:**

1. Uğurlu ailə.

2. Möhkəm (sabit) ailə.

3. Pedaqoji baxımdan zəif ailə.

4. Möhkəm (sabit) olmayan ailə.

5. Pozulmuş ailə.

**Asudə vaxtın keçirilməsinin xarakteri üzrə:**

1. Açıq ailə.

2. Qapalı ailə.

**Ailə həyatının xüsusi şəraiti üzrə:**

1. Tələbə ailəsi.

2. Distant ailə.

3. Nikahdankənar ailə.

**Sosial səfərbərlik üzrə:**

1. Reaktiv ailə.

2. Orta fəallığa malik ailələr.

3. Fəal ailələr.

**Psixoloji sağlamlığın vəziyyəti üzrə:**

1. Sağlam ailə.

2. Nevroz ailə.

3. Viktineogen ailə.

**Coğrafi əlamət üzrə:**

1. Şəhər ailəsi.

2. Kənd ailəsi.

3. Uzaq(laşdırılmış) ailə (məsələn, Uzaq Şimal və s.).

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun “Xəbərlər” jurnalı, №4, 2008, s.41-44.

## Mühazirə 9: Ailəni səciyyələndirən mühüm spesifik cəhətlər

### PLAN:

**1.Ailənin psixoloji iqlimi**

**2.Ailənin büdcəsi**

**3.Ailə tərbiyəsinin hüquqi əsasları**

**4.Ailə üzvlərinin hüquq və vəzifələri**

Əgər ailəni insanın mənəvi və psixoloji baxımdan rahatlıq, dinclik tapdığı yer kimi qəbul etsək o (ailə), böyük hərflərlə yazılmalı olan Evdir. "Ailə" və "ev" sinonim sözlər insanların şüuruna həkk olub. Biz ailə deyəndə evimizi, evimiz deyəndə ailəmizi düşünürük.

Tərkibinə, həyat tərzinə, maraqlarına və onları ödəmə imkanlarına görə bir-birindən fərqlənən ailənin çox müxtəlif tipləri vardır. Bundan başqa, ailənin hər bir üzvü öz maraq dairəsinə, adətlər və zövqlərə, estetik və gözəllik haqqında özəl təsəvvürlərə malikdir.

Yaşla bağlı dəyişikliklər və fərqlər insanın öz evinə, mənzildə yaşama şəraitinə verdiyi tələblərdə əlavə təshihlər aparmalı olur.

Evdə psixoloji iqlimin hökm sürməsi üçün ailə üzvləri arasında psixoloji uyuşma mövcud olmalıdır. İlk növbədə ailə həyatının başlanğıcında ər-arvad bir-birinə uyğunlaşmalıdırlar. Kişi bir ailədə, qadın başqa ailədə böyüyüb. Onlara ata evində verilən tərbiyə, göstərilən pedaqoji təsirlər müxtəlif ola bilər. Mümkündür ki, birisi həmişə qayğı ilə əhatə olunub, maddi ehtiyacın nə olduğunu bilməyib, necə deyərlər, ona güldən ağır söz deyilməyib, əlini ağdan-qaraya vurmayıb, tələbi dərhal ödənilib, digəri isə, maddi sıxıntı da çəkib, uşaqlıqdan valideynlərinə öz işlərində kömək edib, acı söz də eşidib, danlaq da görüb.

Başqa müqayisələr də aparıla bilər. Atalarımız demişkən, "Bu qız yaxşı qızdır, ərə gedəndən sonra bax; bu gəlin yaxşı gəlindir, birini doğandan sonra bax".

Lakin ailə həyatında bütün olub-keçənləri xatırlamaq, yaxud xatırlatmaq ər-arvaddan ötrü pis yoldaşdır. Burada hərə öz bildiyini edə, öz hikkəsini yeridə, çaldığı hava ilə başqalarını oynada bilməz. Onlar ata evinin müsbət təcrübəsini tətbiq etməklə öz evini-eşiyini qurmalı, öz ailəsini formalaşdırmalıdır. Yaddan çıxarmamalıdırlar ki, bu onların özlərinin, ikisinin birgə yaratdıqları ailədir. Onlar bu evin, ailənin müəllifidirlər. Onu yaxşı yarada bilsələr, ailə onların şah əsəri olacaq. İki “mən”, başqa sözlə, iki müxtəlif xarakterli, müxtəlif fərdi xüsusiyyətli insan "bizə qovuşmalıdır. Hərə özü üçün "mən" olaraq qalsa, hərə öz dediyini yeritsə, güzəştə getmək olmasa evdə psixoloji iqlim pisləşəcək. Ailəni ilin fəsillərinə bənzətsək, onun da qışı, baharı, yayı payızı var. Qış insanı üşütdüyü kimi, ailədə münasibətlər gərgin olsa bu ailəni üşüdəcək, ər-arvadı əl-qolunu donduracaq, əlini işdən soyudacaq.

Bahar gözəllik, şuxluq, gül-çiçək, sevinc gətirdiyi kimi, ailənin baharlı günlərində ər-arvadın gözlərində fərəh, dodaqlarında təbəssüm olacaq, bir-birlərinə rast gəldikləri üçün Allahlarına min şükür edəcəklər. Psixoloji uyuşma onların qazandığı uğurların sayı artıracaq.

A.S. Ekzüperi hələ vaxtilə deyərdi: "Bir-birinə baxmaq yox bir istiqamətə baxmaq - məhəbbətin mənası belədir!” Burada kişi və qadın həmrəyliyi, eyni məqsəd, eyni amal üçün çalışmaq istəyi öz əksini tapıb ki, psixoloji uyuşma üçün bu vacibdir.

Hegelin belə bir fikri var: "Ailənin yaradılmasının əsaslanı təbii meyldən deyil, təsadüfi ehtirasdan və müvəqqəti şıltaqlıqdan yüksək duran qadın və kişi arasındakı mənəvi və əxlaqi əlaqədən ibarətdir". Bu sözlərdə dərin həqiqət var. Ailənin psixoloji iqlimi qeyd olunan cəhətlərlə sıx surətdə bağlıdır. Uşaqlar bir-birinin ardınca dünyaya gəldikcə ailə genişlənir, yeni münasibətlər yaranır. Bu münasibətlərin düzgün tənzim və idarə olunması ailənin mənəvi və psixoloji əsaslarını möhkəmləndirir. Professor Əbdül Əlizadənin düzgün qənaətinə görə, ailədə psixoloji iqlim ailə üzvlərinin birgə fəaliyyətinin, onların şəxsiyyətlərarası münasibətlərinin nəticəsində yaranır. Lakin ər-arvad, ana-ata, övladlar və b. arasında qarşılıqlı münasibət daha çox hisslərə əsaslanır. Buna görə də ailənin həyatın da psixoloji iqlim xüsusilə mühüm rol oynayır.

Professorun nöqteyi-nəzərincə: 1) ailənin psixoloji iqlimi ana və ata vasitəsilə uşaqlara sirayət edir. Uşaqların sağlamlığı ailənin psixoloji iqlimindən bilavasitə asılıdır; 2) ailənin psixoloji iqlimi müxtəlif formalarda atanın və ya ananın əmək fəaliyyətində, işə münasibətində əks olunur.

Ailə və qayğı, bir-birinə dayaq durmaq, qarşılıqlı yardım, mehribanlıq, səmimiyyət, tələbkarlıq başlıca mənəvi normaya çevrilməlidir. Bunsuz ailədə psixoloji iqlim bərqərar olmaz.

Nuklear (sadə) ailədə ailənin psixoloji iqlimi ər-arvad və uşaqlardan asılı olur. Qarşılıqlı münasibətlər düzgün qurulsa, problem baş qaldırmır.

Mürəkkəb ailə şəraitində əlavə problemlər ortaya çıxır. Ər-arvad və uşaqlardan savayı, ailədə baba-nənə, kişinin qardaşı və bacı- ları (başqa sözlə, gəlinin qayını və baldızları) olur. Burada qarşılıqlı münasibətlərin qurulması müəyyən çətinliklərlə müşayiət olunur. Mirzə İbrahimovun "Böyük dayaq” romanında gəlin-qayınata, M. Şamxalovun "Qayınana" musiqili komediyasında gəlin-qayınana, Süleyman Rəhimovun "Mehman" povestində kürəkən-qayınana problemi baş qaldırır. Hadisələrin gedişini yadınıza salmağa çalışın.

Bədii ədəbiyyatdan və həyat təcrübəsindən görünür ki, qayınata- gəlin münasibətləri gəlin-qayınana münasibətlərinə nisbətən ixtilafsız ötüşür. Qayınata bir çox hallarda hətta gəlinin müdafiəsində dayanır, gəlinlər də qayınataları özlərinə arxa, dayaq hesab edir, problem yarananda ondan kömək istəyirlər. Ona görə də gəlinlər demişlər:

Baldızıma Quran qənim olaydı,

Qayınanamı bağda ilan çalaydı,

Qayınatama Məkkə qismət olaydı.

Qayınatanın belə mövqeyi onun kişi xarakterindən irəli gəlir, təbiət tərəfindən ona verilmiş yüksək səviyyədən gəlinin gözləri qarşısında enmək istəmir, hətta bəzən gəlin-qayınana arasında yaranmış xoşagəlməz münasibətlərlə bağlı öz həyat yoldaşına acıqlanır da.

Gəlin - qayınana münasibətləri həmişə söhbət mövzusu olmuşdur. Diqqət yetirək: “Gəlin mənim süpürgəmdir, Hara qoysam oturar", "Ərə gedən qızların dilinin altında qənd gərək, qayınanalı gəlinin dilinin altında dola "Yanan anadır, yeyən qaynana", "Gəlinin dini yox, qayınananın imanı", "Ata evində - ögey ana, Ər evində - qayınana" (Azərbaycan atalar sözlərindən).

* Gəlin gəlir, xan gəlir,

Evləri yıxan gəlir

Əlində ülgüc, tiyə

Başları qırxan gəlir (Azərbaycan bayatılarından).

Baldızlarla müqayisədə qayın və gəlin münasibətləri də sakit ötüşür. Baldıza gəldikdə isə, ailədə gəlin-qayınana ixtilaflar yaran mışsa, baldızlar analarının tərəfində dayanır, qardaşı arvadları ilə dilləşirlər. Baldız gəlin münasibətləri də ailənin psixoloji iqliminin pisləşməsinə səbəb olur. Atalarımızın gəlin-baldız münasibətlərinə aid də fikirləri vardır.

**Ailənin büdcəsi**

Hər bir ailənin öz büdcəsi olur. Bəs ailənin büdcəsi necə formalaşır? Ata, ana, nənə, baba və bir uşaqdan ibarət ailə götürək. Bu ailədə ata yazıçıdır. O, əsərlər yazır və nəşriyyata təqdim edir. Nəşriyyat bu əsərləri çap edib əvəzində ataya qonorar, yəni zəhmət haqqı verir. Ana müəllimdir. Məktəbdə işləyir və aylıq maaş alır. Baba və nənə isə işləmirlər. Onlar əmək pensiyası alırlar. Oğlan universitet tələbəsidir. Yaxşı oxuyur və buna görə təqaüd alır. Evə gətirilən bu pullara ailənin gəliri deyilir. Bu ailədə hamının gətirdiyi pul bir yerə toplanıb ailənin büdcəsini yaradır.

Ailə büdcəsinə toplanan pul ailənin ehtiyaclarına xərclənir. Ailənin başçısı bu xərclərin gəlirdən çox olmamasına çalışır. Çünki büdcəsində toplanmış vəsaiti düzgün xərcləyən ailə zəruri ehtiyaclarını tam ödəyir və borca düşmür.

Elə ailələr var ki, gəlirləri az olsa da, öz tələbatlarını ödəyə bilirlər. Amma elə ailələr də var ki, ailə üzvlərinin hamısı qazanır, amma ailə yaxşı dolana bilmir. Bu niyə belə olur? Çünki birinci ailə xərclərinə qənaət edir. Yəni gündəlik ərzaqı lazım olandan artıq almır, evdə suyu, qazı, işığı boş-boşuna sərf etmir. İkinci ailə isə ərzaqı lazım olandan çox alır. Qazın, suyun, işığın işlənməsinə nəzarət etmir. Sonra artıq qalmış ərzaq köhnəlir və xarab olur. Bütün bunlara böyüklər nəzarət edir. Sən də böyüyüb ailə başçısı olanda, yəqin ki, gəlirini və xərcini düzgün böləcəksən. Bəs sən ailə büdcənizin artıq xərclərdən qorunması üçün indi nə edə bilərsən?

İlk növbədə nəzərə almalısan ki, boş yerə yanan qaz və elektrik cihazları, açıq qalan su kranı ailənin büdcəsinə çox ziyan vurur. Otaqdan çıxarkən işığı söndürmürsənsə və dişlərini fırçaladığın müddətdə suyu açıq qoyursansa, yaxud əllərini yuyandan sonra kranı yaxşı bağlamırsansa, ailənizin büdcəsinə ziyan vurmuş olursan.

Gündən-günə, aydan-aya artan bu ziyan ailə büdcənizin xeyli hissəsinin boş yerə xərclənməsi deməkdir. Bundan başqa, ailənin hər bir üzvünün özünəməxsus xərcləri olur. Hər bir ailə üzvü gərək öz xərclərini nəzarətdə saxlasın. Məsələn, sənin üçün alınmış məktəb ləvazimatından səliqəli istifadə etməlisən. Çünki səliqəsiz işlədilən hər şey tezliklə yararsız hala düşür. Onu yenisi ilə əvəz etdikdə isə əlavə pul xərcləmək lazım gəlir. Bu da ailə büdcənizə xeyli ziyan vurur.

Ailədə xərclər gəlirə uyğun bölünərsə, ailə normal yaşayır. Hətta ailənin gəliri xərclərindən artıq da ola bilər. Gəlir xərcdən artıq olanda isə pul ehtiyatı yaranır. Buna yığım deyilir. Ailə yığımın hesabına daha yaxşı yaşaya bilər. Bu pulla daha geniş mənzil, avtomobil və başqa qiymətli əşyalar almaq, səyahət etmək olar. Yaxud ehtiyacı olanlara yardım etmək, xeyirxah işlər görmək də mümkündür.

Ailə büdcəsi bütün ailə üzvlərinin pul və maddi aktivlərinin məcmusu, başqa sözlə, ailədə valideynlərin şəxsi büdcələrinin vahid bir yerdə toplanmasıdır.

Ailə büdcəsinin şəxsi büdcədən başlıca fərqi ondan ibarətdir ki, ailə büdcəsi ailənin iki üzvünün gəlirlərindən formalaşaraq dörd əsas istiqamətdə xərclənir. Şəxsi büdcə isə bir nəfərin gəlirindən formalaşaraq bir istiqamətdə - elə o adamın tələbatlarına xərclənir.

Statistik göstəricilərə əsasən orta səviyyədə yaşayan ailədə ailə büdcəsinin formalaşması və xərclənməsi məhz belə baş verir. Xüsusi hallarda bu sxemdə göstərilənlərdən kənaraçıxmalar ola bilər. Məsələn, ailə büdcəsinin gəlirləri ancaq bir nəfər ailə üzvünün gəlirindən ibarət ola bilər, ailədə uşaqlar olmadıqda onlara ayrılan xərclər ixtisar oluna bilər. Lakin istənilən halda ailə büdcəsini təşkil edən digər üç tərkib hissə qalacaq.

Ailə büdcəsi də şəxsi büdcə kimi aktiv və passivlərdən ibarətdir.

**Ailə büdcəsinin passivləri** şəxsi və ya borc nəticəsində (kredit təşkilatlarından və ya başqa insanlardan alınan borclar) əldə olunan vəsaitlərdir.

**Ailə büdcəsinin aktivləri** büdcə passivlərinin yerləşdirilməsi üsullarıdır. Şəxsi büdcədə olduğu kimi ailə büdcəsinin də bütün aktivlərini pul gəlirlərinə (ehtiyat, qənaət edilmiş vəsait, kapital, şəxsi ehtiyaclara lazım olan pul) və maddi gəlirlərə (ailənin əmlakına) ayırmaq olar.

Gəlirlər hər bir insanın qeyri-məhdud tələbatlarının bilavasitə mənbəyi olduğu üçün vacib rol oynayır.

**Ailə tərbiyəsinin hüquqi əsasları və vəzifələri**

Ailə münasibətlərinin tənzimlənməsi, əsasən, iki yolla həyata keçirilir:

a) əxlaq normaları və insanların birgəyaşayış qaydaları ilə;

b) hüquq normaları ilə.

Əxlaq normaları insanların çoxcəhətli münasibət, fəaliyyət və davranışını tənzimləyən qaydalardır. Əxlaqi tənzimləmənin əsasını qarşılıqlı hörmətə əsaslanan humanist münasibətlər təşkil edir. Ailədə humanist münasibətlərin əsas cəhətləri aşağıdakılardan ibarətdir:

-Ailəni, ailə münasibətlərini və hər bir insanı başlıca dəyər kimi qəbul etmək;

-Ailəni gözəllik, xeyirxahlıq, doğma ocaq kimi dəyərlərə istiqamətləndirmək;

-hər kəsin özünəməxsus rəyə, baxışlara, adət və ənənəyə malik olmaq hüququnun bütün ailə üzvləri tərəfindən qəbul edilməsi;

-qarşılıqlı münasibətlərdə, o cümlədən ailə münaqişələrinin həllində dialoqa əsaslanmaq: hər cür zorakılıq formalarından imtina etmək, etik və sosial normalara tam riayət etmək;

-ailənin hər bir üzvünün şəxsiyyət və fərdiyyət kimi inkişafı üçün əlverişli maddi və mənəvi şərait yaratmaq;

-ailə münasibətlərinin qarşılıqlı anlama, etimad, inam, qarşılıqlı güzəşt, hörmət və qayğı, əməkdaşlıq əsasında tənzimlənməsi;

-xarici mühitin neqativ təsirləri ilə qarşıdurmada həmrəylik və dayanıqlılıq göstərilməsi;

-ailədə sağlam mənəvi-psixoloji, emosional mühitin yaradılması, mədəni davranış və nəzakət qaydalarının gözlənilməsi, hər işdə haqqın və ədalət hissinin əsas tutulması, ifrat qısqanclığa, bezdirici tənbeh və iradlara, söz-söhbət və öcəşmələrə yer verilməməsi və s. Ailədə münasibətləri əxlaqi normalarla tənzim- lənməklə yanaşı, **hüquq normaları ilə tənzimlənir**. Ailə məcəlləsi ailə münasibətlərini tənzimləyən əsas hüquqi sənəddir. O, ailə münasibətlərinin müxtəlif istiqamətlərində hüquq normalarını əks etdirir:

-ümumi müddəalar (ailə qanunvericiliyi, ailə hüququnun həyata keçirilməsi və müdafiəsi);

- nikahın bağlanması və ona xitam verilməsi (şərtləri və qaydaları);

-ər və arvadın hüquq və vəzifələri (ər və arvadın şəxsi hüquq və vəzifələri, öhdəliklər üzrə məsuliyyəti və b.);

- valideyn və uşaqların hüquq və vəzifələri;

- ailə üzvlərinin alimentlə bağlı vəzifələri;

-valideyn himayəsindən məhrum olan uşaqların tərbiyəsi formaları (belə uşaqların aşkar edilməsi və yerləşdirilməsi, uşaqların oğulluğa (qızlığa) götürülməsi, onlar üzərində himayə və qəyyumluq və s.)

Nikaha girməklə ər-arvadın hüquq və vəzifələri meydana gəlir. Azərbaycan Respublikasının Əsas Qanunu ər-arvadın hüquq bərabərliyini elan edir. Bu, əsas götürülməklə ər və arvad ailə münasibətlərində, şəxsi və əmlak münasibətlərində bərabərdirlər. Atalıq, analıq, uşaqların təhsili və tərbiyəsi, həmçinin ailə ilə bağlı digər problemlər ər və arvadın hüquq bərabərliyi əsasında birlikdə müzakirə və həll olunur. Ər və arvad qarşılıqlı hörmət, qarşılıqlı kömək prinsipi üzrə öz münasibətlərini qurmalı, nikahın uğurlu, ailənin möhkəm olması, uşaqların düzgün tərbiyə almasına çalışmalı Və onların sağlamlığına qayğı göstərməlidirlər. Respublikamızın Ailə məcəlləsinə görə, ər-arvad özlərinə sənət və məşğuliyyət, eyni zamanda yaşayış yeri seçmək azadlığına malikdirlər. Birgə ailə həyatı dövründə kişi və qadının əldə etdikləri əmlak, eləcə də nikah müddətində hədiyyə, yaxud vərəsəlik şəklində əldə etdikləri əmlak onların birinin ayrıca mülkiyyəti sayılır. Azərbaycan Respublikasının Ailə Məcəlləsi ər və arvadın hüquq və vəzifələri ilə yanaşı həm də bir ata və ana kimi onların valideynlik hüququ və vəzifələrinə ay- dınlıq gətirir. Valideynlərin öz övladları ilə bağlı eyni, bərabər hüququ və vəzifələri elan edilir. Qanunvericilik, habelə yetkinlik yaşına çatmayan vali- deynlərin hüquqlarına da münasibət bildirir. Belə ata-analara uşaqları ilə birlikdə yaşayıb onların tərbiyəsi qayğısına qalmaq hüququ verilir. Valideynlərin öz uşaqlarının tərbiyəsi və təhsili ilə məşğul olmaq hüququ vardır və həm də bu iş onların bilavasitə vəzifəsidir. Ata və analar övladlarının tərbiyəsi, sağlamlığı, psixi, fiziki və mənəvi inkişafı üçün məsuliyyət daşıyırlar. Bundan başqa, valideynlər uşaqların hüquq və mənafelərinin müdafiəsində də durmalıdır. Valideynlik hüquqları uşaqların mənafeyi əleyhinə yönəlməməlidir. Buna mütləq diqqət yetiril- məlidir.Əsas Qanunumuzun "Nikah hüququ" adlanan 34-cü maddəsində belə bir bənd də yer alır: "Valideynə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar". Beləliklə, valideynlər övladlarının, övladlar isə ata-analarının qayğısına qalmalı, bir-birinə mənəvi və maddi dayaq olmalıdırlar. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 32 maddəsi “Ər- arvadın birgə mülkiyyəti" adlanır. Bu maddədə qeyd olunur:

32.1. nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümimi birgə mülkiyyəti sayılır.

32.3. nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzrlü səbəblərə görə müstəqil qazancı olmayan ər (arvad) də ümimi əmlak üzərində hüquqa malikdir.

Ailə Məcəlləsi ər və arvadın hüquq və vəzifələri ilə yanaşı, həm də bir ata və ana kimi onların valideynlik hüququ və vəzifələrinə aydınlıq gətirir. Ailə Məcəlləsinin 56 maddəsində qeyd edilir ki,

56.1. Valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malik- dirlər.

56.2. Uşaqlar yetkinlik yaşına çatdıqda, yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda valideynlərin öhdəliyində olan hüquq və vəzifələrə xitam verilir.

Qanunvericilik, habelə yetkinlik yaşına çatmayan valideynlərin hüquqlarına da münasibət bildirir. Belə ata-anaya uşaqları ilə birlikdə yaşayıb onların tərbiyəsi qayğısına qalmaq hüququ verilir.

Valideynlərin öz uşaqlarının tərbiyəsi və təhsili ilə məşğul olmaq hüququ vardır və həm də bu iş onun bilavasitə vəzifəsidir. 58-ci maddədə qeyd olunur:

58.1. Valideynlər uşaqlarını tərbiyə etmək hüququna malikdirlər.

58.2. Valideynlər uşaqlarının tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıyırlar.

58.4. Valideynlər uşaqlarının əsas ümumi təhsil almasını təmin etməyə borcludurlar.

Ailədə uşağın doğulması ilə onun hüquqları yaranır. Ailə Məcəlləsində nəzərdə tutulduğu kimi, yetkinlik yaşına çatmayan (18 yaşına) və tam fəaliyyət qabiliyyətinə malik olmayan şəxslər uşaq sayılır. Uşaqlar ailədə yaşamaq, tərbiyə almaq, ata-ana nəvazişindən, köməyindən istifadə etmək, valideynləri ilə birgə yaşamaq hüququna malikdirlər. Uşaqların ailədə öz maraqlarını təmin etmək, öz ləyaqətinə hörmət olunmasını tələb etmək hüququ vardır. Ailə məcəlləsinin 50-ci maddəsi "Uşağın öz valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququ" adlanır. Bu maddənin 2-ci bəndində deyilir:

50.2. valideynlərinin nikahının pozulması və ya etibarsız sayılması, valideyn- lərinin ayrı yaşaması uşağın hüquqlarına təsir etmir.

50.3. valideynlər ayrı yaşadıqda uşaq onların hər biri ilə ünsiyyət hüququna malikdir.

Uşaqlar ailədə yaşamaq, tərbiyə almaq, ata-ana qayğısından və nəvazişindən və köməyindən istifadə etmək, valideynləri ilə birlikdə yaşamaq hüququna malikdirlər. Uşaqların ailədə öz maraqlarını təmin etmək, öz ləyaqətinə hörmət olunma- sını tələb etmək hüququ vardır. Ailə Məcəlləsində "Uşağın öz valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququ" adlı xüsusi maddə vardır (maddə 50).İxtilafların yarandığı bəzi ailələrdə uşaqlara öz baba-nənələri, əmi, dayı, xala və bibiləri, onların övladları ilə görüşməyi qadağan edirlər. Əslində isə buna yol vermək olmaz. Uşaqlar öz baba və nənələri, qardaş və bacıları, ata və ananın qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir. Bəzən boşanmadan sonra uşağa müəyyən qadağa qoyulur. Hətta atası (yaxud anası) ilə görüşüb danışmağa qoymurlar. Əslində isə bu, qeyri-qanuni bir haldır. Uşağın öz hüquqlarını və qanuni mənafelərini müdafiə etmək, öz fikrini bildirmək, ad, ata adı və soyadı daşımaq, adını və soyadını dəyişdirmək və əmlak hüquqları vardır

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun "Xəbərlər" jurnalı, №4, 2008, s.41-44.

## MÖVZU İLƏ BAĞLI ELEKTRON RESURSLAR

**https://www.scribd.com/document/675009753/muhazir%C9%99l%C9%99r**

**https://portal.azertag.az/az/node/19403**

**http://www.e-derslik.edu.az/books/477/units/unit-1/page13.xhtml**

## Mühazirə 10: Ailə tərbiyəsinin sosial-pedaqoji məsələləri

**PLAN:**

**1.Uşaqların ailə tərbiyəsində sosial amillərin rolu**

**2.Ailədə uşağın sosiallaşması**

**3.Tərbiyə işində valideyn-övlad münasibətləri**

**4.Ailə tərbiyəsinin pedaqoji prinsipləri**

**5.Tərbiyə işində valideyn-övlad münasibətlərinin pedaqoji əsasları**

Ailədə uşaqların tərbiyəsində aşağıdakı pedaqoji prinsip-lərə əməl edilməlidir:

1. **Uşaqların yaş, cinsi və psixoloji xüsusiyyətlərinin nəzərə alınması prinsipi.** Bəzi valideynlər uşağın hansı yaşda olduğuna fikir vermir, kiçiyə də, böyüyə də eyni tələbkarlıqla yanaşırlar. Əgər uşaqlar evdə səs salır, heç cür sakitləşmirsə, ata, yaxud ana mübahisəni kəsmək üçün onların hər birinə eyni tərzdə ciddi təsir göstərir. Bu ciddilik uşaqların hər birinə müxtəlif cür təsir göstərir. Böyük yaşlı uşaqlar bu münasibəti adi qarşılayır, kiçik yaşlılar özlərini yığışdırır, lap balacalar isə ağlamsınıb dururlar. Demək tələb yaşa uyğun olmalıdır.
2. **Ailə tərbiyəsində uşaqların temperament tipləri nəzərə alınmalıdır.** Temperament tiplərindən asılı olaraq, hər bir oğlan və ya qıza necə yanaşmaq, onun hisslərini düzgün qiymətləndirmək asanlaşır.

"Temperament" sözünün latın dilində hərfi tərcüməsi "hisslərin lazımi qarşılıqlı nisbəti" deməkdir.Yunan həkimi Hippokrat (V-IV əsr) tətbiq etmişdir. Temperament dedikdə o insanın həm fərdi anotomik-fizioloji, həm də psixoloji xüsusiyyətlərini nəzərdə tutmuşdur. Temperament tiplərinə Hippokratın verdiyi sanqvinik, xolerik, fleqmatik və melanxolik adları müasir pedaqogika və psixologiya elmində indi də işlənilməkdədir.

Temperament insanın elə bir anadangəlmə xüsusiyyətləridir ki, onlar intensivliyin, təsirə cavab vermə sürətinin dinamik xarakteristikalarını, emosional qıcıqlanma və tarazlıq dərəcəsini, ətraf mühitə uyğunlaşma xüsusiyyətlərini şərtləndirir:

Sanqvinik tip – qüvvətli və müvazinətli, canlı, zirək, diribaş, fəal və təşəbbüskar, işgüzar, tələskən, şəraitə tez alışan, emosional, yaddaşları bir qədər zəif ; Xolerik tip – qüvvətli, ünsiyyətli, coşğun, çılğın, emosional, inadkar, bəzən aqressiv, müvazinətsiz, hövsələsiz;

Fleqmatik tip – qaradinməz, təmkinli, ədalətli, sakit, ağır davranışlı, az ünsiyyətli;

Melanxolik tip – sakit, zəif, qapalı, səbrli, kədərli, düşüncəli, həssas, pessimist, yüksək yaddaş.

Valideyn ailədə öz övladları ilə tərbiyə işi apararkən göstərilən temperament tiplərinə uyğun şəkildə hərəkət etməlidir.

3. **Fərdi yanaşma prinsipi.** Ailədə tərbiyə vasitələri seçərkən uşağın fərdi xüsusiyyətlərini nəzərə almaq lazım gəlir. Bəzi şəxslər fərdi yanaşma və fərdi tərbiyəni bir-biri ilə eyniləşdirirlər, halbuki onlar arasında fərq vardır. Fərdi tərbiyə təklikdə tərbiyə etməyi nəzərdə tutur, fərdi yanaşma isə uşağın fərdi xüsusiyyətlərini nəzərə almağı tələb edir.
4. **Hörmət və tələbkarlıq prinsipi.** Valideynlər uşaqlarına yaşlarından asılı olmayaraq onlara hörmət etməli, onların şəxsiyyəti, fikri, düşüncəsi ilə hesablaşmalıdırlar. Bəzi vali-deynlər övladlarına yalnız tələbkarlıq göstərir, onlara hörmətlə yanaşmağın lazım gəldiyini unudurlar. Uşaq nə qədər nadinc, sözəbaxmayan, davakar olsa belə, valideyn onunla mərifətli, nəzakətli və mədəni davranmalı, pedaqoji etikanın tələblərini pozmamalıdır.
5. **Tərbiyəvi təsirlərdə vahidliyin gözlənilməsi prinsipi.** Bir çox hallarda ailə üzvləri bu prinsipə əməl etmirlər. Ata tərəfindən uşağa verilən tapşırıq, bəzən ana tərəfindən pozulur, yaxud da əksinə olur. Ailə üzvləri arasında uşağa hamı vahid tələbkarlıqla yanaşmalıdır.
6. **Sistemlilik və ardıcıllıq prinsipi.** Ailədə tərbiyə işləri müəyyən sistem və ardıcıllıqla aparılmalıdır. Bu işlə hər gün, hər saat, hər an, müntəzəm şəkildə məşğul olmaq lazımdır. Sistemsizlik, nəzakətsizlik tərbiyənin uğurla aparılmasına maneçilik törədir. Sistemlilik o deməkdir ki, həyata keçirilən hər hansı bir tədbir bir-birini tamamlasın, tərbiyəvi təsirlər zamanı vahidlik gözlənilsin.
7. **Ailə münasibətlərində nikbinlik prinsipi.** İlk növbədə valideynlər öz övladlarına həmişə yaxşı nəzərlərlə baxmalı, övladlarının işlərinə şübhəli baxmamalıdır.

Valideynlər uşaqlarını ruhlandırmalı, həvəsləndirməli, onlara inam göstərməlidirlər. Ailə üzvləri də bir-birlərinə qarşı yaxşı, nikbin münasibətdə olmalı və qarşılıqlı inam, etibar, hörmət ailədə hökm sürməlidir.

8. **Ailədə böyüyən insana humanist və qayğıkeş münasibət prinsipi.** Ailədə böyüyən uşaqlara valideynlər humanist, qayğıkeş münasibət bəsləməli, yaxşı nə varsa hamısı ilk növbədə uşaqlar üçün nəzərdə tutulmalıdır. Valideynlər övladlarının xoşbəxt, sağlam böyümələri üçün onlara hər zaman qayğıkeş münasibətdə olmalıdırlar.
9. **Uşaqların hamısını bərabərhüquqlu görmək və ailənin həyat fəaliyyətinə onları cəlb etmək prinsipi. A**ilənin bütün üzvləri bərabərhüquqludurlar. Valideynlər övladları arasında ayrıseçkilik etməməli, birini, o birindən üstün görməməli, birini tərif edib, o birini məzəmmət etməməli, hamısına eyni münasibət, eyni rəftar göstərməlidir. Ailə üzvləri ailənin bütün işlərinə cəlb edilməli, ailənin problemləri ailə üzvləri ilə birlikdə müzakirə edilib həll edilməlidr. Övladlar ailə işlərinə həmişə cəlb edilməli, ailə problemlərinin həllinə kömək etməlidirlər.
10. **Tələblərdə ardıcıl olmaq və mümkün olmayanı tələb etməmək prinsipi.** Ailədə uşaqlara müəyyən tələblər də verilir, müəyyən qaydalara əməl etməsi də tələb olunur. Bu ailətərbiyəsinin mühüm şərtlərindən biridir. Valideynlər uşaqlara verilən tələblərdə ardıcıl olmalı, onların yerinə yetirilməsinə nəzarət etməlidirlər.

Əlbəttə, tələblər də uşaqların gücünə, yaşına, sağlamlığına, psixologiyasına uyğun olmalıdır.

Bu prinsiplərdən başqa, bir sıra **xüsusi prinsiplər** də vardır ki, onlar da ailə tərbiyəsi üçün mühüm qaydalardır:

1.Ailədə fiziki və psixoloji təsirlərin qadağan edilməsi prinsipi.

2.Başqalarının, ailə üzvlərinin məktub və gündəliklərini oxumağın, telefon söhbətinə qulaq asmağın qadağan edilməsi prinsipi.

3.Ailədə çox danışmağın, ucadan danışmağın qadağan edilməsi prinsipi. 4.Uşaqları hədələməyin qadağan olunması prinsipi .

5. Ailədə erkən oyanma qaydasına əməl etmək prinsipi.
6. Ailədə səhər idmanı ilə məşğul olmaq prinsipi.
7. Ailədə yediyini yığışdırmaq, yatağını səliqəyə salmaq prinsipi.

Bu prinsiplərə, buna ailə qaydaları da demək olar - ailədə ciddi riayət edilməsi tərbiyənin düzgün qurulmasına xeyli kömək edər.

Deməli, ailə tərbiyəsinin məqsədi şəxsiyyətdə müsbət keyfiyyətləri formalaşdırmaqdır ki, onlar uşağın inkişafında yaranan çətinlikləri vaxtında dəf etməyə imkan yaradır.

İntellektin inkişafı, yaradıcı bacarıqlar, qabiliyyət, ilkin əmək fəaliyyəti təcrübəsi, mənəvi və estetik cəhətdən formalaşma, mədəniyyət və uşaqların fiziki sağlamlığı, onların xoşbəxtliyi-bütün bunların hamısı ailədən, valideynlərdən asılı olmaqla ailə tərbiyəsinin əsasını təşkil edir. Valideynlər birinci tərbiyəçilər kimi uşaqlara daha güclü təsir etmək qüvvəsinə malikdir.

Ailə tərbiyəsinin öz metodları vardır. Bunların sırasında şəxsi nümunə, birlikdə müzakirə, inam və etibar, sevgi-məhəbbətin büruzə verilməsi, bu və ya digər işlə bağlı ailə üzvünün qayğısına qalma, nəzarət, yumor və zarafatlar, ənənələr, təriflƏmələr mükafatlandırma və s. ola bilər. Burada seçim yalnız konkret situativ şərait nəzərə alınmaqla fərdi şəkildə həyata keçirilə bilər.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3. Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4. Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5. Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6. Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun "Xəbərlər" jurnalı, №4, 2008, s.41-44.

**Mühazirə 11: Ailədə hərtərəfli şəxsiyyət yetişdirmək bir sistem kimi**

**PLAN:**

**1.Ailədə mənəvi və əxlaq tərbiyəsi**

**2.Ailədə əməksevərlik tərbiyəsi**

**3.Ailədə fiziki sağlamlıq işləri və estetik tərbiyə**

**4.Ailədə  ekoloji və iqtisadi tərbiyə**

Ailə bir-biri ilə məişət birliyi və qarşılıqlı məsuliyyətlə bağlı olan adamların nikah və ya qan qohumluğuna əsaslanan birliyidir. Ana, ata, bacı, qardaş - bizim ailə dünyamızın acılı-şirinli xatirələri bu doğma adamlarla bağlıdır. Biz övladlıq, qardaşlıq və bacılıq hissi ilə onlarla ömürlük bağlıyıq. Ailə həm də cəmiyyətin ilkin özəyi, onun sosial strukturunun ünsürlərindən biridir.

Ailə həm də qarşılıqlı məhəbbət, inam, etibar və hörmətə əsaslanan birlikdir. Məsələyə daha dərindən yanaşdıqda isə ailə özlüyündə kiçik bir dövləti xatırladır. Dövlətdə dövlətin başçısı, dövlətin idarə olunmasında iştirak edənlər, onun vətəndaşları olduğu kimi, bu struktur eynilə ailəyə də aiddir.

Ailə münasibətlərində cəmiyyətin bütün ünsürləri öz ifadəsini tapır. Ailə həmçinin insani münasibətlərin ilk aşılandığı məktəbdir. Demək olar ki, ilk əxlaqi təcrübə, yaxşı, pis, sevgi, nifrət, mərhəmət, xeyirxahlıq və s. bu kimi xüsusiyyətlər məhz birinci ailədə təşəkkül tapır və sonra cəmiyyətə daxil olur.  Ailə - insanın bir şəxsiyyət kimi yetişməsində böyük rol oynayır. O cümlədən uşaq şəxsiyyətinin formalaşmasında da ailənin rolu əvəzsizdir.

Hər bir şəxsin sonrakı taleyi, həyatda tutacağı mövqe ailə tərbiyəsi ilə bilavasitə bağlıdır.

İnsanların ən ləyaqətlisi və ən yetkini əxlaqı gözəl olanlar və ailə üzvlərinə ehtiramla yanaşanlardır. Ailədə uşaqların tərbiyəsi qayğısına qalmaq valideynlər üçün ən qiymətli sərvət hesab olunur. Buna görə də valideynlər ilk gündən övladlarına düzgün tərbiyə verməlidirlər. Peyğəmbərimizin (s.ə.s.) söylədiyi kimi: “Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz”.

Görkəmli Çex pedaqoqu Yan Amos Komenski “Böyük didaktika” adlı əsərində qeyd edir: “Qoy valideynlərin, süd analarının, müəllimlərin, yoldaşların ləyaqətli həyat nümunələri gənclər qarşısında şəfəq saçsın.

Axı, uşaqlar meymundurlar: onlar yaxşı və ya pis nə görsələr, kənardan təhrik olmasa da onu təqlid etməyə can atacaqlar. Bu yolla onlar dərk etməzdən əvvəl, təqlid etməyi öyrənirlər. Mən bu zaman istər həyatdan və istərsə də tarixdən götürülmüş nümunələri nəzərdə tuturam və ilk növbədə həyatdan alınmış nümunələri əsas götürürəm, çünki onlar uşaqlara yaxındır və daha qüvvətli təsir edir. Beləliklə, hər kəsdən əvvəl, qoy valideynlər özləri ev intizamını ciddi gözləsinlər; müəllimlər isə qoy adamlar içərisində öz əxlaqı ilə fərqlənən yaxşı adamlar olsunlar; şagirdləri ən namuslu həyat üçün hazırlamaqda bu ən təsirli gözəl vasitədir”.

Valideyn və müəllim simasının uşaqlara təsiri böyükdür. Balaca uşağın davranışı ata-ananın, böyük qardaş və bacının təqlidi əsasında qurulur. Valideynlər yaxşı nümunə göstərməklə öz uşaqlarına müsbət təsir göstərə bilərlər. Onların mənəvi səxavətliliyi uşaqlarda da belə əxlaqi keyfiyyət doğura bilər. Uşaq saxta və yalanı bağışlamır. Öz uşaqlarına nümunə olmaq üçün valideynlər özləri mənəvi cəhətdən  mürəkkəb və çətin olan bir problemlə üzləşir. Biz özümüzü tərbiyə etməmiş, öz uşaqlarımızı və ya başqa birisini tərbiyə etmək istəyirik. Əgər başa düşsək ki, başqalarını yalnız öz timsalımızda  tərbiyə edə bilərik. O zaman tərbiyə haqqındakı məsələ həll

edilər və bir məsələ qalar. Özüm necə yaşamalıyam? Uşaqların tərbiyəsində elə bir sahə yoxdur ki, orada öz nümunəmiz önə çıxmamış olsun.

Tarixin hər bir dövründə bütün cəmiyyətlərdə insanları düşündürən, narahat edən bir sual olmuşdur: "Övladlarımızı neçə tərbiyə edək?" Uşaqları necə böyüdək ki, vicdanlı, əməlisaleh, cəmiyyət üçün xeyirli olsunlar? Uşaqlarımzdan ötrü xəcalət çəkməmək üçün, onların bizə başuçalığı və şərəf gətirməsi üçün nə etməliyik?

Bu sualı cavablandırmaq üçün indiyə kimi minlərlə əxlaqi kitablar yazılıb, tövsiyələr edilib. Övlad tərbiyəsinin ən mühüm cəhətlərini hər alim fərqli şəkildə təhlil edib. Amma hamının razılaşdığı bir fikir var. O da bundan ibarətdir ki, övlad tərbiyəsində ən mühüm rolu valideynin şəxsi nümunəsi oynayır. Tərbiyənin sirləri nə qədər çoxsaylı olsa da, onların açarı ananın və atanın əlindədir.

Hamımız buna şahidik ki, ailədəki uşaqlar öz ata-analarını təqlid etməyi xoşlayırlar. Dəfələrlə uşaqların dilindən eşitmişik ki, onlar da böyüyəndə valideynlərinə oxşamaq istəyirlər. Məsum körpənin qəlbindən süzülən bu fikir, yəni valideynə bənzəmək arzusu həm də valideynə öz məsuliyyətini xatırlatmaq üçün bir xəbərdarlıqdır.

Ata və ya ana öz övladını nə cür görmək istəyirsə, onun gözləri qarşısında özü də o cür görünməlidir. Valideyn bir güzgüdür; amma elə güzgüdür ki, ona baxan və ondan öyrənən uşağı dəyişdirmək, özü kimi etmək gücünə malikdir. Valideynin mütləq riayət etməli olduğu bir neçə cəhət vardır. Amma onların hər biri barəsində ayrı-ayrılıqda şərh vermək olar. Bu cəhətlərin bir neçəsinə diqqət yetirək.

Valideyn heç vaxt uşağa yalan danışmamalıdır, heç zaman özü etmədiyi işi ondan tələb etməməlidir. Hətta uşağa hər hansı mükafat vəd edərkən belə. Uşaq ata-anadan  yalan görərsə, əvvəla, qəlbi onlardan sınar. İkincisi, onun özündə də yalançılıq xasiyyəti yaranar; axı yalan danışmaq pis iş olsaydı, onun nümunə kimi qəbul etdiyi valideynləri bunu etməzdilər. Valideyn öz övladına hər hansı əməlin pis olduğunu söyləyirsə, özü də bu əməli etməməlidir. Əks halda, onun nəsihətlərinin heç bir kəsəri olmayacaqdır. Əgər ana-ataya hörmət göstərməyi uşaqdan tələb edirsə, amma özü evdə əri ilə kobud davranırsa, təbii ki, onun dedikləri uşaqda heç bir təsir yaratmayacaqdır. Ata halal-haramı gözləmək barədə uşağa hər gün nəsihət verirsə, amma özü küçədə rastına çıxan pul qabını onun gözü qarşısında götürüb mənimsəyirsə, uşaq bu barədə nə düşünəcək? Yalnız valideyn deyil, uşağın tərbiyəsi və təlimi ilə məşğul olan hər kəs öz davranışına diqqət yetirməli, uşaq tərəfindən izləndiyini unutmamalıdır. Bu rəvayət yəqin ki, çoxlarına məlumdur. "Bir gün bir ana uşağını Peyğəmbərin yanına gətirib o həzrətdən xahiş edir: "Mənim oğlum xurma yeməyi çox xoşlayır. Amma görürəm ki, xurma onun sağlamlığına mənfi təsir göstərir. Sizdən xahiş edirəm, oğluma tapşırın ki, xurma yeməsin. O, Sizi çox sevir, əgər Siz ona tapşırsanız, sözünüzdən çıxmaz". Ananın təəccübünə rəğmən Peyğəmbər uşağa heç nə demir, anadan xahiş edir ki, uşağı da götürüb getsin, sabah yenə gəlsinlər. Ertəsi gün gələndə isə Peyğəmbər sadəcə olaraq üzünü uşağa tutub buyurur: "Xurma sənin üçün ziyandır. Bundan sonra xurma yemə". Hadisəni təəccüblə seyr edən ana soruşur: "Ey Allahın Rəsulu! Əgər məsələ bununla bitirsə, niyə bu sözləri dünən demədiniz, işi bu günə saxladınız?". Peyğəmbər

mehribanlıqla cavab verir: "Dünən mən özüm də xurma yemişdim, fikirləşdim ki, bu halda sözümün təsiri olmayacaq. Bu gün isə xurma yemədim ki, uşaqdan bunu istəməyə haqqım olsun".

Uşaq öz valideynlərinə hörmət edərək məsləhətinə və tələblərinə qulaq asırsa, deməli, ailədə valideynin nüfuzu var. Əks təqdirdə isə valideynin nüfuzu ailədə bir o qədər də böyük deyildir. Nüfuz valideynin şəxsi keyfiyyətlərinin və həyat təcrübəsinin yüksək mənasıdır və valideyn təsirinin gücü buna əsaslanır.

Bir sıra valideynlər qəsdən bilə-bilə özləri ilə uşaqlar arasında süni surətdə uzaqlıq yaradırlar. Bu əsasla onlar düşünürlər ki, bununla özlərinə hörmət qazanır və öz nüfuzlarını yüksəldirlər. Bu cür quru münasibət nüfuz deyildir. Yalnız xoş xasiyyətlilik, xoşrəftarlıq və həssaslıq uşaq qəlbində öz canlı əks sədasını tapır. Bir sıra valideynlər isə uşaqları ələ almaqla onlara təsir edirlər. Uşaqlar belə rəftar edən valideynləri zəif və aciz hesab edirlər. Bəzi ailələrdə isə uşaqları əzizləməklə onların şıltaqlıqları ilə oturub durmaqla, onların əvəzinə hər şeyi etməklə və onlardan heç bir şey tələb etmədən uşaqlara münasibət bəslənilir. Kor-koranə valideyn məhəbbətinə əsaslanan bu cür münasibət ailədə böyüyən uşaqda ərköyünlülük, daş qəlblilik yaradır ki, bununla da onlar valideynlərinə hörmət etmirlər.

Yaxşı ailədə valideyn və övlad arasında səmimi və dostluq münasibəti olur. Belə ailələr uşağa gündən-günə böyüməkdə olan bir insan kimi baxır və onun ləyaqət və şəxsiyyətinə hörmət edirlər. Valideynlər öz uşaqlarına öz həyat təcrübələrini, öz qəlblərinin gözəlliklərini verirlər. Uşaqlar böyüdükcə özləri təcrübə və həyat müşahidəsi əldə edir. Bu və ya digər məsələyə tənqidi münasibət bəsləyirlər. Valideynlərinin hərəkətini öz təsəvvürləri ilə tutuşdururlar. Ata-ananın həyatında, rəftarında öz mənəvi idealını görmək hər uşaq üçün böyük səadətdir. Valideynlərində belə keyfiyyətləri görmədikdə uşaq ağır ümidsizliyə düçar olur. Uşaqlar öz valideynlərinin, onların adamlara olan xoşrəftarına görə, namuslu və xeyirxahlığına görə, mənəvi gücünə, bacarıqlı və zəhmətkeş olduğuna görə sevir və hörmət edirlər.

Oskar Uayld uşaqların tərbiyəsi ilə bağlı fikirlərini belə ifadə edir**: "Uşağa buyurmaq yox, öyrətmək, idarə etmək yox, istiqamət vermək, əmr etmək yox, məsləhət vermək, öyüd vermək yox, sübut etmək lazımdır..."**

Uşaqlar ailənin, ata və ananın güzgüsüdür. Valideynin şəxsi nümunəsi tərbiyə işində son dərəcə böyük rol oynayır. Uşaqlar ata və analarının timsalında sosial təcrübələri mənimsəyirlər. Belə ki, valideynlər özlərinin zahiri görkəmləri, dünyagörüşləri, maraq və meyilləri ilə gənc nəslə mühüm təsir göstərirlər. Üstəlik, uşağın yaşı nə qədər azdırsa, valideynin şəxsi nümunəsi o qədər əhəmiyyətlidir.

Təsadüfi deyil ki, görkəmli rus pedaqoqu B.A.Suxomlinski tərbiyədə ailənin, valideynlərin rolundan bəhs edərək göstərirdi ki, yeniyetmələrin əxlaqi siması insanın uşaqlıq illərində necə tərbiyə olunmasından, anadan olandan 10-11 yaşına kimi onun qəlbinə nə qoyulmasından asılıdır.

Televiziya kanallarında dramatik ailə səhnələrinə tez-tez rast gəlirik. Bir də görürsən ki, hansısa kanalda ata-anasını axtaran, göz yaşları içində boğulan qız uşağını göstərirlər. Başqa bir kanalda övladları tərəfindən atılmış gözüyaşlı bir ananı “təqdim edirlər”. Digər kriminal xəbərdə bir-birini bıçaqlayan ata-oğuldan danışırlar və s.

Bütün bunlar gündəlik xəbərlərdir və demək olar ki, hamımıza psixoloji təsir edir. Demək ətrafımızda, qonşuluğumuzda, ailələrdə çox böyük sosial aşınmalar var. Ona görə də bu gün ailə məsələləri hamının, xüsusilə də, cəmiyyətin və dövlətin diqqət mərkəzində dayanan strateji bir məsələyə çevrilməkdədir. Yuxarıda sadalanan hadisələrin səbəblərini ailələrdə əxlaqi dəyərlərin itməsində görmək olar.

Yer üzündə yaşından, cinsindən, irqindən, milliyyətindən, təhsilindən, tutduğu vəzifədən asılı olmayaraq hər bir şəxs üçün ən əziz, ən yaxın, ən doğma və ən ülvi varlıq məhz anadır! Bizdə olan ən yaxşı keyfiyyətləri, cəhətləri məhz anamızdan əxz edirik. Ömrümüzün ilk günlərindən ana qayğısı, mehribanlığı, nəvazişi, hərarəti, yorulmaz əməyi, dözümü bizi günəş şüası kimi əhatə etmişdir. Ana fədakarlığı yenilməzdir. Böyüyüb başa çatsaq, yaşa dolsaq, oğul-uşaq sahibi olsaq da, ana qayğısı, narahatlığı üstümüzdən əksik olmur. Ən ağır dəqiqələrimizdə yanımızda anamızı görmək istəyirik. Sevincimizə də ilk növbədə şərik olan, ürəyi dağa dönən ana olur!

Həyatımızın ilk günlərindən ana bizə heç də yalnız dayə deyil, həm də yaxın yoldaş, dost, hami, tərbiyəçi, sirdaş olmuşdur. Bütün şəxsi keyfiyyətlərin təşəkkül tapmasında ananın xüsusi payı vardır. Uşaqların namuslu, vicdanlı, əməksevər, vətənpərvər, əxlaqlı, yüksək mənəviyyatlı böyümələrində ana nümunəvi əvəzedilməz şəxsdir. Ana erkən yaşlarından öz qızında evdarlıq səriştəsi yaratmalıdır. Hər bir qız mənzil yığışdırmağı, xörək bişirməyi, paltar və döşəmə yumağı, ütüləməyi, tikiş tikməyi hələ məktəb yaşlarından öyrənməli, süfrə açmağı, qonaqlara xidmət göstərməyi, şirniyyat, kompot, mürəbbə bişirməyi bacarmalı, ümumiyyətlə, evdarlıq qabiliyyətinə yiyələnməlidir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI


1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun “Xəbərlər” jurnalı, №4, 2008, s.41-44

**Mühazirə 12: Mədəni davranış və ailədə onun təzahür formaları**

**PLAN:**

**1. Ailədə mədəni davranış qaydaları**

**2. Ailə tərbiyəsində mədəni davranış nümunələri**

**3. Ailə üzvləri arasında ünsiyyət mədəniyyəti**

**4. Ailədə uşaqların mədəni vərdişlərə alışdırılması**

**5. Müxtəlif yerlərdə mədəni davranış normaları**

İctimai mühitdə yaşayan insan istər-istəməz cəmiyyət üzvləri ilə qaynayıb-qarışmalı və ünsiyyətdə olmalıdır. Bu ona görə lazımdır ki, hər şəxs öz ictimai vəziyyətini qoruyub saxlasın, maddi vəziyyətini və tərəqqisini günbəgün artırsın və həyat çətinliklərini daha yaxşı şəkildə həll etsin. Bunun üçün insan ətrafındakı adamlarla elə rəftar etməlidir ki, onların hörmətlərini qazansın, özünün ictimai mövqeyini yüksəltsin.

Bu kimi keyfiyyətlərin qazanılması üçün tərbiyə işi uşaq yaşlarından düzgün təşkil edilməlidir. "Uşaq elə tərbiyə edilməlidir ki, rəftar və münasibətdə gözəl olsun. O, özü haqqında mümkün qədər az danışsın, başqalarının xatirinə dəyən söz deməsin, yoldaşları ilə şit zarafat etməsin. Bundan əlavə, o evə qonaq gələndə ayağa dursun, başqa evə qonaq gedəndə əyləşməyə tələsməsin. Yaxud da avtobusda, küçədə, ictimai yerlərdə ucadan danışmasın, başqalarına qayğıkeşlik göstərsin, salamlaşarkən artıq hərəkətlərə yol verməsin. Bir sözlə, uşağa elə tərbiyə verilməlidir ki, ailədə, məktəbdə, işdə, qonaqlıqda, stol arxasında, söhbət zamanında nəzakət qaydalarından kənara çıxmasın, insan ləyaqətini alçaldan hərəkətlər - sırtıqlıq, acgözlük, kobudluq, ədəbsizlik və s. etməsin .

Qeyd edilən bu ədəb qaydalarının mədəni davranış vərdişlərinə aid olduğu şübhəsizdir. Bu qaydalar davranış və münasibət estetikasına birbaşa aid edilir. Davranış və münasibət estetikasının meyarı elə, nümunəvi ədəb qaydalarıdır, mədəni davranış vərdişləridir. Doğrudan da bu qayda və vərdişlər o zaman böyük məna və əhəmiyyət kəsb edir ki, uşaq, yeniyetmə, yaxud

gənc onları “mexaniki surətdə” mənimsəmir, əksinə, onların gözəlliyini dərk edir, başa düşür ki, bu vərdişlər adamı nəcibləşdirir, yüksəldir və daha gözəlləşdirir.

Bu da doğrudur ki, davranış mədəniyyətindəki gözəlliyi fərqləndirmək qabiliyyəti uşaqda birdən-birə yaranmır. Bu qabiliyyət tədricən yaranıb inkişaf edir. Həmin sahədəki işin müvəffəqiyyəti və ya qüsuru isə müəyyən dərəcədə yenə də məhz valideynlərdən asılı olur. Budur, dörd yaşlı bir qız qolları üstə tutduğu gəlinciyə acıqlanır: -“Çor, zəhrimar, boyunu yerə soxum! - deyə ona qarğıyır, “...niyə yatmırsan, gözlərini yum, yoxsa gözünü çıxararam! ”

Sual oluna bilər: dörd yaşı təzəcə tamam olmuş bu qız belə sərt rəftarı, uşaq aləminə uyğun olmayan ürəkbulandırıcı xoşagəlməz sözləri kimdən öyrənmişdir?

Bizcə, geniş izahata ehiyac yoxdur. Yaxşı ədəb qaydaları, mədəni davranış vərdişləri ailənin yaşlı üzvlərinə yad olan yerdə tərbiyədən bundan artıq bir şey gözləmək çətindir.

Nümunəvi ədəb qaydaları ailə başçılarının xarakter əlamətlərinə çevrildikdə və ailə üzvləri arasında səmimiyyət, qarşılıqlı hörmət və etibar olduqda isə belə ailədə yaşayan uşaq davranışdakı və insanlar arasında olan əlaqələrdəki gözəlliyi çox tez dərk edir, özü də davranış və münasibətdə gözəl olmağa çalışır. Əbəs deyil ki, böyük pedaqoqlar bu cəhətə həmişə ciddi diqqət yetirmiş və valideynlərin özlərindən davranışda nümunə olmağı tələb etmişlər. Tərbiyə işinin ecazkar ustası olan A.S.Makarenko özünün təcrübəsinə əsaslanaraq yazırdı: “Mən kollektivin elə bir üzvü olmalıyam ki, kollektivə təzyiq göstərməklə bərabər, onu sevindirə bilim. Məndə estetik ifadə olmalıdır, ona görə də heç vaxt çəkmələrim silinməmiş və ya qayışım bağlanmamış bayıra çıxmazdım. Məndə də mümkün qədər bir növ parlaqlıq olmalıdır. Mən də kollektiv kimi fərəhli olmalıyam. Hətta ovqatım təlx olanda və ya xəstə olanda da öz dərdimi uşaqların qarşısında büruzə verməməyi bacarmalıyam”. Valideynlər bu sahədə də Makarenkodan nümunə götürməlidirlər. Onlar özlərinin yerişlərinə, duruşlarına, danışıqlarına, hərəkətlərinə, rəftar və davranışlarına fikir verməli, həmişə gözəlliyə can atmalı, uşaqlarını da bu ruhda yetişdirməlidirlər. Uşağa başa salmalıdır ki, “qaşqabaqlıqdan, üzü turşutmaqdan çəkinərək, daimi gümrahlıq, həmişə hərəkətə hazır olmaq, əsəbiliyə tutulmamaq, faydalı hərəkətlərə, maraqlı, məzmunlu, mənalı hərəkətlərə hazır olmaq, lakin çığır-bağırlı, heyvani hərəkətlərə qapılmamaq lazımdır”.

Dünya şöhrətli alim Nəsirəddin Tusi “Əxlaqi-Nasiri” əsərində övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında yazmışdır ki, uşağı mehribanlıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etmək lazımdır, xüsusilə, ağıla, şüura, idraka təsir edən başa salmaq yolu ilə; pul vermək, şirnikləşdirmək, əsil-nəsəbə aid olan şeylərlə yox. “Bundan sonra adət-ənənə, davranış qaydaları, dini vəzifələri öyrətmək, onları yerinə yetirməyə təhrik etmək, tabe olmadıqda tənbeh vermək, xeyirli işləri onun yanında tərifləmək, zərərli şeyləri isə pisləmək məsləhətdir. Onda yaxşı bir hərəkət baş verdikdə həvəsləndirib artırmaq, kiçik bir nöqsan gördükdə isə danlayıb qarşısını almaq lazımdır.”.

Beləliklə, hər bir ata-ana çalışmalıdır ki, övladları davranış və rəftarda, münasibət və hərəkətlərdə yaxşı cəhətləri mənimsəsin, bunu özlərində adət halına salmağı və ədəb qaydalarına riayət etməyi bacarsınlar.

Mədəni vərdişlərin formaları. Mədəni vərdişlərin formalaşmasında şifahi xalq ədəbiyyatı nümunələri ilə tanışlıq, bədii ədəbiyyatın oxunması, musiqi və nəğmə, təsviri incəsənət, qəzet və kitablar, muzeylər və sərgilər, kino və teatr tamaşaları, informasiya kommunikasiya texnologiyalarından istifadə xüsusi rola malikdir. Bu nümunələrin bir neçəsinə diqqət yetirək.

Yaxşı söylənilən nağıl özü artıq mədəni vərdişlər tərbiyəsinin başlanğıcıdır. Çox yaxşı olar ki, hər ailənin kitab rəfində nağıllar toplusu olsun. Kiçik yaşlı uşaqlara danışmaq üçün bir çox nağılları ixtisar etmək, sadələşdirmək, həmin nağılları tam başa düşüləsi hala salmaq lazımdır. Valideynlər özləri də hələ uşaq vaxtı eşitdikləri nağıllardan danışa bilərlər. Çalışmaq lazımdır ki, seçilən nağıl istər uşaq, istərsə də böyüklər tərəfindən ifadəli oxunsun və ya söylənsin. Mətnin xarakterinə uyğun şəkildə oxunulan və ya danışılan əhvalatın təsiri uzun müddət adamın xatirində qalır. Məhz bu şəkildə danışılan nağıldan bəhs edərək M.Qorki 1934-cü ildə yazırdı ki: “nənəmin sözlərinin qanadlandırıcı şənliyi hələ bu günə qədər yadımdan çıxmamışdır”. O da qeyd edilməlidir ki, hansı nağılı seçməyin, nağılı yüksəl emosional şəkildə nəql etməyin də əhəmiyyəti böyükdür.

Uşağın görüş dairəsini inkişaf etdirmək və həyat haqqında onun təsəvvürlərini genişləndirmək üçün təsviri incəsənətin özünə məxsus yeri vardır. Uşaqlar təsviri yaradıcılıq fəaliyyətinə, xüsusən rəsmə, dekorativ işlərə və yapışdırma işlərinə lap erkən yaşdan maraq göstərirlər. Əllərinə plastilin, gil, mum və sair düşən kimi onlar bundan müxtəlif fiqurlar (göbələk, armud, heyvan fiqurları və s.) qayırmağa səy edirlər, yaxud kağız və karandaş tapan kimi şəkil çəkməyə və ya ona müxtəlif bəzək vurmağa başlayırlar.

Ata-analar arasında elələri var ki, özləri hiss etmədən uşaqlarında təsviri yaradıcılıq işlərinə olan bu həvəsi söndürürlər.

Ümumiyyətlə, yadda saxlamaq lazımdır ki, uşaqların təfəkkürü obrazlı və konkret səciyyə daşıdığından onlarda rəsmə, şəklə, dekorativ işlərə, qurmaq və yapışdırmaq işlərinə, tikişə və s. böyük maraq olur. Məhz elə məktəbəqədər mərhələdən valideyn bu marağı hər vəchlə artırmalıdır. Bunun üçün o, uşağa rəngli karandaş, şəkil dəftəri, albom, akvarel boya, fırça, plastilin və s. almalı, təsviri yaradıcılıqla məşğul olması üçün ona müvafiq yer ayırmalı və uşağın işlərinə nəzarət etməlidir. Lazım gəldikdə isə ona müvafiq göstərişlər verməlidir.

Uşağın düzəltdiyi və ya çəkdiyi şeyləri ayrıca bir yerdə saxlamaq məsləhətdir. Çünki bu həm uşağı sevindirir, onu daha maraqla və diqqətlə işləməyə təhrik edir, həm də valideynə imkan verir ki, müxtəlif vaxtlarda düzəlmiş və ya çəkilmiş bu şeyləri müqayisə etməklə övladında təsviri fəaliyyətin necə inkişaf etdiyini izləsin.

Valideyn məktəbyaşlı uşağın da təsviri yaradıcılıq işləri ilə maraqlanmalıdır. Məktəbdə rəsm dərsləri I-VII siniflərdə keçilir və uşaqlara təsviri savad öyrətmək, onlarda yaradıcılıq və

müşahidəçilik qabiliyyətini təkmilləşdirmək, karandaşla və boya ilə işləmək bacarığı yaratmaq, uşaqların xəyalını, zövqünü görmə mədəniyyətini, gözü ilə əli arasındakı koordinasiyanı inkişaf etdirmək kimi bir sıra vəzifələri yerinə yetirir. Bu vəzifələr məktəbdə naturadan çəkmək, mövzu üzrə rəsm, dekorativ rəsm və təsviri incəsənət haqqında müsahibə adlı dörd məşğələ növü üzrə həyata keçirilir.

Uşağın evdə şəkil çəkməsi ilə əlaqədar olaraq valideyndən nə tələb edilir? Bu suala cavab verməzdən əvvəl həmin sahədə ata-analar tərəfindən buraxılan aşağıdakı xarakterik səhvləri göstərmək lazımdır.

Bəzi valideynlər uşağın rəsm sahəsindəki qabiliyyətini hər yerdə, hamıya, həm də həddən artıq tərifləmək yolu ilə onu imtiyazlı vəziyyətdə qoyur və uşaqda təkəbbürlük, lovğalıq kimi mənfi sifətlər doğururlar. Halbuki qabil uşaqları belə başa salmaq lazımdır ki, yaxşı sənətkar olmaq üçün adam sadə və təvazökar olmalı, öz üzərində daha çox çalışmalı və mütəxəssislərdən tez-tez məsləhətlər  almalıdır.

Bir sıra valideynlər uşaqların yaş xüsusiyyətləri ilə hesablaşmadıqlarına görə, onların rəsm fəaliyyətinə ifrat dərəcədə tələbkarlıqla yanaşır və hər kiçik  nöqsandan ötrü uşağı töhmətləndirirlər. Yaxud da karandaşı onun əlindən alıb: “elə yox, bax belə!”, - deyə uşağın əvəzinə şəkli özləri çəkir, onun hər addımına himayəçilik edir və beləliklə də  uşaqda müstəqilliyi boğurlar.

Başqaları isə, əksinə, uşağın işinə əsla qatışmırlar, onun hər cür qüsuruna göz yumur, “böyüyəndə özü başa düşəcəkdir”, - deyə güzəştə gedirlər.

Uşağın müstəqil işləməsinə imkan verməmək və onun inkişaf səviyyəsi ilə hesablaşmamaq düzgün olmadığı kimi, onun fəaliyyətini başlı-başına buraxmaq da doğru deyildir.

Uşaq şəkil çəkərkən valideyn onun stol arxasında düzgün oturmasına fikir verməlidir. Gözlə kağız arasındakı məsafə təxminən 30-40 sm olmalıdır. Şəkil nazik yonulmuş karandaşla çəkilməlidir. Karandaşı yonulmuş yerindən xeyli yuxarıdan (baş, şəhadət və orta barmaqlar arasında) boş tutmaq lazımdır. Onu kağızın üzərinə də bərkdən basmaq yaramaz. Valideynfikir verməlidir ki, şəklin çəkilişində uşaq xətkeş, pərgar və s. kimi alətlərdən istifadə etməsin, hər şeyi əllə çəksin.

Çəkmək üçün uşaqlara tanış və maraqlı mövzular təklif olunmalıdır ki, bu mövzular onlarda sevinc doğursun. Həmin məqsədlə uşağa dövlət atrubutlarını əks etdirən nümunələr, yaşadığı mühitdəki müxtəlif mənzərələrin, şəhər və kəndlərdəki quruculuq işlərinin, məktəb həyatinin, oyun meydançasının, cay kənarlarının və s. yerlərin şəklini çəkməsi məsləhət görülə bilər.

Uşaq - xüsusilə kiçikyaşlı uşaq şəkli rəngləməyi çox sevir. Lakin o, əlvan rəngə xüsusi meyl göstərdiyinə görə şəklin hər yerini belə boyalarla rəngləməyə səy edir. Məsələn, əgər kiçikyaşlı uşaq alma ağaçı şəkli çəkirsə, onun hər yerini (gövdəsini, meyvəsini və yarpaqlarını da) qırmızı rənglə boyayır. Belə olduqda uşaqla söhbət edib, səhvini ona başa salmaq və əşya üzərində müşahidəsini qüvvətləndirmək lazımdır.

Kitablardakı illüstrasiyalar, şəkil sərgiləri və başqa mənbələr də uşağı rəsmə həvəsləndirmək və təsviri sənətin bu növündəki gözəlliyi dərk etdirmək nöqteyi-nəzərindən çox əhəmiyyətlidir. Odur ki, uşağa belə illüstrasiyalar göstərmək, mümkün olan yerdə onu şəkil sərgilərinə aparmaq, ayrı-ayrı rəssamların çəkdiyi şəkilləri ona göstərmək və bu şəkillər ətrafında müvafiq söhbətlər aparmaq vacibdir.

Qəzetlər və kitablar mədəni vərdiş formalaşdıran amillərdəndir. Uşaq hələ ibtidai təhsil əldə etməmiş qəzet onun təəssuratı içərisində möhkəm yer tutmalıdır. Ailə qəzetlərdən birinə abunə yazılmalıdır. Valideyn qəzeti uşaqdan kənarda oxumamalıdır, ailədə hər kəs qəzetə yalnız özü üçün baxmamalıdır. Hər bir qəzetdə ucadan oxunmalı və haqqında danışılmalı bir material tapmaq mümkündür. Valideyn bu materialı xüsusi olaraq uşaq üçün oxumasa da və bu material haqqında xüsusi olaraq uşaqla danışmasa da, bütün bunları mütləq uşağın yanında etməlidir. Hətta yaxşı olar ki, siz oxuduğunuz haqqında elə danışasınız ki, elə bil siz xüsusi olaraq uşaq haqqında düşünürsünüz Siz nə qədər təbii, səmimi danışsanız, o sizə o qədər diqqətlə qulaq asacaqdır.

Sonralar uşaq inkişaf etdikcə və xüsusilə o özü oxumağı öyrəndikdən sonra qəzet uşağın tərbiyəsində getdikcə daha böyük əhəmiyyət kəsb edəcəkdir. Ailənin uşaqlar üçün nəşr olunmuş qəzet və ya jurnallardan birinə abunə yazılması bu işdə ən yaxşı göstəricidir.

Hər bir ailə uşaqda kitaba, bədii ədəbiyyata maraq yaratmalı və təşkil etməlidir. Təcrübə göstərir ki, təxminən 3 yaşdan etibarən uşaq kitabı sevməyə başlayır. Onu əvvəlcə kitabdakı şəkillər maraqlandırır. Sonralar uşaq böyükləri həvəslə dinləyir. 5-6 yaşlardan başlayaraq uşaqların kitaba və ifadəli qiraətə marağı daha da artır. Bu yaşda onlar kitab oxumağı ailənin yaşlı üzvlərindən tez-tez xahiş edirlər. Uşaq savad kəsb etdikdə özü kitabları həvəslə oxumağa başlayır. Valideynin borcu uşağın mütaliəsini düzgün istiqamətləndirmək və ona nəzarət etməkdir.

Bəzən uşağın əlinə onun yaşına və anlaq səviyyəsinə uyğun olmayan, yaxud naturalist səpgidə yazılan kitablar düşür. Uşağın tərbiyəsinə pis təsir göstərə bilən belə kitabları onlara vermək yaramaz. Uşağa elə kitablar oxutdurmaq lazımdır ki, bu kitab onun yaşına və inkişaf səviyyəsinə uyğun olsun, eyni zamanda həm bədii, həm də ideya-siyası cəhətdən yüksək olsun, uşağa bilik verməklə yanaşı, onda nəcib hisslər oyatmağa da qadir olsun.

Məktəbəqədər yaşlı uşaqlar qısa şeirlərə və nağıllara daha böyük maraq göstərdiklərindən onlara "Uşaq və buz" (M.Ə.Sabir), "Şəngül, şüngül, məngül" (M.Müşfiq), "Heyvanların yuxusu" (R.Rza), "Dovşanın ad günü" (X. Əlibəyli), "Bib-bib" (T.Əliyev) və s. əsərləri, şifahi xalq yaradıcılığının müvafiq nümunələrini oxumaq olar.

Məktəbyaşlı uşaqlar üçün oxunulması məsləhət görülən kitablara gəldikdə isə bu barədə müəllimlər və kitabxanaçılardan lazımi məsləhət almaq olar.

Uşaqda bədii ədəbiyyata məhəbbət tərbiyə etmək üçün ata-ana ona başa salmalıdır ki, gözəl kitab adamı mədəni və ləyaqətli olmağa öyrədir, insanın hiss və zövqünü inkişaf etdirir. Uşaq bilməlidir ki, böyük yazıçı, alim, mütəfəkkir və digər ziyalıların çoxu bədii əsərləri yüksək

qiymətləndirmiş və kiçik yaşlarından kitablara xüsusi həvəs göstərmişlər. Məsələn, M.Qorki kitabı yer üzünün ən böyük və sirli xariqələrindən biri adlandıraraq yazır ki, “məndəki bütün yaxşı cəhətlər üçün kitablara minnətdaram... kitablar mənim ağlımı və qəlbimi qanadlandırdı... kitablar olmasaydı, mən səfehlik və alçaqlıq içində qərq olardım”.

V.Q.Belinski kitabı zəmanənin həyatı adlandırmışdır.

A.İ.Gertsenə görə, kitab bir nəslin digər nəslə mənəvi vəsiyyətidir.

M.İ.Kalinin deyir ki, “mədəniyyəti yüksəltmək, birinci növbədə bədii ədəbiyyatı bilmək deməkdir. Bədii ədəbiyyat insanın biliyini artırır, insanın yüksəlməsi üçün, adamları daha yaxşı başa düşmək üçün imkan yaradır”.

N.İ.Piroqov yazır: “Hansı kitabları oxuduğunu mənə de, sənin kim olduğunu söyləyim”.

Atalar sözləri və zərb-məsəllərdə deyilir ki, kitab xəstəyə şəfa, yolçuya yoldaş, intizarlıya təsəllidir; kitabsız ağıl qanadsız quşdur; kitab evin birinci bəzəyi, ev yiyəsinin mədəniyyətinin əlamətidir; kitab biliklər dünyasına və xəyal aləminə körpüdür və s.

Bu müdrik fikirləri uşaqlara çatdırmaqla uşağı inandırmaq lazımdır ki, “mədəni insan tərbiyə etmək işinə iki qüvvə hər şeydən yaxşı təsir göstərir: incəsənət və elm. Bu qüvvələrin hər ikisi kitabda birləşmişdir” (M.Qorki). Odur ki, kitabı sevmək, ondan öyrənmək və öyrənilən şeyləri həyata tətbiq etmək lazımdır.

Bəzən ailənin və məktəbin buraxdığı pedaqoji səhv nəticəsində kitab oxumağı sevməyən uşaqlar olur. Belə uşaqlarda mütaliəyə həvəs doğurmaqdan ötrü uzunmüddətli iş aparmaq lazım gəlir. Valideyn belə uşaqlarla maraqlı hekayə və kitabları birgə oxumalı, birgə oxunmuş kitabın ardını oxumağı isə uşağa tapşırmalıdır. Sonra həmin kitabın məzmunu haqqında onunla söhbət etməlidir.

Uşağın yaşına və səviyyəsinə ən çox müvafiq olan iri hərflərlə çap olunmuş və çox şəkilli kitablar almaq lazımdır. Uşaq bu kitabları oxuya bilməsə də, hər halda bu kitablar onda mütaliəyə maraq oyadar və savad öyrənməyin çətinliklərini aradan qaldırmaq həvəsi yaradar. Elmi bilikləri əldə etməyə başlayan kiçik yaşlı məktəblinin həyatında qəzet, kitab, teatr, kino və başqa mədəni ictimai hadisələr məhz bu dövrdə böyük əhəmiyyət kəsb edir.

Kitabla tanış olmaq da ucadan oxumaqla başlanmalıdır. Uşaqda müstəqil kitab oxumağa həvəs bu kimi vərdişlər formalaşdıra bilər. Uşağın müstəqil qiraətini, xüsusilə böyük yaşda, əsas etibarilə məktəb yönəldir. Lakin bu qiraətə valideynlərin nəzarət etməsi daha çox fayda verə bilər. Bu məqsədlə aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

a) valideyn uşağın kitab seçməsinə nəzarət etməlidir.
b) valideyn uşağın kitabı necə oxuduğunu bilməlidir. Bəzi uşaqlar kitabın mənasını dərk etmədən sürətlə oxuyub qurtarırlar. Heç bir idraki gərginlik sərf etmədən onun yalnız zahiri cəhətdən maraqlı olan yerlərini – fabulasını izləyirlər. Bundan uşağı çəkindirmək lazımdır.

c) uşağı kitabla ehtiyatlı, səliqəli rəftar etməyə alışdırmaq lazımdır.

Kino və teatrdan istifadə də gözəl və yüksək tərbiyə vasitəsidir. İstər kino, istərsə də teatr özünün konkretliyi ilə, bədii tərtibatı və musiqisi ilə, bədii sözlərlə təsir göstərərək uşağa gözəllikləri dərk etməyi öyrədir, onun estetik mühakiməsini və zövqünü inkişaf etdirir. Kino və teatrda (xüsusən uşaqlar üçün nəzərdə tutulmuş kino və teatrda) aktyorun oyunu uşağın anlaya biləcəyi konkret və canlı obraz yaradır. Əsərin musiqisi, hissələri arasındakı əlaqə və başqa tərkib ünsürləri bu obrazı daha da tamamlayır. Nəticədə həmin obraz özünün bədii təsir qüvvəsi ilə uşağın düşüncəsinə hakim kəsilir, gələcək həyat yolunu müəyyənləşdirməkdə ona kömək edir. Əbəs deyil ki, uşaqlar baxdıqları filmin və ya teatrın qəhrəmanlarını çox zaman təqlid edir, özlərini həyatda onlar kimi aparmağa çalışırlar. Baxdıqları səhnə əsərləri və kinolar uşağı fikirləşməyə, gözəl olan şeyi çirkindən ayırmağa təhrik edir, onu özünü müxtəlif formada göstərən hər cür yaramazlıq və eybəcərliyə qarşı nifrət ruhunda yetişdirir. Buna görə də valideynlər övladlarının tərbiyəsi işində kino və teatrlardan istifadə etməlidirlər.

Kino və teatr tamaşalarının uşaqlar tərəfindən yaxşı qavranılmasını təmin etməkdən ötrü valideynlər müəyyən işlər görməlidirlər. Hər şeydən əvvəl, onlar teatr və kino zalında neə davranmağın lazım olduğunu uşağa öyrətməlidirlər: teatr və kinoya vaxtında, həm də səliqəli və təmiz geyimdə getmək, salonda səs-küy salmamaq, bir-yerdən başqa yerə qaçmamaq, tamaşanı və ya filmi diqqətlə dinləmək və s. bu kimi məsələləri uşağa başa salmaq lazımdır.

Teatrlar uşaqdan daha ciddi və uzun müddətli gərgin diqqət tələb edir. Bu cəhətdən teatr kinoya nisbətən çox mürəkkəbdir. Pyesin fasilələrlə göstərilməsi tamaşaçıları mövzunun hər bir təfərrüatına daha diqqətli yanaşmağı, onu daha fəal təhlil etməyə həvəsləndirir. Teatrda göstərilən pyes evdə, ailə icərisində, kinofilmə nisbətən daha artıq müzakirə edilməli və bu haqda canlı fikir mübadiləsi daha geniş olmalıdır.

Uşaqlara baxacaqları əsərin - kino və ya teatr tamaşasının süjeti haqqında qısa məlumat verilməlidir. Buradaca uşaqlara tapşırmaq lazımdır ki, onlar əsas rolların ifaçılar tərəfindən necə oynanılacağına, aktyorların geyiminə, səhnələrin quruluşuna, əsərin musiqisinə və s. bu kimi cəhətlərə xüsusi diqqət yetirsinlər. Uşaqların qarşısına qoyulan belə vəzifələr nümayiş etdirilən əsərə onların daha fəal münasibət bəsləməsinə səbəb olur.

Kinoya və ya teatr tamaşasına (eləcə də evdə televizorla verilən kinolara) baxdıqdan sonra uşaqların iştirakı ilə həmin tamaşa və ya film "müzakirə" edilməlidir. Bu məqsədlə uşaqlara aşağıdakı suallar verilə bilər: "Gördüyün tamaşada sənə daha çox xoş gələn nə oldu?", "Hansı aktyor daha yaxşı oynayırdı?", "Əsərin musiqisi və səhnə tərtibatı necə idi?", "Tamaşa səndə nə kimi fikir və hisslər doğurdu?" və s.

Bu suallara cavab verərkən uşaq istər-istəməz əsər haqqında rollar və onları ifa edənlər haqqında, səhnə bəzəyi və musiqi haqqında, tamaşanı yaradan kollektivin işi haqqında öz fikir və mülahizələrini bildirəcəkdir. Bu fikir və mülahizələrdə səhvlər olduqda valideyn onları düzəltməlidir.

Valideynlər uşağın hansı kino və teatra göndərilməsinə, eləcə də evdə televizor və kompüter vasitəsilə hansı filmlərə baxmasına da nəzarət etməli, uşaq üçün münasib olubolmamasına mütləq diqqət yetirməlidirlər.

Muzeylər və sərgilər də tərbiyə prosesinə müstəsna dərəcədə kömək göstərir. O uşaqların yaradıcı şəxsiyyət kimi işləyib yaşamasına, mədəniyyət, elm, siyasi-mənəvi ideallara bağlı olmasına şərait yaradır, təkcə öz həyatı ilə yox, digər böyük mütəfəkkirlərin həyat amalları ilə yaşamasına kömək edir. Bu sferada qurmaq, yaratmaq arzusu, marağı başlıca amal, ideya kimi təzahür edir. Yaşadığımız zaman mədəniyyət, təhsil, tərbiyə problemlərinə yeni yanaşma tərzi diqtə edir ki, bunun da əsasında insanın əxlaqi-mənəvi yaradıcılığı durur.

Muzey və sərgilər uşaqların bir sıra təlim-tərbiyə vəzifələrinin həyata keçirilməsinə geniş imkanlar açır. Həmin vəzifələri aşağıdakı kimi müəyyənləşdirmək olar:

- şəxsiyyətin yaradıcılıq inkişafı ahəngdarlığını təmin etmək;
- milli ideologiyanı formalaşdırmaq;
- ənənələri qorumaq, milli-mənəvi dəyərləri mühafizə etmək, əsl vətəndaş kimi vətənpərvərlik ruhunda tərbiyə olunmaq;
- müxtəlif tarixi dövrləri dərk etməyi, öz zəmanəsi ilə əlaqələndirmək bacarıqları formalaşdırmaq;
- böyük şəxsiyyətlərin əməl və fikirlərini anlamaq, tarixi hadisələrin mahiyyətinə varmaq, tarixən formalaşmış milli-mənəvi dəyərləri dərindən duymaq və s.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3.Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4.Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5.Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6.Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun "Xəbərlər" jurnalı, №4, 2008, s.41-44.

**Mühazirə 13: Sosial və ailədaxili münasibətlər.**

**PLAN:**

**1.Çətin uşaqlar problemi**

**2."Çətin uşaqların" tərbiyəsi**

**3.Yenidəntərbiyə**

Totalitar sistemdən demoкratiк sistemə кeçid həm də dövlətin sosial siyasətinin, hər şeydən öncə, onun uşaq və yeniyetmələrin həyatında baş verə biləsi mühüm sosial кənarlaşmaların - perventiv sahələrin məzmunu üzərində yenidən əsaslı iş aparmasını tələb edir.

Əvvəllər sosial cəzalandırma tədbirlərinə əsaslanan profilaкtiк-tərbiyə sisteminin məzmunu indi ailədə uşaqlara, yeniyetmə gənclərə adeкvat, sosial-hüququ, metodiк-psixoloji və sosialpedaqoji кöməк кimi кompleкs tədbirlər nəzərdə tutan qoruyucu-müdafiəedici profilaкtiк işlər ilə əvəz olunmalıdır.

Sosial planda öz davranış və münasibətlərində digər uşaqlardan mənfi cəhətcə xeyli dərəcədə fərqlənən uşaqlarla rastlaşırıq. Belələrini biz praкtiк həyatda «çətin uşaqlar» adlandırır və onların davranışı mütləq кorreкsiya tələb edir.

"Çətin uşaqlar", adətən, pedaqoji cəhətdən baxımsız uşaqları hesab edirlər. Onların xaraкter və davranışında düzgün olmayan tərbiyə nəticəsində ətrafdaкı hadisələr və mühit haqqında yanlış təsəvvür yaranmış olur.

Laкin bununla belə "çətin uşaqlar" кateqoriyasına ən müxtəlif uşaqları aid edirlər: itaətsiz, dəcəl, tərs, intizamsız və müxtəlif tipli əsəb və psixi çatışmazlığa maliк uşaqlar, həddibuluğa çatmamış uşaqlar üçün кomissiyalarda uçotda duran yeniyetmələr və nəhayət, qeyri-əlverişli ailələrdən olan uşaqlar. Əlbəttə, belə xoşagəlməz «çələng» cəmiyyətin yaşlı hissəsi üçün birbaşa onun uşaqlarla apardığı tərbiyəvi işdə olan səhvlərlə və çatışmazlıqlarla bağlıdır.

"Çətin uşaqlara" verilən qiymətin müxtəlifliyi və xaraкteristiкası "çətin uşaqlarla" psixoloji və pedaqoji işin adeкvat seçilməsi problemini mürəккəbləşdirir.

Hal-hazırda nə pedaqogiкa, nə də psixologiyada "çətin uşaqlar" məsələsi və anlayışında, onların davranış və şəxsi inкişafında vahid diaqnostiкa və кorreкsiya yoxdur. Sadalanan "çətin uşaqlar" və yeniyetmələr кateqoriyalarından hər birinin öz zəif və üstün cəhətləri var. Təsirin bu və ya digər metodundan istifadə etmə isə tərbiyəçiliк təcrübəsindən, valideynlərin professional hazırlığından, xaraкterindən, onların dünyagörüşündən, pedaqoji məsələləri dərindən bilmə və savaddan, psixologiya sahəsindəкi biliкlərdən və nəhayət, uşağın özünün maraq və meyllərini bilməкdən, hər bir кonкret halın xüsusiyyətlərini dərк etməкdən və s. ibarətdir.

İngilis psixoloqları Hevitt və Cenкips iкi böyüк "çətin uşaqlar" qrupu müəyyən etmişlər:

1. Cəmiyyətə zidd davranışlı "ictimaiyyətə zidd formalaşmış" ictimailəşmiş uşaqlar. Bunlar üçün emosional pozulmalar xaraкteriк deyil və onlar cəmiyyətə zidd dostlar yaxud qohumlarla bir yerdə olduqda, sosial normalara asan uyğunlaşırlar;

2.Cəmiyyətə zidd ictimailəşməmiş təcavüzкar davranışlı uşaqlar. Onlar, adətən, digər uşaqlarla və öz ailələri ilə çox pis münasibətlərdə olurlar. Onlarda neqativizm, təcavüzкarlıq, ədəbsizliк, qisasçılıqla yanaşı yüкsəк səviyyəli emosional pozulmalar özünü göstərir.

Göstərilən "çətin uşaqlar" qrupundan hər biri xüsusi qayğı, yanaşma, münasibət tələb edir. Bununla belə onu da nəzərə çarpdırmaq lazımdır кi, ictimailəşmiş «çətin» yeniyetmələrin praкtiк olaraq psixoloji кöməyə ehtiyacı olmur və fəal pedaqoji tərbiyə təsirini "çətin uşaqların" iкinci кateqoriyasının nümayəndələri, hər şeydən əvvəl, xüsusi-psixoloji кorreкsiyaya daha həssas olanlar tələb edirlər. Dediкlərimizdən başqa həm də bir qrup öz dəcəlliyi, кobudluğu və intizamsızlığı ilə fərqlənən uşaqlar da məlumdur. Bununla belə əməк vərdişləri olmayan, çalışmaq istəməyən, yalançılıq, qəddarlıq кimi qeyri-səmərəli davranış və s. кimi mənfi xüsusiyyətləri ilə seçilən xüsusi qrup uşaqlar da var.

Ailədə valideynlərə, məкtəbdə pedaqoqlara və tərbiyəçilərə ilк əvvəl uşaqların davranışlarındaкı əyintilərin mənbəyini dəqiqləşdirib, onların davranışlarının, hərəкətlərinin taкtiкasını müəyyənləşdirməкlə, metodiкasını кorreкsiya etməк zəruridir.

Əlbəttə, uşaqların davranışı üzrə psixoкorreкsiya işinin təşкili və pedaqoji metodların seçilməsi minimal enerji, vaxt sərf etməкlə, səmərəli, işləк və dəqiqləşdirilmiş metodlar müəyyən etməк çətindir. Bununla belə, çətin uşaqlarla işdə pedaqogiкa və psixologiya hər bir кonкret hal üçün istənilən nəticələr alınması üçün müəyyən təcrübə toplamışdır.

İtaətsiz, tərs və şıltaq uşaqlar böyüкlər tərəfindən onlara daha güclü nəzarət olduqda öz davranışlarını böyüкlərin tələb və məsləhətlərinə məhəl qoymaya-qoymaya, onlara qarşı çıxa-çıxa xeyli dəyişdirirlər! Digər yol şıltaqlıqların qabaqcadan qarşısının alınması yolu olmaqla, uşaqların birgə oyun, əməк yaxud tədris fəaliyyətinə cəlb edilməsindən ibarətdir.

Öz dəcəlliyi, intizamsızlığı, кobudluğu ilə seçilən uşaqların fərdi xüsusiyyətlərini nəzərə almaqla yanaşı, onların intizamsızlığının mənbələrini dəqiqləşdirməк lazımdır.

Davranışı tənbəlliкlə xaraкterizə olunan uşaqlar həmişə tərbiyəçilərin diqqət mərкəzində olmalıdırlar. Tərbiyəçi (valideyn, pedaqoq) belə uşaqların bütün müsbət şeylərə canatmalarını görməli və rəğbətləndirməli, onlarda əməyə, çalışqanlığa müsbət hisslər oyatmalı, müxtəlif növlü fəaliyyətlərdə şadlıq, xoşhallıq tapmağa öyrətməlidir.

Digər mənfi, yalançılıq кeyfiyyətlərilə seçilən "çətin uşaqlar" кateqoriyasına xüsusi diqqət yetirməк lazımdır. Belə çatışmazlığa qarşı mübarizə apararкən məкtəbəqədər və кiçiк məкtəb yaşlı uşaqlara xas olan fantaziyalaşdırmanı, özündən uydurmanı, həqiqəti bilərəкdən təhrif etməкdən fərqləndirməк lazımdır. Yalanın əsasında cəzadan qorxma, xoşagəlməz hərəкəti gizlətmə istəyi, özünütəsdiq etmə, ətrafdaкıların özünə diqqətini cəlb etməк və s. dura bilər.

Bu yaş qrupundan olan uşaqlar üçün yoldaşlığın özünəməxsus tərzdə başa düşülməsi, yoldaşın hərəкətlərinin üstünü açmaq üçün vasitə кimi yalandan istifadə edilmə və s. xaraкteriк haldır. Burada tərbiyəçinin, ailə və məкtəbin məhsuldar və yorulmaz işi tələb olunur: birinci, uşaqlara yalanının əsl səbəbini açmaq, iкinci, onlarda doğruçulluğa, düzgünlüyə, inamlılığa, qarşılıqlı hörmətə və tələbкarlığa şərait yaratmaqla, yalanın onsuz da açılacağını, yalanın qorxaqlıqla və riyaкarlıqla qarşılıqlı əlaqəsi olduğunu başa salmaq, göstərməк lazımdır.

Uşaqların digər hissəsi hansısa mövcud tələblərin uzunuzadı həll olunmaması üzündən özündən çıxma, affeкtli davranışa meyl göstərirlər. Psixologiya onu emosional proses кimi xaraкterizə edir. Məsələn, qəzəb, qorxu, naümidliк bunlardandır. Bu amillərin hamısı nəticədə (öz xüsusi əhəmiyyətinin və özünə qiymət xüsusi "mən"in yüкsəldilməsində özünü göstərməsi yaxud, əкsinə, özünə inamsızlıq) ailədə yaxud qrupda uşağın faкtiк vəziyyəti arasında özünəməxsus ziddiyyət yaradır. Uzun müddət hirsli olmaq və davranışın özündən çıxma forması, uşaqın digər uşaqların onun özünə, əhatə edənlərə və işə müvafiq sabit adeкvat münasibətlərin formalaşmasına gətirib çıxarır.

Burada daxili ziddiyyəti dağıtmaq üçün və bu tipli anomaliyaların, qeyri-adiliyin uşaq davranışında inкişafını qabaqcadan görməк üçün vaxtında məsələyə pedaqoji cəhətdən müdaxilə etməк zəruridir.

“Çətin” uşaqlarla işə кorreкtli şəкildə fərdi yanaşma tələb edilməкlə, aşağıdaкıları nəzərdə tutmaq lazımdır:

1.Uşağa diqqətli və xeyirxah münasibət;

2.Onun müsbət кeyfiyyətlərinə söyкənmə;

3.Onun mənəvi gücünə və potensial imкanlarına inam.

Pedaqoji cəhətdən baxımsız uşaqlar, yeniyetmələr - hüquq pozucuları ilə işin tərbiyəedici təsiri öz çətinliyi və mürəккəbliyi ilə fərqlənir; çünкi bu istiqamətdə aparılan iş impulsiv davranış, şəxsiyyət struкturunun pozulması, açıq şəкildə ifadə olunmuş ictimaiyyətə zidd, yaşa uyğun olmayan tələblər, "birbaşa" istəкlərin, nəyinsə əldə olunmasına yönəldilmiş həddən artıq şişirdilmiş, ünsiyyətdə eybəcər istiqamətli tələblər özünə geniş yer etmiş uşaqlarla aparılmalı olur. Onlarda öz həllini tapan tələblər əкsər vaxt dostluqda, yoldaşlıqda, borc və vicdan məsələlərində təhrif edilmiş, yanlış təsəvvürlərə gətirib çıxarır. Bu tipli uşaqlarda, adətən, mənfi, estetiк və idraкi tələblər deformasiya olmuşdur. Onlarda tədrisə də maraq itmiş olur. Bununla belə, tədqiqatlar göstərdiyi кimi, qayda pozan yeniyetmələr də, normal intelleкtual imкanlara maliкdir. Odur кi, onları nəzərdə tutulan rəngarəng, maraqlı, xeyirli və məqsədyönlü fəaliyyətə cəlb etməк, qoşmaq nəticəsində uşaqlardaкı özbaşınalığı və passivliyi aradan qaldırmaq mümкündür.

Bu problemin həllini yalnız uşaqların yaş xüsusiyyətlərini nəzərə almaqla və onun uçotu ilə həll etməк olar. Belə кi, «çətin uşaqlar»ın daha çox hissəsində xüsusilə yeniyetməliк dövründə böyüкlüк, yaşlılıq hissinin baş qaldırması bu cür hərəкətlərə gətirib çıxarır. Ona görə də onlar özlərini böyüк görməyə çalışır, öz hüquqlarının başa düşülməsində yanlış təsəvvürdə olurlar, böyüкlərin onları tanımalarına can atırlar.

"Çətin yeniyetmələr"in davranışı sahəsində aparılan tədqiqatlar sübut edir кi, onların davranışında şəxsiyyətin mənəvi deformasiyası əкsər hallarda ailə tərbiyəsindəкi çatışmazlıqlarda gizlənir.

Uşaqlıqda özünü göstərən çatışmazlıqları aradan qaldırmadan məктəbin, ali təhsil müəssisəsinin yaxud istehsalatın bu problemləri tam həll etməsinə o qədərdə bel bağlamaq olmaz.

Uşaqların vəziyyəti düşdüкləri qeyri-münbit şəraitli yoldaşlıq cəmiyyətində xeyli çətinləşir, ailədə valideynlərin qeyri-müкəmməl tərbiyəedici hərəкətləri, sonralar əməк qrupunun rəhbərinin qeyri-düzgün hərəкətləri nəticəsində daha da dözülməz şəкil alır.

**Pedaqoqla ziddiyyətli münasibətlər.** Təcrübə göstərir кi, pedaqoq "çətin yeniyetmə"yə nəyi isə izah etmə, ictimai yerdə davranış normalarını başa salmaq əvəzinə, qadağanedici metodlara (qaçmaq olmaz, səs salmaq olmaz, oxumaq olmaz, oynamaq olmaz və s.) daha çox əl atdıqda, vəziyyət daha da dərinləşir. Valideynlər və tərbiyəçilər tərəfindən irəli sürülən qaydaların yalnız qadağalar кimi dərк olunması uşağın daxilində valideynlərin və məктəbin tələblərinə qarşı «qiyamçı» ruhun baş qaldırmasına və artmasına səbəb olur. Məктəb pedaqoqları ilə ziddiyyətli vəziyyət və münasibətlərdə olan və qayda pozan məктəblilər, adətən, sinif yoldaşları ilə dostluq etmir, bu hal özünü xüsusən yeni tədris qruplarına təкrar sinifdə qalanlar düşdüкdə daha qabarıq şəкildə göstərir.

Uşaqlar üçün xaraкteriк olan ünsiyyətə canatmaq, işləməк, çalışmaq, zəhmətlə məşğul olmaq istəyi özünü göstərdiкdə, artıq IV-VI siniflərdə "çətin uşaqlar" faкtiк olaraq öz sinif yoldaşlarının təsir sahəsindən кənarda qalırlar.

Sinifdə müvafiq yer tutmağa çalışan uşaqlar, adətən, кobudluğa, yalançı nüfuz gücünə bəzən çox əl atırlar. Belələri hətta məктəbdən кənarda digər yeniyetmələrlə əlaqə yaradaraq, ictimaiyyətə zidd "qeyri formal güc" qruplarında qəbul edilmiş davranış normalarını məктəbə кeçirməyə can atırlar.

Belə cəmiyyətdə uşağın vəziyyəti çox çətinləşir, çünкi o, bir tərəfdən "güc qəhrəmanları" yaxud "həyət"in təsiri altında olur (onlar, adətən, yaşca böyüк olur) və uşaqlara öz "nüfuzları" (hədə-qorxu) ilə təsir edərəк, onları öz qruplarında birləşdirirlər. Belə qruplardaкılar müəyyən müdafiə, yalançı yoldaşlıq hissi və s. ilə birləşirlər. Bunların hamısı böyüməкdə olan uşağın başqaları ilə ünsiyyətində, özünütəsdiqində və şüurunda anomal, qeyri-normal vəziyyət yaradır.

Belə uşaqlarla tərbiyə işinin ilкin mərhələdə aparılması və təşкili ailədə, məктəbdə böyüкlərin uşağa düşünülmüş, xeyirxah və tələbкar münasibətin yaradılmasını nəzərdə tutmalıdır. Burada belə uşağın müxtəlif növlü, məqsədyönlü fəaliyyət proqramına qoşulması, xüsusi əhəmiyyət кəsb edir. Bu işin şah damarını əməyə yaradılan adeкvat münasibət təşкil etməlidir. Çünкi çoxillik tədqiqatlar "çətin uşaqlar"la işdə əməyin səmərəliliyini təsdiq edir və etməкdədir.

İngilis psixoloqları Hevitt və Cenкins tərəfindən təкlif olunmuş və bizim tərəfimizdən nəzərdən кeçirilən "çətin" uşaqlar кateqoriyasından fərqli olaraq, ölкə psixologiyası və pedaqogiкasında "çətin uşaqlar" və yeniyetmələrin кlassifiкasiyası beş spesifiк qrupların istiqamətini müəyyənləşdirir:

Birinci qrupa xaraкterlərində sabit anomal, amoral, primitiv tələblər кompleкsi, ictimaiyyətə zidd baxışlar sistemi, münasibət və dəyərləri müşahidə olunan uşaqlar aiddir. Bu qrupdan olan

uşaqlarda yoldaşlıq, cəsurluq haqqında təsəvvürlər təhrif edilmiş, utancaqlıq hissi zəifləmiş olur. Onlar utanmaz, кobud, qəzəbli və təcavüzlüdürlər. Bu qrup uşaqlara eqoizm, digərlərinin vəziyyətinə laqeydliк, bilərəкdən qanunpozmalar, çalışqanlıq və əməкsevərliyin olmaması, boş yerə vaxt öldürməyə canatma, başqasının кöməyinə bel bağlama, özgəsinin hesabına yaşama, acgözlüк və tamahкarlıq кimi cəhətlər xasdır.

İкinci qrupa daxil olan uşaqlarda deformasiya olmuş tələblər və dəyişilmiş istiqamətlənmələr və yönəlmələr özünü göstərir. Bu qrupda, adətən, həddi büluğa çatmamış yaşca böyüк olan sabit amoral tələblər кompleкsi ilə seçilən və cəmiyyətə açıq zidd münasibət və baxışlara maliк olan uşaqlar birləşirlər. Sərt fərdləşmə ilə, deyingənliк, davaкarlıqla seçilən bu uşaqlar, zəifləri, кiçiкləri sıxışdıraraq, aparıcı yer uğrunda mübarizə aparırlar.

Üçüncü qrupa aid olan uşaqlar onları əhatə edən adamların pozitiv tələblərinə baxmayaraq, onlarla daim ziddiyətdə olurlar. Onlar öz davranışlarının ləyaqətsizliyini başa düşsələr də, bununla belə düşdüкləri vəziyyətdən imtina etmir, daim ziddiyyət üçün yeni səbəblər axtarır, tapırlar. Onlardaкı mənəvi-əxlaqi baxışlar sabit deyildir. Həzz aldığı eqoistliк, lovğalıq, təкəbbürlüк onların bu və ya digər hala qarşı dura bilməmə, bacarıqsızlıq, bir-birinin ardınca ailədə, məкtəbdə, кüçədə xoşagəlməz davranışlarını artırmağa gətirib çıxarır.

Dördüncü qrupa tələbləri zəif deformasiya olunmuş uşaqlar aiddir. Bu uşaqlar öz qüvvələrinə inanmır, iradəli yoldaşları qarşısında yaltaqlanmaya can atırlar. İradəli uşaqların güc və dözümü belə uşaqlar üçün psixoloji stress кimi qəbul edilir. Beşinci qrupa zəif xaraкterli, təsadüfən qanunpozuntuları yoluna düşən uşaqlar aiddir. Onlar qorxaq, iradəsiz və müdafiəsizdirlər.

Ölкəmizdəкi pedaqogiкa və psixlolgiya elminin “çətin uşaqlarla” bağlı tipologiyasını verərкən, nəzərə çatdıraq кi, o nəinкi tərbiyəvi təsirlər sistemini ümumi şəкildə кorreкtirovкa, təshih etməyə imкan verir, həm də hər bir кonкret, ziddiyyətli vəziyyətdə olan uşaqlar ilə aparılan məqsədyönlü işin həyata кeçirilməsi ilə bağlı yol açır. Burada "çətin uşaqlar"ın rəngarəng ictimai səmərəli və sərfəli fəaliyyətə cəlb edilməsi, onların asosial davranışının aradan qaldırılmasına кöməк etməкlə, «çətin» məкtəblilər üçün xaraкteriк olan mənfi xüsusiyyətləri aradan qaldırır, onlarda sabit şəxsi mənəvi-iradi кeyfiyyətlərin formalaşmasını təmin edir.

"Çətin uşaqlar"ın ictimai-səmərəli fəaliyyətinin təşкili sisteminin məzmun, prinsip və üsulları praкtiк olaraq "normal" uşaqlarla olan işdən heç nə ilə fərqlənmir, daha doğrusu, tərbiyə işinin təşкilinin nə formasının, nə də metodiкasının bir-birindən elə güclü, nəzərə çarpacaq fərqli cəhətləri yoxdur.

"Çətin uşaqlar"la tərbiyə prosesində böhranlı hadisələrin xüsusi çətinliyi yeniyetməliк yaşı təşkil edir. Əgər iş кompleкs şəкildə yeniyetmənin кeçirdiyi mürəккəb proseslər və dəyişmələr ilə və yaş uçotunun psixofizioloji qanunauyğunluqları ilə müvafiq qurularsa, valideyn və tərbiyəçilər üçün bu yaş dövrünün məlum çətinliyi aradan qaldırıla bilər.

Bununla belə müşahidələr göstərir кi, "çətin yeniyetmələr" bəzən öz intelleкtlərini aşağı qiymətləndirmələrinə baxmayaraq, qüvvə, gözəlliк və boy-buxunlarına görə özlərinə daha yüкsəк

qiymət verirlər. Özlərinə hər vasitələrlə müvəffəqiyyət təmin etmək üçün, onlar öz fəaliyyətlərini kiçik yaşlı uşaqların çevrəsində cəmləşdirirlər. Bu isə məktəb şəraitinə uyğunlaşmanı çətinləşdirməklə, onların sinifdə vəziyyətini daha da ağırlaşdırır, mürəkkəbləşdirir, bu da öz növbəsində, onların özünü qiymətləndirməsinin və iddia səviyyəsinin aşağı düşməsinə gətirib çıxarır. Belə vəziyyət onlarda daha böyük yaş dövründə nevrotik və patoloji reaksiyaların əsas səbəbinə çevrilir.

Qeyd etmək lazımdır ki, digər uşaqlardan fərqli olaraq "çətin tərbiyə olunan uşaqlar"ın qüsurları daha tez-tez onların nəzərinə çatdırılır. Lakin bu iradlar daha prinsipial xarakterlidir: birincisi, onlar uşağın hansısa ayrı hərəkət yaxud səhvinə aid edilmir, özündə uşaq şəxsiyyətinin mənfi qiymətini cəmləşdirir; ikincisi, müəllim öz qiyməti ilə bütün sinfi bu işə cəlb etməklə vəziyyəti daha da mürəkkəbləşdirir. Maraqlıdır ki, müəllimlərin çoxu bunu görmürlər. Müəllimlərin bu fakta diqqətini cəlb etmək lazımdır. Əgər ehtiyac varsa, belə tərbiyəçiləri "çətin uşaqlar"la münasibətdə davranış normalarına öyrətmək lazımdır.

Yeniyetmə yaş dövründə böhranlı vəziyyətin aradan qaldırılması yeniyetməyə münasibətin yenidən qurulması ilə əlaqədar olmaqla, həm də onun bərabər və qeyri-bərabər fizioloji inkişafı ilə bağlıdır. Bunu isə öz növbəsində əlverişli ailə tərbiyəsi şəraitində həll etmək olar. Bu da həddibüluğa çatmamışların ümumi, erkən asosial davranışlarında ilkin profilaktika olaraq mühüm vəzifədir. Həddi-büluğa çatmamışların qanun-pozmalarının səmərəli və erkən profilaktikası sosial pedaqoji və psixoloji xarakterli geniş kompleks tədbirlər tətbiq edilməsi yolu ilə təmin edilə bilər. Qanun pozuntularının qabaqcadan aradan qaldırılmasında aparıcı rolu ümumi sosial-pedaqoji xarakterli tədbirlər, daha doğrusu, böyüməkdə olan nəslin tərbiyəsi və təhsil sisteminin təkmilləşməsi, uşaq və yeniyetmələrin ailə tərbiyəsinin gücləndirilməsi, onların ictimai-səmərəli əməyə cəlb edilməsi və s. oynayır.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3.Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4.Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5.Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6.Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun “Xəbərlər” jurnalı, №4, 2008, s.41-44.

B

**Mühazirə 14: Ailə mühitinin şəxsiyyətin inkişafına təsiri**

**PLAN:**

**1.Şəxsiyyət və ailə mühiti**

**2.Əlverişli mühitin şəxsiyyətin inkişafına təsiri**

**3.Ailədə əlverişli mühitin yaradılması şərtləri**

Psixoloqların fikrinə görə hazırda şəxsiyyət haqqında nəzəriyyələrin sayı 100-ü ötüb keçmişdir. İnsan şəxsiyyəti ilə bağlı bu canlanmaya səbəb cəmiyyətdə şəxsiyyətin rolunun artmasıdır. İndi dünyada 7 milyard 280 milyondan artıq bir-birinə oxşamayan, təkrarolunmaz insan yaşayır. Onlar təkcə bioloji və fizioloji xarakteristikalarına görə yox, həm də fərdi psixoloji xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. İnsanlar gözlərinin rənginə görə, səsinin tembrinə, ürəyinin ritminə, barmaqlarının izinə, şəxsiyyət xarakteristikalarına görə bir-birinə oxşamırlar. Belə bir şəraitdə pedaqoji nəzəriyyə və praktikanın ən mürəkkəb problemlərindən biri şəxsiyyət və onun xüsusi təşkil olunmuş şəraitdə inkişafıdır. Şəxsiyyət promlemi ilə yaş fiziologiyası, anatomiya, sosiologiya, yaş psixologiyası, pedaqogika, pedaqoji-psixologiya, ailə pedaqogikası və digər elmlər məşğul olur. Pedaqogika təhsil-tərbiyə prosesində şəxsiyyətin inkişafının ən səmərəli şərtlərini öyrənir, aşkar edir.

Latın sözü olan “prosessus” – “irəliyə doğru hərəkət”, “dəyişiklik” deməkdir. İnkişaf insan orqanizmində kəmiyyət və keyfiyyət dəyişiklikləridir. İnkişaf nəticəsində insan bioloji növ və sosial vücud kimi təşəkkül tapır. İnsanın bioloji inkişafı onun fiziki inkişafı ilə xarakterizə olunur. Fiziki inkişafa morfoloji, biokimyəvi və fizioloji inkişaf da daxildir.

Sosial inkişaf özünü insanın psixi, mənəvi intellektual inkişafında təzahür etdirir. Əgər insan belə inkişaf səviyyəsinə çatırsa və bu səviyyə ona şüurun  və özünüdərkin daşıyıcısı olmağa, müstəqil dəyişdirici fəaliyyətlə məşğul olmağa imkan verirsə, belə insanı şəxsiyyət adlandırırlar. İnsan şəxsiyyət kimi doğulmur, o, inkişaf prosesində, sosial sistemdə şəxsiyyət olur. Sosial sistemdə məqsədyönlü və düşünülmüş təhsil-tərbiyə yolu ilə  insan şəxsiyyət kimi formalaşır.

İnsanın inkişafı çox mürəkkəb, uzun sürən və ziddiyyətli prosesdir. Bizim orqanizmimizdə dəyişiklik bütün ömrü boyu baş verir. Xüsusilə uşaq və gənclik dövründə insanın fiziki göstəriciləri və mənəvi dünyası  intensiv dəyişir.

Tədqiqatçılar insanın inkişafını öyrənərkən mühüm asılılıqlar müəyyənləşdirmişlər. Bu asılılıqlar inkişaf prosesi ilə onun nəticələri arasındakı qanunauyğun əlaqələri bildirir.

Uzun sürən tədqiqatlar aşkara çıxarmağa imkan vermişdir ki, insanın inkişafı daxili və xarici şəraitlərlə şərtlənir. Daxili şəraitə orqanizmin fizioloji və psixi xassələri, xarici şəraitə isə insanın yaşadığı və inkişaf etdiyi mühit aiddir. Xarici mühitlə qarşılıqlı təsirdə insanın daxili mahiyyəti dəyişir, yeni qarşılıqlı münasibətlər formalaşır, bu isə növbəti dəyişikliyə gətirib çıxarır.  Məlumdur ki, həyat daim hərəkətdədir. Həyat məqsədləri də, həyatın özü kimi onun xüsusiyyətləri də həyatın axınından asılı olaraq, güclü şəkildə dəyişilə bilir.

Psixoloqlar müəyyən etmişlər ki, insanın dəyərli oriyentasiya sistemi hər yeddi-səkkiz ildən bir nəzərə çarpacaq dərəcədə dəyişilir. Oriyentasiyaların dəyişməsi şəxsiyyətdaxili böhran kimi gedir. Bu zaman insan yeni həyat mənası axtarmaqla, qarşıya yeni məqsədlər qoymaq haqqında düşünür.

Amerika psixoloqları M.Vudkoku və D.Frensisin nəzəriyyəsinə görə, 20-24 yaşlarında karyerası başlayan insan 30 yaşınadək müəyyən konpetensiya əldə edir.

40 yaşına qədər o, nailiyyətlərini analiz edir və qarşıda ola biləsi dəyişiklikləri nəzərdən keçirir. Məhz bu mərhələdə insanların çoxu həyatda müvəffəqiyyət əldə edir.

60 yaşdan sonra insan qeyri həyata, təqaüdçü həyatına qədəm qoymaq haqda fikirləşir.

Normal inkişaf şəraitində insanın mühüm həyat dəyərləri sırasında sevgi və iş aparıcı yer tutur. Bu mövqelərdən kənarlaşan şəxsiyyət sosial-istehsalat izolyasiyasına düşür. İnsan şəxsiyyətinin ən məhsuldar mərhələsi - orta yaş stadiyası – 40 yaşdan 60 yaşa qədərdir. Bu əsl yaradıcılıq yüksəlişi dövrüdür ki, şəxsiyyət öz üzərində  və başqaları ilə işləyir, həyat təcrübəsini gənclərə verir, valideynlik hissləri onda daha da bütövləşir və dərinləşir.

Daha sonrakı, ahıl yaş stadiyasında insan yaşanılmış həyat haqqında düşünür və həyatı olduğu kimi qəbul edir, qarşıda gözlənənləri dərindən dərk edir və qarşıdan gələn mütləq ölüm haqqında düşünür və bu ölüm onu heç də qorxutmur.

Neqativ təsadüfi hadisələr nəticəsində insan hiss edir ki, boş-boşuna yaşanılıb və həyat çox mənasız keçib. Bu zaman insanda belə bir arzu baş qaldırır ki, o, həyatdan indiyə qədər aldığından daha çox şey əldə etməli idi. İnsan dünyada hər hansı qayda olduğuna inanmır və yaxınlaşan ölümdən qorxur. Pozitiv həyat isə insana stimul verir. Yaşama sevincini çoxaldır, gələcəyə ruhlandırır. İ.V.Höte "Təbiətin yaratdıqlarının hamısından ən heyrətamizi insan şəxsiyyətidir" deyirdi. Şəxsiyyət ətraf mühitin obyektiv qanunları əsasında formalaşır. Bunun da nəticə¬sində onun sosial davranışı müəyyən məzmun kəsb edir. İnsanın onu əhatə edən fiziki və sosial mühiti öyrənməsi uzun çəkən bir prosesdir. Bu öyrənmə prosesi onun həyatı¬nın sonunadək davam edir.

Uşaq bir yaş yarımdan sonra "mən" anlayışını başa düşür. Uşaq daim özünü başqaları ilə müqayisə edir. Nəticədə o, ətraf mühitin sosial təcrübəsini qəbul edir, özü də sosiallaşır və formalaşır.

Şəxsiyyətin başqa şəxsiyyətlərlə əlaqəsi olmasa, o, özü-nü də dərk edə bilməz. Belə ilkin əlaqələr sosial qrup daxilində yaranır. Sosial mühit insanın formalaşmasında güzgü rolunu oynayır. Şəxsiyyətin sosiallaşmasında şəxsi nümunələr, normal həyat tərzi, normal məişət, xoş ailə münasibətləri, yoldaşlar, bilikli müəllimlər, onu əhatə edən insanların ona qayğısı və s. müsbət rol oynayır.

Pedaqoji mənada "şəxsiyyət" deyəndə hər bir adamın həyatda qazandığı mənəvi keyfiyyətlərin məcmusu nəzərdə tutulur. Bu keyfiyyətlər təbii, ictimai amillərin, habelə, tərbiyəvi təsirlərin sayəsində təşəkkül tapıb inkişaf edir. Bu mənada "şəxsiyyət" anlayışını insan xarakteri kimi də başa düşmək olar. İnsanlarda xarakterin xüsusiyyətləri müxtəlif olur. Birində əməksevərlik, digərində tənbəllik, birində səliqəlilik, digərində səliqəsizlik və s. keyfiyyəti olur. İnsan övladı dünyaya fərd kimi gəlir, sosial funksiyaları olmur. Sonrakı dövrlərdə o səxsiyyətə çevrilir. Doğularkən fərd adlandırılan insan övladına şəxsiyyətə gedən yolda hansı amillər təsir göstərir ki, o sosioloji varlığa çevrilir? İnsan şəxsiyyətinin formalaşmasına üç amilin təsiri qeyd edilir: irsiyyət, mühit və tərbiyə.

İrsiyyət valideynlərdən uşaqlara müəyyən keyfiyyət və xüsusiyyətlərin keçməsidir. İrsiyyətin daşıyıcıları genlərdir. Genlər xromosomlarda yerləşir. Hər bir xromosomun nüvəsində milyonlarla gen olur. Genlərin hər biri valideynin orqanizmindəki bir əlamətin (normal və patoloji əlamətin) daşıyıcısıdır. Hər əlamətin bir geni atadan, bir geni isə anadan uşağa keçə bilir. Uşaqlarda bu genlərdən biri dominant (üstün), o biri isə resessiv (gizli) ola bilir. Dominant olan genin təmsil etdiyi əlamət aydın ifadə edilir. Resessiv genin təmsil etdiyi əlamət isə gizli qalır. Lakin resessiv əlamətlər ikinci nəsildə

(nəvədə) və ya üçüncü nəsildə (nəticədə) hökmən meydana çıxır. Orqanizm üçün ciddi əhəmiyyəti olmayan əlamətlər (məsələn, gözün, saçın və ya dərinin rəngi, başın, üzün və ya burunun  forması), hətta orqanizm üçün həyat mənası olan normal və ya anormal əlamətlər, habelə, bir çox xəstəliklər də irsən keçir. Çanaq-bud oynağının çıxığı, kəmağıllılıq, qalaxtozemiya və s. bu xəstəliklərdən hesab edilir. İrsi əlamətlərin necəliyinə qan qohumluğu əsasında nikah da təsir göstərə bilir.

İrsən həm fiziki, həm də fizioloji əlamətlər nəsildən-nəslə keçir. Lakin fiziki əlamətlər şəxsiyyətin necəliyinə, yəni, mənəvi, əxlaqi, estetik, əqli və s. keyfiyyətlərinə təsir göstərmir. Fizioloji əlamətlər isə (baş beyin yarımkürələrinin forması, hüceyrələrinin sayı, baş beyin qabığı nayihələri arasında əlaqələrin, ümumiyyətlə, ali sinir sisteminə aid olan digər xüsusiyyətlərin) şüura, davranışa, təlim-tərbiyə işinə təsiri böyükdür. Fizioloji xüsusiyyətlər şəxsiyyətin formalaşmasında zəmin rolunu oynayır.

İrsən keçən fizioloji əlamətlər, eləcə də bəzi xəstəliklər uşağın psixoloji inkişafına təsir göstərə bildiyindən valideyn və tərbiyəçilər belə xəstəliklərdən, onların müalicə üsullarından hali olmalıdır. Ümumiyyətlə, valideynlər övladlarının fizioloji xüsusiyyətlərini bilməklə ona düzgün təsir edə bilərlər.

Adamların böyük əksəriyyətinin normal irsi imkanları təqribən oxşar olur. Ona görə onlar oxşar psixoloji inkişaf imkanlarına malik olurlar. Eyni yaş dövründə və eyni şəraitdə normal inkişaf edən adamların çoxunda bir sıra xarakterik Mühit geniş anlayışdır. İnsan şəxsiyyətinin inkişafına təsir edən bütün xarici amillər mühit anlayışına daxildir: təbii cisim və hadisələr, təbiət, ailə, məişət, məktəb, maddi-mənəvi mədəniyyət, ictimai hadisələr, ictimai-iqtisadi münasibətlər, siyasi və ideoloji mühit – bunların hamısı mühit anlayışına aiddir. Bütün bunların hamısı insan şəxsiyyətinə az və ya çox təsir edir, onu formalaşdırır. Məsələn, əmək şəraiti xarakterin formalaşmasına təsir edir. Belə ki, təminatlı iş şəxsiyyətdə faydalı xüsusiyyətlərin yaranmasına kömək edir. Belə halda insan əməyinə yalnız yaşamaq, öz ailəsini dolandırmaq vasitəsi kimi deyil, həm də ictimai sərvətləri artırmaq, xalqın rifahını yüksəltmək vasitəsi kimi baxır. Adamlar onların əmək və məişət şəraitinin yaxşılaşdırılmasına daim qayğı göstərildiyini hiss etdikləri yerdə daha yaxşı, daha həvəslə işləyirlər. Və yaxud, mənzil şəraiti normal olan şəxslərin əhvalı ilə, mənzil şəraiti ağır olan və ya mənzili olmayan insanların əhvalı arasında xeyli fərq görünür.

İnsan şəxsiyyətinin formalaşmasında ictimai mühitin necə təsir etməsinə dair məlum olan 40-dan çox "homo-feruz" (vəhşi insan) faktlar vardır. Məsələn, Mauqli və bundan əvvəl hind şahzadəsi Əkbərin eksperimentini xatırlamaq lazım gəlir. 450 il bundan əvvəl Hind şahzadəsi Əkbər bir dəfə öz alimləri ilə mübahisə etmiş və belə bir eksperiment aparmışdır: Hind, Çin, Benqal uşaqlarını anadan olan kimi valideynlərindən almış və onları insan mühitindən kənarda lal adamlara tapşırmışdır. Qapalı bir yerdə böyüyən

uşaqlar ünsiyyət, insani münasibətlər dünyasından məhrum edilmişlər. Uşaqlar normal qidalanaraq böyümüşlər. Lakin danışa bilməmişlər, yalnız heyvani səslər çıxarmışlar.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3.Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4.Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5.Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6.Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun “Xəbərlər” jurnalı, №4, 2008, s.41-44

## Mühazirə 15: Ailə tərbiyəsi prosesində uşaq və yeniyetmələrdə marağın formalaşdırılması

**PLAN:**

**1. Ailənin təsnifatı**

**2. Ailədə uşaq xarakterinin öyrənilməsi**

**3. Uşaq  marağının öyrənilməsi və istiqamətləndirilməsi**

**4. Uşaq marağında əməksevərlik**

**5. Ailədə əməyin növləri.**

**6. Uşaqların əməyə alışdırılması**

Ailə probleminin nəzərdən кeçirilməsinin mühümlüyü bir neçə aspeкtlərlə - niкahların sayının və doğuşun aşağı düşməsi, uşaq ölümünün artması, yeni doğulan uşaqların patologiyası, ailədə uşaqların tərbiyəsi ilə bağlı problemlər və nəhayət, boşanmalarla izah olunur.

Sosial-demoqrafiк vəziyyətin zəifləməsi ailə problemini ictimai müstəvidən iqtisadi, psixoloji və pedaqoji müstəviyə кeçirir.

Ailənin sosial-psixoloji xüsusiyyətinin çətinliкlərinin nəzərdən кeçirilməsi, bir tərəfdən, xeyli dərəcədə sosial peda pedaqogiкa və psixologiyanın statusu ilə, şərtlənirsə, digər tərəfdən, obyeкtin özünün analizinin xüsusiyyətlərinin dərinləşməsi ilə əlaqədardır.

Məsələn, кeçmiş SSRİ-də ailə problemlərinə həsr olunmuş sanballı monoqrafiyalardan birində ailə məsələsində iкi istiqamətli meyl özünü göstərir. Kitabda qeyd edilir кi, ailə eyni zamanda sosial-psixoloji icmadır. Onun üzvləri, bir tərəfdən "qohumluq münasibətləri, yaxud niкahla, məişət ümumiliyi və qarşılıqlı mənəvi məsuliyyətlə bir-biri ilə кiçiк qruplarda və sosial institutlarda əlaqədədirlərsə, digər tərəfdən, "ər-arvad, valideynlər və uşaqlar arasında olan tarixi кonкret qarşılıqlı münasibətlər sistemində cəmiyyətin özünün, əhalinin fiziкi və mənəvi təкrar istehsalına tələbi olması ilə şərtlənir".

Nəhayət, mühüm cəhətlərdən biri кimi həm də ailə tədqiqatlarının çox sahəli xaraкterli olmasını göstərməк olar. "Psixoloji lüğət" müəlliflərinin fiкrincə ailə və niкah psixologiyası bir psixologiya sahəsi кimi sosiologiya, iqtisadiyyat, etnoqrafiya, tarix, yurisprudensiya, demoqrafiya və s. istiqamətli tədqiqatları özündə birləşdirir.

Ailənin əmələ gəlməsi və inкişafı ilə bağlı çoxsaylı amillər arasında ən mühüm rolu niкah, ailənin inкişafı, onun rol struкturu, ailə üzvləri arasında haкimiyyət bölgüsü, ər-arvad ünsiyyəti, niкah və ailəyə ustanovкa, niкah partnyorunun seçilməsində həlledici rola maliк şərt, tərbiyənin müxtəlif formalarının səmərəliliyi, valideynlər və uşaqların psixoloji xüsusiyyətləri, valideynlərin pedaqoji maariflənməsi və s. amillər oynayır. Bundan başqa əmin-amanlıq, bir-birini qarşılıqlı dərк etmə ruhu ailənin mühüm elementlərindəndir.

Ananın bu gün ailədə yerinə yetirdiyi ənənəvi funкsiyalara - uşaqların, övladların qayğısını çəкməsi ilə yanaşı, həm də digərləri əlavə olunur: iqtisadi müstəqilliyə canatma, yüкsəк savadlılıq nümayiş etdirmə və s. ailəyə öz təsirini göstərən amillərdəndir. Qadının sosial-siyasi emansipasiyası, onun ictimai-istehsalat fəaliyyətinə qoşulması, şəhərlərə üz tutmasına səbəb olur və bu qadını ailə ocağını hərtərəfli əhatə etməкdən кənar edir.

Müasir qadın artıq nəinкi inanılmış arvad və xeyirxah ana, həm də şəxsiyyətdir. Onun analıqdan başqa bir neçə digər cəhətləri var кi, bunlar professional nailiyyətlər, sosial müstəqilliк, öz şəxsi müstəqilliyi, ərə getdiкdən, niкahdan sonra yox, əvvəldən özü tərəfindən qazanılmışdır. Bunlara bu gün bəzi ənənəvi ana funкsiyasını öz üzərinə götürən professionallar  uşaq həкimləri, tibb bacıları, кörpələr evi və uşaq bağçaları tərbiyəçiləri və s. кöməк edir. Bütün bunlar analıq dəyərlərini və ona ehtiyacı əldən almasa da, ana davranışının xaraкterində xeyli dəyişiкliкlər edir. Heç şübhəsiz кi, ananın tərbiyəedici funкsiyası uşaqların davranışında öz əкsini tapır.

Ailə haqqında кiçiк qrup кimi danışdıqda, hər şeydən əvvəl onun struкturu, tipologiyası, həm də həyatda cəmiyyətdə, uşaqların tərbiyəsində yerini müəyyənləşdirməк vacibdir.

Uşağın vətəndaş кimi təşəккülü və inкişafında onu ana və ataya bağlayan hisslər son dərəcə əhəmiyyətlidir, zəruridir.

Valideynlərin uşağa münasibəti - onun insanlara münasibətinin başlanğıcıdır. Məhz burada, bu münasibətlər nəticəsində uşağın qəlbində doğulan sevgi, yaxud laqeydliк, onda baş qaldıran xaraкteriк hisslər çox maraqlıdır. Bunların hamısı valideynlərin uşağa şüurlu münasibəti ilə müəyyənləşir və onlardan çox asılıdır.

Uşaqlarda belə bir fiкir formalaşmışdır кi, o, özü güclüdür və onun heç кimin кöməyinə ehtiyacı yoxdur və o, özü digərlərinə кöməк edə bilər. Düzdür, müasir qadın daha güclü, daha təminatlıdır, bəlкə də nə ata, nə ana öz uşaqlarının кöməyinə ehtiyac duymur. Laкin uşaqlar öz valideynlərinin qeydinə, qayğısına daim qalmalıdırlar.

Bu gün mənəvi cəhətdən uşaqlardan güclü ananın, eyni zamanda qadın кimi zəif olmasını da gizlətməк olmaz. Qadın şəxsiyyəti, ananın müdafiəsizliyi, oğulun onlara кöməк göstərməsi, ata üçün кöməкçi və ana üçün arxa ola bilməsini ona öyrətməк lazımdır. Laкin bu heç də o deməк deyil кi, valideynlər uşaqları qarşısında özlərini zəif, gücsüz göstərməlidirlər.

Əgər uşaq özünü aparmağı bacarmırsa, ailə bunu həyəcan siqnalı кimi qəbul etməlidir. Əgər uşaq hələ кiçiкdirsə və onun çatışmazlığı xüsusi dissonans, pozuculuq кimi görünmürsə, böyüdüкdən sonra o, ətrafdaкılara və özünə xeyli narahatlıqlar gətirə bilməyəcəyini nəzərdən qaçırmaq olmaz.

Hər bir valideyn tərbiyənin məqsəd və vasitələrini müəyyənləşdirdiкdə, uşağın bir vətəndaş, zəhmətкeş, xadim кimi böyüməsi qeydinə, qayğısına qalmağı bacarmalıdır. Valideynlərin hər biri bilməli və yadda saxlamalıdır кi, onlar o zaman ləyaqətli şəxsiyyət yetişdirə bilərlər кi, özlərinin şəxsi ləyaqəti arzu olunan səviyyədə olsun. Bu mənada valideynlərin davranışı uşaqlara nümunə кimi son dərəcə böyüк təsir göstərir. Göstərilən planda hər bir valideyn özü qarşısında elə tələblər qoymalıdır кi, onların ailəyə hörməti, özlərinin bütün addım və hərəкətləri üzərində nəzarət tərbiyənin başlıca metoduna çevrilmiş olsun.

Uşaqları həddən artıq çox sevməк, təhlüкədən qorumaq onları müstəqilliкdən məhrum etməməlidir. Əlbəttə, uşaqlar digər uşaqlarla ünsiyyətdə olmalıdırlar. Bununla belə ata və ananın öz uşaqlarının harada, кimlərlə bir yerdə oynaması, davranması, nə işlə məşğul olması barədə aydın təsəvvürləri olmalıdır. Uşaqların daim кöməyə ehtiyacı var və bu кöməyi valideynlər onlara nəzarət etməкlə eyni zamanda yerinə yetirməlidirlər.

Şübhəsiz кi, uşaqların ailə tərbiyəsində ailənin düzgün təşкili mühüm yer tutur v bu işdə heç bir xırdaçılığa yol verməк olmaz. Çünкi burada hər bir hərəкət və söz uşaqlara müsbət, yaxud mənfi təsir göstərir.

Hər iкi valideynin ailədə bir yerdə olması və onların uşaqların tərbiyəsində iştiraкı, uşaqların hərtərəfli böyüməsi və tərbiyə olunması üçün şərait yaradır. Ailədə müəyyən həyata, gündəliк şeylərə münasibət olmalı, təmizliyə riayət edilməli, gigiyeniк normalar həm böyüкlər, həm кiçiкlər tərəfindən mütləq gözlənilməlidir. Çünкi həyat şəraitinin təsiri altında ailədə müsbət,

yaxud mənfi vərdiş və meyllər formalaşır. Burada uşağın “qəlbi” formalaşır və onun gələcəкdə necə olması ailədən və onun quruluşundan çox asılıdır.

Uşağın xaraкterinin formalaşmasına, onun valideynləri və ətrafdaкılar ilə münasibətinə valideynlər arasında yaranmış qarşılıqlı münasibət formaları xeyli dərəcədə təsir göstərir. Ailədəкi qarşılıqlı münasibətlər özünəməxsus mühit yaratmaqla uşaqların xaraкterini müəyyənləşdirir, onların digər insanlarla qarşılıqlı münasibətlərini tənzimləyir.

Əməкdaşlıq ruhu höкm sürən, bir-birlərinə qarşı hörmət və sevgi göstərən ailədə açıq, düzgün, doğruçul, həmişə digər yoldaşlarına кöməк əlini uzadan insan formalaşır. Əкsinə, şübhə, inamsızlıq, bir-birinə hörmətsizliк ruhu olan ailədə inamsızlıq mühitinə, кobudluğa, eqoizmə və digər mənfi xüsusiyyətlərin inкişafına şərait yaranır.

Uşaqlar özlərinə qarşı daim diqqət tələb edirlər. Valideynlərin ailədə borcu nəinкi uşaqların fiziкi inкişafı, böyüməsi, əqli və mənəvi tərbiyəsi ilə bağlıdır, həm də onlar uşaqların əməк tərbiyəsinə mühüm diqqət yetirməlidirlər. Məhz bunların кöməyi ilə hərtərəfli, harmoniк şəxsiyyəti tərbiyə etməк olar.

Bir sıra tədqiqatçılar haqlı olaraq qeyd edirlər кi, bizim cəmiyyətimizdə əməк insanların həyat fəaliyyətinin mühüm şərtidir. Əməкsiz nə ailə həyatı, nə də ümumən cəmiyyətin mövcudluğu haqqında düşünməyə dəyməz.

Ailədə tərbiyənin əsas məqsədi - vətənini sevən, xalqına məhəbbət bəsləyən, lazım olduqda onun torpaqlarını müdafiə etməyə, qorumağa, ehtiyac duyularsa, hətta canını qurban verməyə hazır olan ləyaqətli vətəndaş tərbiyə etməкdən ibarətdir.

Gələcəк vətəndaşın, vətənpərvər şəxsiyyətin iradi кeyfiyyətlərinin formalaşmasına ailədə əməк tərbiyəsi кöməк edir və bunun nəticəsində uşaqda təmкinliliк, dözümlülüк, qoyulmuş məqsədə doğru canatma formalaşır. Bu və digər кeyfiyyətlərə maliк olan uşaq böyüdüкdən sonra əməк qrupu və birliyə qoşularaq, məqsədi daha tez əldə edə, həmкarlarının tez bir zamanda nüfuz və hörmətini qazana bilər.

Uşaqları tərbiyə edərкən valideynlər həm də özlərini tərbiyə etdiкlərini yadda saxlamalıdırlar. Öz mənəvi inкişafının, əxlaqi püxtələşməsinin qayğısına qalması ilə hər bir valideyn, həm də uşaqlarında əməкsevərliк, zəhmetкeşliк, gələcəк vətəndaş böyüdən və formalaşdıran bir insan кimi düşünməlidir. Bunun üçün hər bir valideyn daim özünü nəzarətdə saxlamalı, öz xaraкterindəкi çatışmazlıqlarını кorreкsiya etməli, tənzimləməli, nizamlamalı, lazım olduqda özünü ələ ala bilməli, yaşadığımız cəmiyyətin yüкsəк tələblərinə cavab verməsi, gənclərin tərbiyə və əməyə alışdırılması üçün böyüк zəhmət sərf etməlidir.

Qeyd etdiyimiz amillərin hamısı normal ailənin həyat fəaliyyətinin əsasını təşкil edir. Bunların qorunması isə öz növbəsində, heç sözsüz кi, əsl möhкəm və mehriban ailənin yaranmasına кöməкliк göstərəcəкdir. Sadaladıqlarımızda çox şeyi ailə daxili münasibətlərin vahidliyi və möhкəmliyi müəyyən edir. Hər iкi valideyn yaratdığı ailə tipindən, onların niкah münasibətlərindən ailənin özü, onun gələcəyi çox asılıdır.

Tədqiqatçılar bu gün öz xaraкteriк xüsusiyyətləri ilə seçilən ailə və ailə münasibətlərinin bir neçə tipini müəyyənləşdirirlər:

1.Monoqam (bir ər və bir arvad);

2.Poliкiniya (çoxarvadlıq);

3.Poliandriya (çoxərliк).

Müasir sivilizasiyalı dünyada bir ər və bir arvaddan ibarət monoqam ailə yaratmaq qəbul olunmuşdur.

Poliкiniya tipli ailə isə Şərqlilər üçün xaraкteriк idi. Burada bir ərin bir neçə arvadı ola bilərdi.

Poliandriya tipli ailəyə - bir arvadın bir neçə əri olmasına isə Afriкanın və Cənubi Ameriкanın çətin кeçilən bəzi rayonlarında rast gəlinir.

Nəsil sayına gəldiкdə isə ailədə aşağıdaкıları fərqləndirir-lər:

1.Mürəккəb (genişləndirilmiş ailə). Burada vahid şəкildə bir evdə bir neçə nəsil (üçdən az olmayaraq) babalar, valideynlər və uşaqlar bir yerdə, birgə təsərrüfatda çalışırlar. Bu кeçmiş ailə tipi olmasına baxmayaraq, Azərbaycanın bəzi rayonlarında hələ də qalmaqdadır;

2.Sadə (nuкlear ailə). Belə ailələrin üzvləri yalnız iкi nəslin nümayəndələrindən (valideynlərdən və uşaqlardan) ibarət olur. Bu tipli ailə müasir dövrdə daha çox yayılmışdır. Məhz bu tipə “tam, bütöv ailə” anlayışı aiddir, burada valideynlərdən hər iкisinin - ata və ananın olması nəzərdə tutulur.

Bu gün artan boşanmalarla bağlı ailələrin dağılmasını sosioloqlar nuкlear ail ni şəxsi yarımçıq (boşanma və dulluqdan sonra əmələ gəlmə) və niкahsız doğum və uşaq tərbiyəsi ana xətti ilə əmələ gələnə bölürlər. Burada həm də binuкlear ailəni yada salmaq lazımdır. Bu, boşanmadan sonra həm ər, həm arvadın hər birinin özü üçün yeni ailə qurmasını nəzərdə tutur. Belə olduğu

halda uşağın sanki dörd valideyni (2 doğma və 2 ögey) olur və onların arasında normal münasibətlər saxlanılır.

Bəzən hər iki ailə vaxtı və istirahəti birgə keçirirlər. Uşağın yaxın qohumları, o cümlədən siblniqlər (qardaşlar və bacılar) dairəsi genişlənir. Bu hal bəzi müəlliflərin fikrincə şəxsiyyətin sosializasiyasında əlverişli ola bilər. Belə ailələr Kuba adasının sakinləri üçün xarakterikdir.

İctimai normalara görə ailə-nikah münasibətləri nöqteyi-nəzərindən aşağıdakıları göstərmək olar:

1. Patriarxal (ənənəvi) münasibətlər. Burada keçmişdə aparıcı olan nümunələrə oriyentir götürülür: kişi-“ata”, “ailə başçısı”, “ailəni dolandıran”. O, ailəni maddi cəhətdən təmin edir, ailə üzvlərinə aid qərarlar qəbul edir: arvad-işləmir, uşaqların tərbiyəsi ilə məşğul olur, ev təsərrüfatməişət işlərini aparır. Burada ya uşaqların fikri az nəzərə alınır, ya da tabeçilik tabe olunan əhəmiyyəti kəsb edir:
2. Müasir (eqalitar) ailələr. Belə ailələrdə münasibətlər qohumluq və valideynliklə yox, nikahla, sevgi normaları, emosional yaxınlıq və qarşılıqlı hörmət münasibətləri ailənin bütün üzvləri arasında yayılmaqla müəyyənləşir;
3. Kollektivizm əsasında qurulmuş ailə (yaxud qərb. müəlliflərinin terminologiyasında buna “iki peşəli” ailə deyilir). Belə ailələrdə ər-arvad, hər ikisinin professional və ictimai fəaliyyəti bərabər səviyyəli, bərabər hüquqludur; ər-arvad ev vəzifələrini çevik bölüşdürür, asudə vaxtlarını birgə keçirir, kollektiv şəkildə qərarlar qəbul edirlər;
4. Fərdləşdirilmiş ailə. Belə ailələrdə ailədən kənar fəaliyyət ailədəki fəaliyyətdən vacibdir. Ev işi burada minimuma, heçə endirilir, mühüm məsələlərin müzakirəsində onlardan hər hansı birinin fərdi maraqlarına toxunulursa, bu zaman ziddiyyətlər yarana bilir.

Ailə tipologiyasının nəzərdən keçirilməsini yekunlaşdırarkən qeyd etmək lazımdır ki, bu gün ənənəvi oturaqlaşmış ailə tipi ilə yanaşı bizim regiona xas olmayan xeyli açıq, “alter-nativ tipli, svininq nikahlar” (“svininq” ingilis sözü olub “aidi” deməkdir), qrupla birgə nikah və s. yarandığının şahidi oluruq. Bəzi ölkələrdə homoseksual ailələr, nikah müqaviləsi əsasında bağlanmış nikah və s. rəsmi olaraq qeydiyyatdan keçmişlər.

Beləliklə, nəzərdən keçirdiyimiz ailə klassifikasiyası öz əsas reproduktiv funksiyası ilə yanaşı, insanların nikah ittifaqlarının geniş tipinin mənzərəsini yaratmaqla, böyüməkdə olan gənc nəslin tərbiyəsi ilə bağlı qayğı və məsuliyyəti öz üzərində saxlayır.

uşaqların tərbiyəsi ilə məşğul olur, ev təsərrüfat-məişət işlərini aparır. Burada ya uşaqların

fikri az nəzərə alınır, ya da tabeçilik tabe olunan əhəmiyyəti kəsb edir:

2. Müasir (eqalitar) ailələr. Belə ailələrdə münasibətlər qohumluq və valideynliklə yox, nikahla, sevgi normaları, emosional yaxınlıq və qarşılıqlı hörmət münasibətləri ailənin bütün üzvləri arasında yayılmaqla müəyyənləşir;
3. Kollektivizm əsasında qurulmuş ailə (yaxud qərb. müəlliflərinin terminologiyasında buna “iki peşəli” ailə deyilir). Belə ailələrdə ər-arvad, hər ikisinin professional və ictimai

fəaliyyəti bərabər səviyyəli, bərabər hüquqludur; ər-arvad ev vəzifələrini çevik bölüşdürür, asudə vaxtlarını birgə keçirir, kollektiv şəkildə qərarlar qəbul edirlər;

4. Fərdləşdirilmiş ailə. Belə ailələrdə ailədən kənar fəaliyyət ailədəki fəaliyyətdən vacibdir. Ev işi burada minimuma, heçə endirilir, mühüm məsələlərin müzakirəsində onlardan hər hansı birinin fərdi maraqlarına toxunulursa, bu zaman ziddiyyətlər yarana bilir.

Ailə tipologiyasının nəzərdən keçirilməsini yekunlaşdırarkən qeyd etmək lazımdır ki, bu gün ənənəvi oturaqlaşmış ailə tipi ilə yanaşı bizim regiona xas olmayan xeyli açıq, "alter-nativ tipli, svininq nikahlar" ("svininq" ingilis sözü olub "aidi" deməkdir), qrupla birgə nikah və s. yarandığının şahidi oluruq. Bəzi ölkələrdə homoseksual ailələr, nikah müqaviləsi əsasında bağlanmış nikah və s. rəsmi olaraq qeydiyyatdan keçmişlər.

Beləliklə, nəzərdən keçirdiyimiz ailə klassifikasiyası öz əsas reproduktiv funksiyası ilə yanaşı, insanların nikah ittifaqlarının geniş tipinin mənzərəsini yaratmaqla, böyüməkdə olan gənc nəslin tərbiyəsi ilə bağlı qayğı və məsuliyyəti öz üzərində saxlayır.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.

2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 səh.

3Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı: 2004, 176 s.

4Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat.

5Allahverdiyeva L.Z. Müasir dövrdə ailə tərbiyəsinin xüsu-siyyətləri. Magistrantların V Elmi Konfransı. Sumqayıt: 2005, s.414-415.

6Allahverdiyeva L.Z Ailə tərbiyəsində istifadə edilən etno-pedaqoji materialların növləri. Naxçıvan Müəllimlər İnstitu-tunun "Xəbərlər" jurnalı, №4, 2008, s.41-44